Xalqın qəzeti!

# Xalq qəzeti

№ 45 (31014) 11 mart 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# bp Azərbaycanla əməkdaşlığa yüksək önəm verir



**Biz bp ilə 30 ildən artıq davam edən tərəfdaşlığı yüksək qiymətləndiririk. Bu müddətdə heç bir narazılıq və ya heç bir hüquqi məsələ olmayıb. Bu, ev sahibi ölkə ilə aparıcı enerji şirkəti arasında əməkdaşlığın yaxşı nümunəsidir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Səhifə ⇨ 8

## Azərbaycan Prezidentinin tapşırığı ilə İrana humanitar yardım göndərildi



Səhifə ⇨ 2

## Ankara bölgədə barış və sabitlik tərəfdarıdır

*Qonşuluq və qardaşlıq münasibətlərinə kölgə salınmamalıdır*



**“Türkiyə artıq əvvəlki Türkiyə deyil. Hər kəs öz hesablamalarını buna uyğun aparmalıdır”. Bu fikri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan özünün “X” sosial şəbəkəsindəki hesabında bölüşüb. Ümumən, mənzərə aydındır. Yəni Ərdoğanın dediklərinin başlıca hədəfinin İran olduğu heç kəsə sirr deyil. Bəli, İran Türkiyəyə doğru ikinci raket həmləsini edib.**

Bəri başdan bildirək ki, ikinci raketin aqibəti də birinci kimi olub. Hava hücumundan müdafiə sistemləri onu zərərsizləşdirib. Amma insident, istər-istəməz, sual yaradır: Görəsən, İranın ali rəhbərliyində təmsil olunanlar ölkənin düşdüyü atəşin qonşulara yayılmasında hansı məqsədi güdürlər? Axı Prezident Ərdoğanın fikirləri düşünməyə vadar edir. Nəzərə alaq ki, Türkiyənin dövlət başçısının vurğuladığı başqa məqamlar da var və onların üzərində dayanacağıq.

*(ardı 5-ci səhifədə)*

## Makronun “U dönüşü”

*Fransa liderinin Azərbaycan dilində paylaşımı nə vəd edir?*



Emmanuel Macron
@EmmanuelMacron

Bölgə rəhbərləri ilə apardığım məsləhətləşmələr çərçivəsində Prezident İlham Əliyevlə söhbət etdim və ölkəsinə yönəlmiş İran zərbələrindən sonra ona dəstəyimizi və həmrəyliyimizi ifadə etdim.

Həmçinin, vətəndaşlarımızın təxliyəsini asanlaşdırmaq üçün Azərbaycanın göstərdiyi yardıma görə ona təşəkkür etdim.

Bu fürsətdən istifadə edərək, Ermənistan ilə Azərbaycan arasında sülh prosesinə dəstəyimizi və Bakı ilə ikitərəfli dialoqumuzu daha möhkəm əsaslar üzərində davam etdirmək istəyimizi bir daha vurğuladım.

ÖS 7:34 · 8 Mar 2026 · 436,4 B Görüntüləme

**Tarix boyu siyasət dünyası nadir hallarda düz xətt üzrə irəliləyib. Əksər zamanlarda istər dövlətlər, istərsə də liderlər əvvəlki qərar və mövqelərində kəskin dönüşlər ediblər. Məsələn, Uinston Çörçill II Dünya müharibəsinin gedişində əvvəlcə ehtiyatlı mövqe saxlasa da, sonradan Britaniyanın müharibəyə tam qoşulmasına qərar verdi. ABŞ prezidenti F.D.Ruzvelt isə əvvəlcə bəzi iqtisadi islahatların reallaşdırılmasında tərəddüdlü idi, lakin Böyük Depressiya şəraitində siyasətini tam dəyişərək geniş dövlət müdaxiləsi proqramlarını həyata keçirdi. Siyasətdə “U dönüşü” adlanan bu manevrlərə bu gün də rast gəlmək mümkündür.**

Fransa Prezidenti Emmanuel Makronun martın 8-də öz “X” hesabında Azərbaycan dilində paylaşımı Parisin ölkəmizə münasibətində yumşalma əlaməti kimi qiymətləndirilə bilər. Yəni bu, Makronun Azərbaycan siyasətindəki “U dönüşü”dür. O, paylaşımında Azərbaycana dəstəyini ifadə edib: “Bölgə rəhbərləri ilə apardığım məsləhətləşmələr çərçivəsində Prezident İlham Əliyevlə telefon söhbətimdə vətəndaşlarımızın təxliyəsini asanlaşdırmaq üçün Azərbaycanın göstərdiyi yardıma görə ona təşəkkür etdim. Bu fürsətdən istifadə edərək, Ermənistan ilə Azərbaycan arasında sülh prosesinə dəstəyimizi və Bakı ilə ikitərəfli dialoqumuzu daha möhkəm əsaslar üzərində davam etdirmək istəyimizi bir daha vurğuladım”. Makron bu paylaşımı Prezident İlham Əliyevə telefon zəngindən sonra edib.

*(ardı 5-ci səhifədə)*

## Gərgin günlərdə sülhə ümid



Səhifə ⇨ 3

## Aİ Cənubi Qafqazın qeydinə necə qalır?



Səhifə ⇨ 4

## Azərbaycan Orta Dəhlizin aparıcı ölkəsidir



Səhifə ⇨ 7

## Yaxın Şərqdən baş qaldıran ekoloji kabus



Səhifə ⇨ 8

## Bakının Tehrana diplomatik anlatması




Səhifə ⇨ 3

## Bakı və Tbilisinin yeni geosiyasi durumu



**Azərbaycan–Gürcüstan əməkdaşlığı çərçivəsində regional rabitə və kommunikasiya təhlükəsizliyi son illər Cənubi Qafqazın geosiyasi gündəliyində xüsusi aktuallıq kəsb edir. Yaxın Şərq və Avrasiya məkanında cərəyan edən mürəkkəb siyasi proseslər, qlobal güc mərkəzləri arasında artan rəqabət və regional münaqişələrin genişlənməsi bu tərəfdaşlığın mahiyyətini sadə qonşuluq münasibətlərindən çıxararaq regional təhlükəsizlik sisteminin mühüm sütununa çevirib. Belə bir şəraitdə Azərbaycan və Gürcüstan arasında formalaşmış tərəfdaşlıq yalnız irimiqyaslı iqtisadi və enerji layihələri ilə məhdudlaşmır, həm də Avrasiyanın nəqliyyat və enerji xəritəsini formalaşdıran təhlükəsizlik qalxanı rolunu oynayır.**

*(ardı 3-cü səhifədə)*

## Sosial xidmətlərdə şəffaflıq, əlçatanlıq və səmərəlilik

Səhifə ⇨ 9

# İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Müctəba Hüseyni Xamenei həzrətlərinə

**Möhtərəm Ayətullah Xamenei həzrətləri!**

İran İslam Respublikasının Ali Rəhbəri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Atanız - İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xamenei həzrətlərinin faciəvi vəfatı ilə əlaqədar Sizə bir daha başsağlığımı ifadə edirəm.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında münasibətlər tarixən mehriban qonşuluq və dostluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanır. Dövlətlərarası əlaqələrimizin xalqlarımızın mənafelərinə uyğun olaraq qarşılıqlı hörmət və etimad məcrasında inkişafı naminə birgə səylər göstərəcəyimizə ümidvar olduğumu bildirirəm.

Bu yüksək təyinatla bağlı Sizə bir daha təbriklərimi çatdırır, dost və qardaş İran xalqına sülh və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 mart 2026-cı il**

# Prezident İlham Əliyev dəstəyə görə Qazaxıstan Prezidentinə təşəkkür edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranın Naxçıvana dron hücumlarından sonra dəstəyə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığını bildirib.**

Prezidentin "X" hesabında bununla bağlı paylaşım edilib.

Paylaşımda deyilir: "Prezident Kasım-Jomart Tokayevə İran dövlətinin Naxçıvana qarşı hücumlarını qətiyyətlə pislədiyinə və Azərbaycan ilə Qazaxıstan arasında mövcud olan qardaşlıq və müttəfiqlik münasibətləri ruhunda ölkəmizə göstərdiyi dəstəyə görə minnətdarlığımı bildirirəm".

# Azərbaycan Prezidenti Slovakiya Prezidentinə minnətdarlığını bildirib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranın Naxçıvana dron hücumlarından sonra prinsipial mövqeyinə və həmrəyliyə görə Slovakiya Prezidenti Peter Pelleqriniyə minnətdarlığını bildirib.**

Prezidentin "X" hesabında bununla bağlı paylaşım edilib.

Paylaşımda deyilir: "Slovakiya Respublikasının Prezidenti Peter Pelleqriniyə İran İslam Respublikasının Naxçıvanda mülki infrastruktura qarşı həyata keçirdiyi son PUA hücumlarından sonra nümayiş etdirdiyi prinsipial mövqeyə və həmrəyliyə görə səmimi təşəkkürümü bildirirəm.

Azərbaycanın Slovakiya diplomatik heyətinin Tehrandan təxliyəsi ilə bağlı dərhal göstərdiyi dəstək ölkələrimiz arasında yüksəksəviyyəli və strateji münasibətlərin aydın təzahürü, həmçinin beynəlxalq əməkdaşlığa sadiqliyimizin ifadəsidir".

# İnvestisiya Holdinqi Müşahidə Şurasının iclası

**Martın 10-da Azərbaycan İnvestisiya Holdinqi Müşahidə Şurasının iclası keçirilib.**



Baş nazir, Azərbaycan İnvestisiya Holdinqi Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində Holdinqin idarəetməsində olan Portfel Şirkətlərin 2025-ci ilin yekunları üzrə Fəaliyyət Hesabatı, əsas fəaliyyət göstəriciləri və maliyyə nəticələri, o cümlədən ümumi gəlir və EBİTDA göstəriciləri, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC-nin inkişaf perspektivlərinə ümumi baxış, dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı qəbul edilmiş yeni normativ-hüquqi aktların AİH-nin portfel şirkətlərinə tətbiqi barədə və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun geniş təqdimatı dinlənilib. AİH-in Müşahidə Şurasının üzvləri, AİH-in İdarə Heyətinin sədri və iclasa dəvət olunan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri Məcnun Məmmədov iclasda təqdim olunan məsələlərə dair çıxış ediblər.

İclasın yekununda AİH-in Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və Holdinqin İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

***XQ***

# Xarici diplomatlar XİN-də





**Martın 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Kolumbiyanın ölkəmizdəki yeni səfiri Nelsi Rakel Munar Xaramiyonla görüşüb.**



Görüş zamanı səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. C.Bayramov səfiri Azərbaycanda diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib, ona uğurlar arzulayıb.

Tərəflər iki ölkə arasında siyasi dialoqun genişləndirilməsi, iqtisadiyyat, ticarət, turizm, təhsil və mədəniyyət, minasızlaşdırma fəaliyyəti və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar. Bu və digər istiqamətlərdə Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrə hazırlıq işləri barədə məlumat verilib.

Hər iki ölkənin BMT, Qoşulmama Hərəkatı digər çoxtərəfli platformalarda sülh, təhlükəsizlik, davamlı inkişaf sahələrində bir-birini dəstəklədiyi məmnunluqla bildirilib. Münasibətlərdə Parlamentlərarası ölçünün əhəmiyyəti qeyd olunub, dostluq qrupları arasında qarşılıqlı təmasların və səfərlərin faydalı olduğu diqqətə çatdırılıb.

Tərəflər Yaxın Şərqdə müharibə fonunda mövcud vəziyyət ətrafında fikir mübadiləsi aparıblar. Kolumbiya səfiri ölkəsinin Xarici İşlər Nazirliyinin eskalasiya ilə bağlı açıqlama verdiyini, deeskalasiyanın əhəmiyyətli olduğunu bildirib.

*

**Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Oman Sultanlığının ölkəmizə təyin edilmiş qeyri-rezident səfiri Seyf bin Raşid Əl-Cahvarini qəbul edib.**

Görüş zamanı tərəflər Azərbaycan-Oman münasibətlərinin cari vəziyyətini və əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

İki ölkə arasında siyasi dialoq, iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi, həmçinin mədəni və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Hər iki tərəf münasibətlərin daha da inkişaf etdirilməsi və regional təhlükəsizliyin gücləndirilməsi istiqamətində əməkdaşlığın daha da genişləndirilməsi, yüksək və ali səviyyədə səfərlərin əhəmiyyətini vurğulayıb.

***XQ***

# Soydaşlarımız BƏƏ-dən ölkəmizə gətirilir

**Prezident İlham Əliyevin tapşırığına əsasən, Yaxın Şərqdə müharibə vəziyyəti ilə bağlı Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi və Dubay şəhərlərində qalmış vətəndaşlarımızın Azərbaycana növbəti təxliyəsi həyata keçirilib.**



Son bir neçə gün ərzində Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyimizin və Dubay şəhərindəki baş konsulluğumuzun müvafiq səyləri nəticəsində ölkəmizə geri qayıtmaq niyyətində olan vətəndaşlarımızın siyahıya alınması həyata keçirilib. Daha sonra, vətəndaşlarımız diplomatik nümayəndəliklərimiz tərəfindən ayrılmış xüsusi avtobuslarla Omandakı səfirliyimizin də əlaqələndirməsi ilə Oman hava limanına aparılıb və Azərbaycan Hava Yollarının xüsusi təyyarə reysi ilə ölkəmizə yola salınıb.

Qeyd edilən reyslə 195 nəfər Azərbaycan vətəndaşı, 1 nəfər Türkiyə vətəndaşı və 2 nəfər Azərbaycanda yaşayış icazəsi olan xarici ölkə vətəndaşları ölkəmizə geri qayıdır.

"Regiondakı vəziyyət tərəfimizdən diqqətlə izlənməkdədir və vətəndaşlarımızın təhlükəsizliyi prioritet istiqamətlərdəndir", - deyə nazirliyin məlumatında bildirilib.

***XQ***

# Prezidentin Mətbuat Xidmətinin məlumatı



**Martın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Dövlətimizin başçısı Türkiyə Respublikasının ərazisinə qarşı həyata keçirilmiş raket hücumunu qınayıb, qardaş Türkiyə xalqına dəstəyini ifadə edib.

Rəcəb Tayyib Ərdoğan telefon zənginə və mövqeyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

*

**Martın 8-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Prezident Məsud Pezeşkian dövlətimizin başçısının İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verməsinə, həmçinin İrana humanitar yardımla bağlı niyyətinə görə minnətdarlığını bildirib.

Məsud Pezeşkian Naxçıvanın havadan atəşə tutulması ilə bağlı insidentin İranla əlaqəsi olmadığını deyərək, hadisənin araşdırılacağını vurğulayıb.

Prezident İlham Əliyev İranda baş vermiş son hadisələrdə çox sayda mülki şəxslərin həlak olması ilə bağlı bir daha başsağlığını çatdırıb.

Dövlətimizin başçısı Naxçıvanda baş vermiş hadisənin araşdırılmasının vacibliyini vurğulayıb.

Telefon söhbəti əsnasında dövlət başçıları müştərək iqtisadi layihələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

*

**Fransa Respublikasının Prezidenti Emmanuel Makron martın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Fransa Prezidenti İranın Azərbaycana hava hücumu ilə əlaqədar ölkəsinin Azərbaycanla həmrəyliyini və dəstəyini ifadə edib.

Emmanuel Makron, həmçinin İrandakı Fransa vətəndaşlarının Azərbaycan vasitəsilə təxliyəsinə yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş olunan həmrəyliyə görə təşəkkür edib.

Telefon söhbəti əsnasında Cənubi Qafqaz regionunda sülhün möhkəmləndirilməsi və Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin yenidən canlandırılması ilə bağlı fikir mübadiləsi aparılıb, əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

*

**Martın 10-da Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Aleksandr Stubb İranın Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumu ilə əlaqədar ölkəmizə dəstəyini ifadə edib.

Azərbaycan Prezidenti telefon zənginə və göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Prezident İlham Əliyevlə Prezident Aleksandr Stubbun görüşləri və həmin görüşlər zamanı ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı aparılmış müzakirələr məmnunluqla xatırlanıb.

Azərbaycan və Finlandiya prezidentləri əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

*

**Martın 10-da Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Yaxın Şərq regionunda yaranmış gərginlikdən narahatlıq ifadə olunub, region dövlətlərinin təhlükəsizliyinə və sabitliyinə mənfi təsir göstərə biləcək addımların qarşısının alınmasının zəruriliyi bildirilib.

Telefon danışığı əsnasında, eyni zamanda, Azərbaycan-Suriya ikitərəfli əlaqələrinə toxunulub, münasibətlərin möhkəmləndirilməsində, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində hər iki tərəfin maraqlı olduğu bildirilib. Təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.

*

**Martın 7-də Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Viktor Orban İranın pilotsuz uçuş aparatları ilə Azərbaycana qarşı həyata keçirdiyi hücumu qınadığını vurğulayıb, ölkəmizlə tam həmrəy olduğunu bildirib. Macarıstanın hər zaman Azərbaycanın yanında olduğunu deyən Viktor Orban qeyd edib ki, ölkəmiz Macarıstana güvənə bilər, Macarıstan Azərbaycana hər bir dəstək göstərməyə hazırdır.

Dövlətimizin başçısı telefon zənginə, nümayiş olunan dəstəyə və həmrəylik mövqeyinə görə minnətdarlığını bildirib.

*

**Martın 7-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Bayram Beqay İranın pilotsuz uçuş aparatları ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumunu qınadığını bildirib.

Prezident İlham Əliyev telefon zənginə, Albaniyanın açıq və qətiyyətli mövqeyinə görə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafı məmnunluqla vurğulanıb, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və təmasların əlaqələrimizin inkişafına verdiyi töhfəyə toxunulub.

Tərəflər ikitərəfli gündəlikdə yer alan məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

*

**Efiopiyanın Baş naziri Abiy Əhməd Əli martın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Abiy Əhməd Əli İranın Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hava hücumunu qınadığını vurğulayıb.

Dövlətimizin başçısı telefon zənginə və göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Telefon söhbəti əsnasında Efiopiyanın Baş nazirinin bir müddət əvvəl ölkəmizə rəsmi səfəri məmnunluqla xatırlanıb, səfər zamanı aparılmış müzakirələrin və imzalanmış sənədlərin ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verəcəyinə əminlik bildirilib.

*

**Liviya Dövləti Prezident Şurasının Sədri Məhəmməd Yunis Əl-Mənfi martın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Məhəmməd Yunis Əl-Mənfi İranın Azərbaycana qarşı həyata keçirdiyi hava hücumunu qınayıb.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş olunan həmrəyliyə görə təşəkkür edib.

Telefon söhbəti zamanı Azərbaycanla Liviya arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan Prezidentinin tapşırığı ilə İrana humanitar yardım göndərildi

**Azərbaycan Respublikasının Prezidentinin tapşırığına uyğun olaraq İran İslam Respublikasına humanitar yardım göndərilir. Yardım Fövqəladə Hallar Nazirliyinin avtomobilləri vasitəsilə yola salınır. Humanitar yardımın tərkibinə 30 tona yaxın qida məhsulları daxildir.**

Bu barədə Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin Ehtiyatlara Nəzarət Departamentinin direktoru Emil Həsənzadə məlumat verib.

Onun sözlərinə görə, göndərilən yardıma 10 ton un, 6 ton düyü, 2,4 ton şəkər, 4 tondan artıq içməli su, 600 kiloqrama yaxın çay, həmçinin 2 tona yaxın dərman və tibbi ləvazimatlar daxildir.

Qeyd olunub ki, humanitar yardım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında martın 8-də baş tutmuş telefon danışığından sonra qonşu və dost İran xalqının mövcud ehtiyaclarının qarşılanmasına dəstək məqsədilə təşkil olunub.

Humanitar yardım karvanını Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının məsul vəzifəli şəxsləri, Xarici İşlər Nazirliyinin nəzdində Beynəlxalq İnkişafa Yardım Agentliyinin əməkdaşları İranın Astara şəhərinədək müşayiət edirlər.



*

Azərbaycandan İran İslam Respublikasına göndərilən humanitar yardımı daşıyan yük maşınları "Astara" dövlət sərhədindən buraxılış məntəqəsindən keçərək qonşu ölkəyə yola salınıb.

***XQ***




# Bakının Tehrana diplomatik anlatması

## *Taktiki yanlışlıqlar strateji təmkinlə neytrallaşdırılır*

**Azərbaycan Prezidenti İlham Əliyev müasir beynəlxalq münasibətlər sistemində praqmatik humanizmin, fərqli və eyni zamanda, olduqca uğurlu diplomatiyanın müəllifi kimi çıxış edir. Onun tərəfdaş və qonşu ölkələrlə tutduğu yol, yürütdüyü siyasət regional gərginliyi sülh və əməkdaşlıq platforması ilə əvəzləməyə xidmət edir. Son hadisələr fonunda Azərbaycanın sərgilədiyi dialoq prinsipiallığı ölkəmizin sülh ixrac edən qlobal aktor statusunu daha da möhkəmləndirir.**

### Hərbi təhlükədən yayınma strategiyası

Bölgə həm böyük güclərin maraqlarının kəsişdiyi yer, həm strateji enerji və nəqliyyat marşrutlarının qovşağı, həm də uzun münaqişədən yeni çıxmış bir məkandır. Belə bir mühitdə sabitlik, sözsüz ki, etibarlı qonşuluq siyasəti ilə təmin oluna bilər. Son hadisələr bir daha sübut etdi ki, Azərbaycan bu istiqamətdə konstruktiv yanaşma nümayiş etdirən dövlətlərdən biridir. Ötən həftə İran tərəfindən ölkəmizə qarşı qeyri-dost addımların atılması və Naxçıvana dron hücumu iki qonşu dövlət arasında gərginliyi artıra bilərdi. Amma Prezident İlham Əliyevin etdirdiyi prinsipial mövqeyi, təmkinli davranışı bu gərginliyin dərinləşməsinin qarşısını aldı.

Dövlətimizin başçısı ötən həftə Təhlükəsizlik Şurasının iclasında qətiyyətlə bildirdi ki, Azərbaycan öz ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmasına imkan verməyəcək. Prezident, həmçinin ölkəmizin əvvəllər olduğu kimi, bu dəfə də İrana qarşı yönəlmiş heç bir əməliyyatda iştirak etmədiyini və bundan sonra da etməyəcəyini vurğuladı. Bununla da ölkəmiz bölgədə hər hansı bir qarşıdurmada maraqlı olmadığını, əksinə, qarşılıqlı hörmət və ərazi bütövlüyü prinsiplərinə sadiq qaldığını nümayiş etdirdi. Ölkə başçısının bu fikirləri gərginliyi ritorik müstəvidən konstruktiv dialoq pəncərəsinə keçirməyə imkan yaratdı.

Əslində, rəsmi Bakının qarşı tərəfə adekvat hərbi cavabı beynəlxalq hüquq müstəvisində tamamilə başadüşülən addım olardı. Lakin eskalasiyadan yayınma yolu seçildi. İran tərəfinə sərt xəbərdarlıq edildi, lakin bu, birbaşa hərbi təhdid deyil, mehriban qonşuluq münasibətlərinin qorunması naminə atılan strateji addım idi. Eyni zamanda, sərgilənən münasibət daxili sabitliyin qorunmasında da mühüm rol oynadı. Xarici təsirlərdən qaynaqlana biləcək mümkün dini ekstremizm və ideoloji provokasiyaların qarşısı alındı.

Rəsmi Bakının tələsik və emosional qərarlardan yayınması hadisələrin mənfi məcrada inkişafına imkan vermədi. İran Prezidenti Məsud Pezeşkianın hadisədən bir müddət sonra üzr istəməsi isə bu siyasətin diplomatik qələbəsi idi. Qeyd etmək lazımdır ki, adətən dövlət liderləri belə hallarda "təəssüf edirik" kimi qeyri-müəyyən ifadələrlə kifayətlənir və ya məsuliyyətdən yayınmağa çalışırlar.

### Kəskin hədələrdən dinc "yol xəritəsi"nə

Yaşanan gərginlikdən sonra ikitərəfli münasibətlərin durğunluq mərhələsinə keçidinə imkan verilmədi. Martın 8-də Məsud Pezeşkianın İlham Əliyevə telefon zəngindən sonra münasibətlər "uğursuzluq zolaqdan" çıxmağa başladı. Pezeşkian baş vermiş insidentin ciddi şəkildə, araşdırılacağını vurğuladı. Bu da, öz növbəsində, iki ölkə arasında yarana biləcək böhranın qarşısının alınması baxımından mühüm siyasi mesaj oldu. Telefon söhbəti zamanı tərəflər təkcə təhlükəsizlik məsələlərini deyil, həm də müştərək iqtisadi layihələrin inkişaf perspektivlərini müzakirə etdilər. Diplomatik təmasın nəticəsi özünü çox gözlətmədi. Zəngdən 12 saat keçməmiş Azərbaycan və İran arasında bütün növ nəqliyyat vasitələri üçün yükdaşımaları tam bərpa olundu. Azərbaycan Prezidenti İranın yeni ali dini lideri Ayətullah Seyid Müctəba Hüseyni Xameneiyə təbrik məktubu ünvanlayaraq ikitərəfli münasibətlərin gələcək inkişafına dair mesajlar verdi. Məktubda dövlət başçısı xalqlar arasında tarixi dostluq münasibətlərini xatırladaraq əlaqələrin qarşılıqlı hörmət və etimad əsasında inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi. Bu, regionda yaranmış mürəkkəb siyasi şərait fonunda iki ölkə arasında əlaqələrin qorunması baxımından xüsusi əhəmiyyət daşıyır. Onu da xatırladaq ki, İlham Əliyev martın 4-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyinə gedərək qonşu ölkənin Ali dini rəhbəri Ayətullah Seyid Əli Xameneinin həlak olması ilə əlaqədar səfirə başsağlığı vermişdi.

### Azərbaycanın qonşuluq sədaqəti

Dünən isə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə İrana humanitar yardım karvanı yola salındı. Humanitar yardımın tərkibinə 30 tona yaxın qida məhsulları, o cümlədən 10 ton un, 6 ton düyü, 2,4 ton şəkər, 4 tondan artıq içməli su, 600 kiloqrama yaxın çay, həmçinin 2 tona yaxın dərman və tibbi ləvazimatlar daxil edilmişdi. Bu yardım Azərbaycanın uzaqgörən, sülhsevər siyasətinin, səmimi qouşuluq niyyətinin təzahürüdür. Məqsəd qonşu İran xalqının mövcud ehtiyaclarının qarşılanmasına dəstək vermək və regionda mehriban qonşuluq mühitini bərpa etməkdir.

Son olaylar göstərdi ki, Azərbaycanın regional siyasətinin əsas elementlərindən biri etibarlı qonşuluq və balanslaşdırılmış diplomatiyadır. Bakı müxtəlif siyasi blokların təsiri altına düşmədən, milli maraqlarını qoruyaraq, qonşularla əməkdaşlıq etməyə çalışır. Bunu İrana göndərilən humanitar yardım, dövlət başçıları arasında aparılan telefon danışı, yeni ali liderə ünvanlanan təbrik məktubu da nümayiş etdirdi. Bəli, Azərbaycan çətin və həssas məqamlarda konstruktiv və məsuliyyətli mövqe nümayiş etdirməyi bacarır. Bakının son addımları Azərbhaycanın çətin günlərdə qonşularına dəstək verə bilən etibarlı tərəfdaş və məsuliyyətli dövlət modeli formalaşdırmağı bacardığını təsdiq etdi.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı**

Azərbaycan dövləti xarici siyasət kursunda qonşuluq prinsiplərinə sadiq qalaraq, region ölkələri ilə əlaqələrin inkişaf etdirilməsində hər zaman strateji maraq nümayiş etdirib. Bu kontekstdə İran İslam Respublikası Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyan ölkələrdən biridir. Azərbaycan Prezidentinin İrana göstərdiyi humanitar dəstək ölkəmizin etibarlı qonşu və strateji tərəfdaş olduğunun əyani təzahürüdür.

Dövlət başçısının İranın ali rəhbərliyi ilə təmasları, o cümlədən yeni seçilmiş dini liderə təbrik məktubu və humanitar yardımın təşkili ikitərəfli münasibətlərin dinamikasına müsbət təsir göstərən addımlardır. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycan ərazisindən heç bir halda üçüncü dövlətlərə qarşı plasdarm kimi istifadə edilə bilməz. Bu qətiyyətli mövqe Azərbaycanın regionda gərginliyin artmasında maraqlı olmadığını və mehriban qonşuluq münasibətlərinə verdiyi yüksək dəyəri bir daha təsdiqləyir.

Prezidentin atdığı addımlar iki ölkə arasındakı münasibətlərin soyumasının qarşısını almaqla yanaşı, mövcud gərginliyin azaldılmasına və etimad mühitinin bərpasına xidmət edir. Dövlət başçısının İranın Azərbaycandakı səfirliyini ziyarət edərək başsağlığı verməsi və məsələyə ilk gündən həssas yanaşması Azərbaycanın beynəlxalq münasibətlər sistemində humanist dəyərlərə əsaslanan müstəqil xarici siyasət yürütdüyünü sübut edir.

Bütün bu diplomatik gedişlər və humanitar təşəbbüslər Azərbaycan-İran əlaqələrinin möhkəmlənməsinə, əməkdaşlığın yeni mərhələyə qədəm qoymasına geniş imkanlar açır. Azərbaycan qonşuları ilə münasibətləri bərabərhüquqlu və qarşılıqlı hörmət müstəvisində inkişaf etdirməkdə qərarlıdır. Bu strateji kurs gələcəkdə hər iki dövlətin rifahına və regionun ümumi təhlükəsizlik arxitekturasının güclənməsinə töhfə verəcək.

# Gərgin günlərdə sülhə ümid

## *Dünya raket savaşına son verməyə çağırır*



**Yaxın Şərqdə cərəyan edən son hadisələr təcili həll yollarının tapılmasını zəruri edir. Qonşu dövlətlər arasında hərbi toqquşmaların dayandırılması bölgənin sabitliyi üçün çox vacibdir.**

Münaqişənin miqyasının kiçilməsi, həmçinin İran tərəfindən qonşu müsəlman ölkələrinin ərazilərinə raket, eyni zamanda, pilotsuz uçuş aparatları ilə hücumların dərhal dayanması hamı üçün yaxşı olar.

Qarşıdurma yerinə dialoq yeganə həll mexanizmidir. Hadisələrin inkişaf xronologiyasına nəzər saldıqda qonşu dövlətlərin böyük ziyan gördüyü aydınlaşır. Yaxın Şərqdə qanlı toqquşmalar bütün bəşəriyyəti narahat edən həddə çatıb. Müharibə dayansa, müsəlman ölkələri yenidən tərəqqi, eləcə də mehriban qonşuluq prinsipləri əsasında inkişafa davam edər.

Fevral ayının son günlərindən başlayan müharibə xüsusilə körfəzətrafı müsəlman ölkələrində dəhşətli fəsadlara yol açıb. Bu dövr ərzində raket, eləcə də kamikadze dronların hücumuna ən çox məruz qalan ölkələr sırasında Bəhreyn xüsusi diqqət çəkir. Krallığın müdafiə strukturlarının təqdim etdiyi faktlar mövcud böhranın dəhşətli miqyasını aydın nümayiş etdirir. Martın 2-dən 9-a qədər Bəhreyn ərazisinə atılmış 102 ballistik raket, eyni zamanda, 173 pilotsuz uçuş aparatı HHM qüvvələri tərəfindən zərərsizləşdirilib. Martın 9-da Bəhreynin Sitra adasında yerləşən mühüm neft emalı zavoduna zərbələr nəticəsində güclü yanğın baş verib.

Küveytin hava sərhədləri də oxşar hərbi gərginliyə şahidlik edib. Martın ilk ongünlüyündə Küveyt səmasına daxil olan 7 ağır raket sistemi şəhərin mərkəzi binalarına doğru istiqamətlənmişdi. Dərhal işə düşən mühafizə sistemləri həmin silahları hədəfə çatmadan məhv edə bildi. Ancaq raketlərin yerə tökülən qalıqları sosial təminat mərkəzlərinə, həmçinin vətəndaşlara məxsus binalara zərər vurdu. Eyni vaxt kəsiyində Qətər ərazisi də müxtəlif istiqamətlərdən gələn dronların hədəfinə çevrilib. Mart ayının əvvəllərində Qətər hava hücumundan müdafiə qüvvələri Doha şəhərinə doğru hərəkət edən raket zərbələrini zərərsizləşdirdiyini rəsmən elan edib. Birləşmiş Ərəb Əmirlikləri də dəfələrlə oxşar hərbi hücumdan müdafiə olunmaq məcburiyyətində qalıb. Martın 9-da verilən rəsmi bəyanatda on beş ballistik raketin, on səkkiz hərbi dronun ələ keçirildiyi göstərilir. Səudiyyə Ərəbistanının strateji cəhətdən mühüm əhəmiyyət daşıyan neft müəssisələrinə yönələn qırıcı dronlar isə hərbi qüvvələr tərəfindən sıradan çıxarılıb. Göründüyü kimi, bütöv bölgənin qorunması ciddi sınaqlarla üz-üzədir. Əgər atəş dayandırılsa, qeyd olunan ərəb dövlətləri əhalini normal həyata qaytarmağa müvəffəq olarlar.

Regionda hadisələrin gedişatı beynəlxalq humanitar qanunların qorunmasını məcburi edir. Bəhreyn, Qətər, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, habelə, Səudiyyə Ərəbistanı daim iqtisadi və sosial islahatlarla ön plana çıxmağı hədəfləyiblər. Bu ölkələrin yeraltı və yerüstü sərvətləri xalqların rifahının artırılmasına yönəldilib. Ancaq qonşuluqda baş qaldıran hərbi təhlükə firavan həyata böyük kölgə salır. Məhz sülh prosesi, danışıqların təşkil olunması vasitəsilə sadalanan ağrı-acını bitirmək olar.

Qardaş Türkiyə Respublikası böhranın ilk günlərindən etibarən ardıcıl barışdırıcı siyasət həyata keçirərək vəziyyəti normallaşdırmağa çalışır. Mövcud qarşıdurmada tərəfləri qeyd-şərtsiz atəşkəsə səsləyən Ankara hökuməti bütün xarici əlaqələrini yalnız dialoqların qurulmasına sərf edir. Mart ayının 9-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İran dövlətinin rəhbəri Məsud Pezeşkianla telefon danışığı aparıb. Diplomatik mənzərəni yaxından aydınlaşdıran həmin səsli təmas bölgədə tüğyan edən kütləvi hücumların dərhal bitməsi istiqamətində atılmış tarixi addımdır. R.T.Ərdoğan aydın sözlərlə qeyd edib ki, müasir dövrdə diplomatik vasitələrin fəallaşmasına kəskin ehtiyac yaranıb. O cümlədən Türkiyə dövləti barışıq yaratmaq naminə davamlı enerji sərf etdiyini gizlətmir. Liderlər arasında aparılan fikir mübadiləsi zamanı diqqətçəkən ən vacib məqam məhz qonşu İranda, xüsusən Minab məktəbində həlak olan məsum uşaqlarla bağlı idi. Türkiyə lideri Məsud Pezeşkiyana səslənərək, məktəb binasının hədəfə alınması və azyaşlıların ölümü ilə əlaqədar sarsıldığını bildirib. Başsağlığı və mənəvi dəstək ismarışı qonşu müsəlman xalqına olan qardaşlıq duyğusunun əvəzedilməz nümayişi sayılır. Üstəlik, Türkiyə başçısı ali dini rəhbər Əli Xameneinin vəfatından kədərləndiyini təkrar dilə gətirərək, yeni dini rəhbər Müctəba Xameneiyə gələcək fəaliyyətində uğurlar diləyib, onun ali dini rəhbər kimi işə başlamasının məhz bütün Yaxın Şərq sülh mühitinin genişlənməsinə, dinc-yanaşı yaşamanın bərqərar olmasına böyük töhfə verəcəyini xüsusi vurğulayıb.

Azərbaycan bənzər diplomatik fədakarlıq nümayiş etdirərək hərbi zorakılıqdan çəkinməyin vacibliyini aydın fəlsəfə ilə təqdim edir. Dövlətin xarici siyasət strategiyası daim tərəfdaşların hüquqlarına hörmət amilinə əsaslanır. Ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan uzaqgörən, sülhpərvər və hər cür ixtilaflardan kənar sabitləşdirmə missiyasını davam etdirir. Regionun dərin təlatümlərdən sarsıldığı cari ilin əvvəlki aylarında Azərbaycan dövlətinin rəhbərliyi təmkinli mövqeyini dəyişməz saxlayıb. Bütün çətinliklərə baxmayaraq, xalqımız qonşularla mehriban əlaqələrə böyük qiymət verir. Məhz humanitar dəyərlərə böyük önəm verən ali idarəçiliyin nəticəsi kimi, Azərbaycan Prezidentinin tapşırığı ilə İrana humanitar yardım yola salındı. Bu qərar dövlətimizin böhran vəziyyətlərində belə humanist addımlar atmağa qadir olduğunu göstərdi. Prezident İlham Əliyev beynəlxalq ictimaiyyət, həmçinin xarici dövlətlərin nümayəndələri ilə apardığı təmaslar zamanı Azərbaycanın prinsipial mövqeyini son dərəcə dürüst, qətiyyətli, səmimi diplomatik cümlələrlə izah edib. Dövlət başçısının diqqətəlayiq yanaşmasına uyğun olaraq Azərbaycan qonşuların daxili məsələlərinə qarışmağı, bölgədəki müxtəlif xarici hərbi müdaxilələrdə ortaq kimi iştirak etməyi qəti şəkildə inkar edir.

Hərbi əməliyyatların səngiməsi daxili resursların xalqın xeyrinə istifadə edilməsi üçün şans yaradır. Daim silah-sursat xərclərinin artması bütün cəmiyyətləri daxilən sarsıdır, iqtisadi yükü günü-gündən ağırlaşdırır. Lakin hərbi mexanizmlərin dayandırılması sayəsində böyük maliyyə kütləsi məhz zavodların, yeni müəssisələrin inşasına, təhsil ocaqlarının yenidən qurulmasına xərclənə bilər. Diplomatiya masasına qayıtmaq region ölkələri üçün ən şərəfli, qürurverici tarixi addımdır. Tarixi ənənələrə söykənən İslam mədəniyyəti mərhəmət, halallıq, qardaşlıq tələb edir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Bakı və Tbilisinin yeni geosiyasi durumu



**(əvvəli 1-ci səhifədə)**

Coğrafi mövqeyinə görə Avropa, Yaxın Şərq və Mərkəzi Asiya arasında mühüm körpü rolunu oynayan Cənubi Qafqaz qlobal iqtisadi sistem üçün kritik əhəmiyyətə malikdir. Xəzər regionunun zəngin enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması Azərbaycanın ixrac imkanlarını yeni mərhələyə yüksəldib, Gürcüstanı isə regionun əsas tranzit habına çevirib. Lakin bu yüksək strateji çəki, eyni zamanda, regionu müxtəlif hibrid təhdidlərin hədəfinə gətirib.

Son dövrlərdə regionda baş verən hadisələr strateji infrastrukturların təhlükəsizliyinin nə qədər həssas məsələ olduğunu bir daha nümayiş etdirir. Bu faktlar göstərir ki, müasir dövrdə təhlükəsizlik riskləri yalnız klassik hərbi qarşıdurmalarla məhdudlaşmır. Hibrid təhdidlər, sabotaj cəhdləri, kiberhücumlar və təxribat xarakterli fəaliyyətlər dövlətlərin milli təhlükəsizlik sistemləri üçün ciddi çağırışlar formalaşdırır.

Xüsusilə, 2026-cı ilin mart ayında Azərbaycanın təhlükəsizlik orqanları tərəfindən həyata keçirilən kompleks əməliyyat tədbirləri nəticəsində ölkə ərazisində sabotaj və terror xarakterli planların qarşısının alınması bu təhlükələrin nə dərəcədə real olduğunu üzə çıxardı. Araşdırmalar göstərir ki, cəmiyyət arasında vahimə yaratmaq, daxili sabitliyi pozmaq və ölkənin beynəlxalq nüfuzuna xələl gətirmək məqsədilə strateji kommunikasiya obyektlərinin hədəfə alınması planlaşdırılıb. Bu planların mərkəzində Bakı–Tbilisi–Ceyhan (BTC) neft boru kəmərinin, habelə diplomatik nümayəndəliklərin yer alması təhdidin həm iqtisadi, həm də siyasi-strateji mahiyyət daşıdığını təsdiqləyir.

Qeyd edək ki, müasir dünyada iqtisadi, logistik və rəqəmsal infrastruktur baxımından Azərbaycan və Gürcüstan qədər bir-birinə sıx bağlı olan ikinci qonşu ölkələr tapmaq qeyri-mümkündür. Azərbaycanın strateji resurslarının və məlumat trafikinin Gürcüstan ərazisi vasitəsilə Qərbə ötürülməsi faktı, bu infrastruktura qarşı yönələn hər hansı təhlükənin birbaşa hər iki ölkənin iqtisadi sabitliyinə və təhlükəsizliyinə təsir göstərəcəyini şərtləndirir.

Gürcüstan üçün xüsusi narahatlıq doğuran məsələlərdən biri də məhz terror və diversiya planlarında regional rabitə və enerji marşrutlarının hədəf seçilməsidir. Bu cür diversiya cəhdləri yalnız fiziki infrastruktura zərər vurmağı deyil, həm də strateji kommunikasiyaların etibarlılığına kölgə salmaq və beynəlxalq tərəfdaşlarda regional marşrutun dayanıqlılığına şübhə yaratmaq məqsədi daşıyır.

Hazırkı geosiyasi vəziyyət bu risklərin nə qədər real olduğunu göstərir. Fars körfəzi regionunda baş verən hərbi gərginlik və mümkün münaqişələr nəticəsində neft və mayeləşdirilmiş qazın dəniz yolu ilə daşınması müəyyən risklərlə üzləşib. Xüsusilə Hörmüz boğazı vasitəsilə həyata keçirilən enerji daşımaları hərbi təhlükələr səbəbindən həssas vəziyyətə düşüb.

Bu çağırışlara cavab olaraq, iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlıq, kritik infrastrukturun mühafizəsi üzrə birgə fəaliyyət həlledici rol oynayır. Bu baxımdan, "Eternity" və "Qafqaz Qartalı" kimi birgə hərbi təlimlərin intensivliyi, fiziki mühafizə sistemlərinin və böhran idarəçiliyinin yüksək standartlara çatdırılması çox önəmlidir. Lakin müasir dünyada infrastrukturun qorunması təkcə hərbi mühafizə ilə bitmir.

Rəqəmsal texnologiyaların sürətli inkişafı kommunikasiya təhlükəsizliyinin əhəmiyyətini hərbi təhlükəsizliklə eyni səviyyəyə qaldırıb. Fiber-optik şəbəkələr, peyk rabitə sistemləri və məlumat ötürmə mərkəzləri bu gün həm iqtisadi fəaliyyətin, həm də dövlət idarəçiliyinin əsas dayaqlarıdır. Azərbaycan və Gürcüstan rəqəmsal sinir sistemlərinin kiberhücumlardan və fiziki sabotajlardan qorunması istiqamətində koordinasiyalı fəaliyyət göstərərək, Cənubi Qafqazı qlobal kommunikasiya xəritəsində etibarlı və əvəzolunmaz tərəfdaş kimi mövqeləndirir.



Mövzu ilə bağlı **gürcüstanlı politoloq Vüqar İsayev** XQ-yə bildirdi ki, Azərbaycan və Gürcüstan özlərinin kommunikasiya şəbəkələrinin qorunması üçün birgə kompleks strategiyalar hazırlayır: "Hər iki ölkə Avropa və Asiya arasında rəqəmsal məlumat axınlarının təmin edilməsində strateji qovşaq rolu oynayır. Fiber-optik xətlərin inkişafı, xüsusilə Qara dənizin dibi ilə çəkilməsi planlaşdırılan kabel layihəsi və rəqəmsal infrastrukturların kiberhücumlardan birgə müdafiəsi regionun ümumi rəqəmsal dayanıqlılığını artırır. Birgə layihələr, texniki təcrübə mübadiləsi və kibertəhlükəsizlik sahəsində operativ kəşfiyyat məlumatlarının bölüşdürülməsi regionda etibarlı və davamlı kommunikasiya mühitinin yaradılmasının təməlini təşkil edir. Bu çoxşaxəli əməkdaşlıq həm regional sabitliyin möhkəmləndirilməsinə, həm də rəqəmsal iqtisadiyyatın təhlükəsiz inkişafına mühüm dəstək verir".

Onun sözlərinə görə, hazırda yaranmış vəziyyət narahatlıq doğurur, çünki hər hansı münaqişənin genişlənməsi hər iki ölkənin təhlükəsizliyinə birbaşa təsir göstərir: "Bu səbəbdən regionda sabitliyi qorumaq məqsədilə strateji addımlar atılır. Gürcüstan bu məsələdə Azərbaycan və Türkiyə ilə sıx əlaqə və koordinasiyalı fəaliyyət göstərir. Bu əməkdaşlıq yalnız təhlükəsiz kommunikasiya xətlərinin qorunması üçün deyil, həm də Cənubi Qafqazın ümumi sabitliyi və dinc inkişafı üçün ortaq maraqdır. Həm də sabit və təhlükəsiz enerji və nəqliyyat marşrutlarının qorunması, həmçinin Cənubi Qafqazda sülh və stabilliyin davamlılığının təmin olunması prioritet hesab olunur".

Politoloq qeyd edib ki, Bakı və Tbilisi arasındakı strateji vəhdət Cənubi Qafqazın həm fiziki, həm də rəqəmsal dünyada qlobal əhəmiyyətli təhlükəsizlik və inkişaf adasına çevrilməsini təmin edir: "Dövlətlərin öz kommunikasiya şəbəkələrinin qorunması, məlumatların təhlükəsiz ötürülməsi və kritik infrastrukturun müdafiəsi üçün hazırladığı kompleks strategiyalar gələcək onilliklərdə regionun qlobal rəqabətdəki yerini müəyyən edən mühüm amil olacaq".

Beləliklə, Azərbaycan və Gürcüstan arasında formalaşmış strateji tərəfdaşlıq yalnız iqtisadi layihələr çərçivəsində deyil, həm də regional təhlükəsizlik sisteminin mühüm elementi kimi çıxış edir. Enerji və nəqliyyat dəhlizlərinin qorunması, kommunikasiya infrastrukturlarının təhlükəsizliyi və hibrid təhdidlərə qarşı birgə mübarizə bu əməkdaşlığın gələcək perspektivlərini müəyyən edir. Dəyişən geosiyasi reallıqlar fonunda Bakı və Tbilisi arasında koordinasiyanın gücləndirilməsi Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin olunmasında həlledici amillərdən biri kimi qiymətləndirilir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Aİ Cənubi Qafqazın qeydinə necə qalır?

**Cənubi Qafqaz uzun illər beynəlxalq siyasətdə daha çox münaqişələr kontekstində xatırlanan region olub. Qarabağ münaqişəsi, böyük güclərin rəqabəti, enerji marşrutları uğrunda mübarizə və geosiyasi qeyri-müəyyənlik bu coğrafiyanı tez-tez "risk zonası" kimi təqdim edirdi. Lakin son illərdə beynəlxalq siyasi diskursda diqqətçəkən yeni tendensiya müşahidə olunur: region qlobal əlaqələndirici platforma kimi dəyərləndirilir.**



Brüsseldə səfirlərin konfransında Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Orta Dəhliz haqqında dediyi sözlər dəyişən yanaşmanın açıq ifadəsidir. Onun fikrincə, Asiya ilə Avropa arasında malların çatdırılma müddətini 30 gündən 15 günə qədər qısalda bilən bu marşrut əvvəllər qeyri-sabit sayılan Cənubi Qafqazda ticarət və əməkdaşlığı normaya çevirə biləcək mexanizm kimi təqdim olunur.

### Avropa İttifaqı niyə məhz indi Cənubi Qafqaza bu qədər diqqət yetirir?

Sualın cavabını anlamaq üçün, ilk növbədə, qlobal iqtisadi və geosiyasi reallıqlara nəzər salmaq lazımdır. Son illərdə dünya ticarətinin infrastrukturu sayılan beynəlxalq nəqliyyat marşrutları əvvəlki dövrlərlə müqayisədə daha həssas və siyasi risklərə daha açıq vəziyyətə düşüb. Əgər bir neçə il əvvəl qlobal logistika əsasən iqtisadi səmərəlilik prinsipi ilə formalaşırdısa, bu gün həmin sistemin əsas parametrlərindən biri geosiyasi təhlükəsizlik faktoru hesab olunur.

Dəyişikliklərin əsas səbəblərindən biri, şübhəsiz ki, Rusiya–Ukrayna müharibəsidir. 2022-ci ildən sonra Avropa ilə Asiya arasında ənənəvi ticarət marşrutlarından biri sayılan Şimal dəhlizi, faktiki olaraq, geosiyasi risk zonasına çevrildi. Rusiya ərazisindən keçən logistika xətləri sanksiyalar, siyasi gərginlik və təhlükəsizlik narahatlıqları səbəbindən əvvəlki etibarlılığını itirməyə başladı. Avropa şirkətləri və hökumətləri üçün bu marşrut artıq siyasi baxımdan riskli hesab olunur. Eyni zamanda digər alternativ istiqamətlər də tam sabit deyil. Yaxın Şərq regionunda davam edən gərginliklər, Qırmızı dəniz və Süveyş kanalı ətrafında baş verən təhlükəsizlik problemləri qlobal ticarətin mühüm hissəsinin keçdiyi marşrutları tez-tez qeyri-müəyyən vəziyyətə salır. Məhz bu kontekstdə Avropa İttifaqı son illərdə öz strateji yanaşmasını yenidən nəzərdən keçirməyə başlayıb. Brüsselin prioritetlərindən biri təchizat zəncirlərinin diversifikasiyası, yəni alternativ marşrutların yaradılmasıdır. Avropa üçün Asiya ilə əlaqələri qorumaq həyati əhəmiyyət daşıyır və bu əlaqələrin dayanıqlı olması üçün yeni logistika xətləri zəruridir. Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanı, Qafqazı və Türkiyə üzərindən Avropanı birləşdirən Orta Dəhliz məhz bu geosiyasi boşluğu doldura biləcək alternativ kimi ortaya çıxır. Digər tərəfdən, Orta Dəhliz Avropa üçün strateji muxtariyyət siyasətinin bir hissəsidir. Son illərdə Aİ rəhbərliyi tez-tez vurğulayır ki, qlobal iqtisadi sistemdə Avropa daha çox müstəqil qərarvermə imkanlarına malik olmalıdır. Bunun üçün isə enerji, texnologiya və logistika sahələrində alternativ tərəfdaşlıqlar qurmaq vacibdir. Cənubi Qafqaz və Mərkəzi Asiya məhz bu yeni strateji yanaşmanın mühüm elementinə çevrilir.

*

Ursula fon der Lyayen Orta Dəhliz haqqında danışarkən Avropa inteqrasiyasının başlanğıc mərhələsinə – İkinci Dünya müharibəsindən sonra yaradılan Avropa Kömür və Polad Birliyinə istinad etdi. Tarixi baxımdan bu təşkilatın əsas məqsədi Fransa və Almaniya kimi uzun illər bir-biri ilə rəqabət aparmış dövlətlər arasında qarşıdurma riskini minimuma endirmək idi. Kömür və polad kimi strateji sənaye sahələrinin birgə idarə olunması nəticəsində bu ölkələr arasında iqtisadi asılılıq formalaşdı və nəticədə, siyasi münasibətlər də dəyişməyə başladı.

### Eyni mexanizmi Cənubi Qafqazda da işləmək olarmı?

Qeyd etməliyik ki, Cənubi Qafqaz, eyni zamanda, təhlükəsizlik və identitet faktorlarının güclü olduğu məkanlardan biridir. Uzun illər davam edən münaqişələr, tarixi etimadsızlıq və böyük güclərin maraqlarının toqquşması burada siyasi münasibətləri xeyli həssas edib. Bununla belə, iqtisadi inteqrasiya müəyyən dəyişikliklər üçün zəmin yarada bilər. Əgər region ölkələri eyni tranzit və ticarət sisteminin iştirakçısına çevrilərsə, bu zaman onların iqtisadi maraqları daha çox üst-üstə düşməyə başlayar. Orta Dəhliz ideyası region ölkələrini vahid iqtisadi və logistika sisteminə inteqrasiya etmək potensialına malikdir. Əgər belə bir sistem formalaşarsa, qarşılıqlı maraqların genişlənməsi siyasi münasibətlərə də təsir göstərə bilər.

Uzun illər ərzində regionun təhlükəsizlik arxitekturasında əsas rol Rusiyaya məxsus idi. Moskva həm hərbi mövcudluğu, həm də siyasi təsir alətləri vasitəsilə Cənubi Qafqazda mühüm aktor kimi çıxış edirdi. Ermənistanla hərbi ittifaq, regiondakı sülhməramlı kontingent və təhlükəsizlik mexanizmləri Rusiyanın bu təsirini uzun müddət qoruyub saxladı. Lakin son illərdə beynəlxalq proseslər göstərir ki, regiondakı qüvvələr balansı tədricən dəyişir. Ankara isə son onillikdə Cənubi Qafqazda iqtisadi və nəqliyyat layihələri vasitəsilə təsirini genişləndirməyə nail olub. Bakı–Tbilisi–Qars dəmir yolu, enerji kəmərləri və regional logistika layihələri Türkiyəni regionun əsas tranzit və strateji tərəfdaşlarından birinə çevirib. Digər tərəfdən, Çin faktoru da getdikcə daha



görünən olur. Pekinin "Bir kəmər, bir yol" təşəbbüsü Avrasiya məkanında yeni logistika və ticarət şəbəkələrinin yaradılmasını nəzərdə tutur. Məhz bu kontekstdə Brüsselin layihəyə diqqəti Avropa İttifaqının Avrasiya məkanında daha aktiv geoiqtisadi mövqe tutmaq cəhdinin bir hissəsi kimi qiymətləndirilə bilər. Son illər Bakı Avrasiya məkanında mühüm logistika və nəqliyyat qovşağı kimi təqdim etməyə çalışır. Xəzər dənizi üzərindən Mərkəzi Asiyanı Qafqaz və Türkiyə vasitəsilə Avropaya bağlayan marşrutlar bu strategiyanın əsas elementlərindəndir.

### Bəs Ermənistan yeni regional modeldə hansı yeri tuta bilər?

Sual Cənubi Qafqazın gələcək geosiyasi və geoiqtisadi arxitekturasını anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır. Çünki regionda formalaşmaqda olan yeni nəqliyyat və logistika sistemləri dövlətlərin strateji mövqeyini müəyyən edən amillərə çevrilir. Ermənistanın qarşısında duran əsas dilemma belə görünür: ölkə yeni regional əlaqə şəbəkələrinin bir hissəsinə çevriləcək, yoxsa geosiyasi təcrid riskini davam etdirəcək?

Ursula fon der Lyayenin çıxışında diqqətçəkən məqamlardan biri də məhz bu məsələ ilə bağlı idi. O qeyd etdi ki, Orta Dəhliz keçmiş düşmən ölkələri – Azərbaycan və Ermənistanı – bir-biri ilə və Avropa ilə əlaqələndirə bilər. Brüsselin düşüncəsinə görə, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası regionda davam edən sülh prosesinə əlavə stimul verə bilər. Əgər kommunikasiya xətləri açılar və region vahid tranzit platformaya çevrilərsə, bu yalnız ticarət dövriyyəsini artırmaqla məhdudlaşmayacaq. Eyni zamanda, ölkələr arasında yeni iqtisadi maraqlar formalaşdıracaq və bu maraqlar siyasi münasibətlərin tədricən dəyişməsinə təsir göstərə bilər.

Təbii ki, bu məntiq Ermənistan üçün xüsusilə vacibdir. Uzun illər ərzində ölkənin regional nəqliyyat sistemlərindən kənarda qalması iqtisadi inkişaf imkanlarını ciddi şəkildə məhdudlaşdırıb. Qapalı sərhədlər və məhdud tranzit imkanları Ermənistan iqtisadiyyatını daha çox daxili resurslara və məhdud ticarət marşrutlarına bağlayıb. Əgər yeni regional kommunikasiya xətləri açılarsa, Ermənistan üçün bu vəziyyət dəyişə bilər. Ölkə potensial olaraq Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropa arasında formalaşan yeni ticarət marşrutlarının bir hissəsinə çevrilə bilər. Lakin bu perspektivin reallaşması bir neçə vacib şərtdən asılıdır. İlk növbədə, regionda davam edən siyasi və təhlükəsizlik məsələlərinin həlli zəruridir. Kommunikasiya xətlərinin açılması siyasi etimadın formalaşmasını tələb edir. Əgər tərəflər arasında sabit və uzunmüddətli sülh mexanizmi formalaşarsa, o zaman regional layihələr real iqtisadi məzmun qazana bilər. Digər tərəfdən, Ermənistanın qarşısında strateji seçim də dayanır. Ölkə yeni regional əməkdaşlıq modelinə inteqrasiya edərək iqtisadi imkanlarını genişləndirə bilər. Lakin bu model həm də daha praqmatik və əməkdaşlığa əsaslanan regional siyasət tələb edir.

Son olaraq qeyd edək ki, tarix göstərir ki, iqtisadi layihələr bəzən siyasi qarşıdurmaları yumşalda bilir. Avropa inteqrasiyası bunun ən bariz nümunəsidir. Lakin Cənubi Qafqazın reallıqları daha mürəkkəbdir. Regionda tarixi etimadsızlıq, böyük güclərin rəqabəti və təhlükəsizlik dilemması hələ də qalmaqdadır. Bununla belə, bir məqam artıq aydın görünür: beynəlxalq siyasətin diqqəti yenidən Cənubi Qafqaza yönəlir. Bu dəfə isə səbəb münaqişələr deyil, qlobal logistika və geoiqtisadi perspektivlərdir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

*Təqvim yada salır*

# 5 yaşlı Caliber.Az informasiya məkanında etimad qazanıb

## *Portalın direktor-baş redaktoru Teymur Hüseynov: Xəbər faktı göstərir, təhlil isə onun mahiyyətini açır*

**Caliber.Az informasiya-analitik portalı beş ildir ki, Azərbaycanın informasiya məkanında özünəməxsus yer tutan media platformalarından biri kimi fəaliyyət göstərir.**



2021-ci il martın 10-dan fəaliyyətə başlayan portal ötən müddət ərzində geniş oxucu auditoriyası qazanaraq ölkəmizdə, regionda və bütövlükdə, dünyada baş verən aktual hadisələrə, siyasi proseslərə operativ reaksiyası, analitik materialları, eksklüziv xəbərləri və dəqiqliyi ilə diqqət çəkir. Xüsusilə, Cənubi Qafqaz olaylarının işıqlandırılmasında, Azərbaycanın mövqeyinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Caliber.Az-ın mühüm rolu var.

Portalın rus və ingilis dillərində kontentləri informasiya məkanında daha geniş auditoriyaya çıxış imkanlarını artırır və regionda gedən proseslərin fərqli auditoriyalara çatdırılmasına xidmət edir. İnformasiya resursunun ilk yubiley yaşına çatması münasibətilə Caliber.Az-ın direktor–baş redaktoru Teymur Hüseynovla söhbətimiz saytın yaranma məqsədi, fəaliyyət prinsipləri və gələcək planları barədə oldu.

***– Teymur müəllim, Caliber.Az beş ildir fəaliyyət göstərir. Bu müddətdə portalın əsas missiyası və redaksiya xətti necə formalaşıb? Sizcə, sayt Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından hansı boşluğu doldura bilib?***

– Caliber.Az yarandığı gündən fəaliyyətini yalnız xəbər yayımı ilə məhdudlaşdırmayıb. Analitik məqalələr, dərin təhlillər və proseslərə sistemli baxış redaksiya siyasətimizin əsas istiqamətlərindən biri olub. Bizim üçün vacib olan təkcə informasiyanı çatdırmaq deyil, eyni zamanda, baş verənlərin arxa planını, mahiyyətini və mümkün nəticələrini də oxucuya göstərməkdir. Məhz buna görə fəaliyyətimizi faktlara söykənən, arqument və məntiqə əsaslanan jurnalistika prinsipləri üzərində qurmuşuq. Məqsədimiz informasiyanı həm yerli, həm də xarici auditoriyaya anlaşılan və əsaslandırılmış şəkildə təqdim etməkdir.

Düşünürəm ki, Caliber.Az bu sahədə mühüm boşluğu doldura bilib. Uzun illər regionla bağlı beynəlxalq platformalarda Azərbaycan haqqında ya qərəzli, ya da natamam təsəvvür formalaşdırılırdı. Biz həmin boşluğu fakt, mənbə, kontekst və analitika ilə doldurmağa çalışdıq. Məqsədimiz həqiqəti sübutlar, ardıcıl məntiq və peşəkar təqdimat vasitəsilə göstərmək olub.

***– Portalın fəaliyyətində diqqətçəkən məqam operativ və bir çox hallarda eksklüziv informasiya və rəylərin təqdim edilməsidir. 2024-cü ilin dekabrında "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Rusiya tərəfindən vurulması ilə bağlı ilk məlumatı məhz Caliber.Az yayımlamışdı. Bu cür məlumatları əldə etmək və yoxlamaq üçün redaksiya hansı prinsiplərlə işləyir?***

– Operativlik bizim üçün vacibdir, amma operativlik heç vaxt dəqiqliyin hesabına olmamalıdır. Redaksiyada əsas prinsipimiz budur ki, hətta ən sensasiyalı məlumat belə bir neçə mərhələli yoxlamadan keçmədən yayımlanmamalıdır. Mənbə ilə işləmək, məlumatı alternativ kanallardan təsdiqləmək, hadisənin məntiqi və faktoloji çərçivəsini yoxlamaq bizim gündəlik peşə standartımızdır.

Belə həssas məsələlərdə redaksiya emosiyaya qapılmır. Əsas meyar məlumatın etibarlılığıdır. Bir mənbə ilə kifayətlənmirik, mümkün qədər müxtəlif səviyyələrdən təsdiq axtarırıq. Həmçinin redaksiya daxilində qərar mexanizmi də önəmlidir. Hansı informasiyanın hansı formada, hansı ifadələrlə və hansı məsuliyyətlə təqdim olunması ciddi şəkildə müzakirə edilir. Bu yanaşma həm oxucu etimadını qoruyur, həm də bizi təsadüfi və ya manipulyativ informasiya axınından fərqləndirir.

***– Caliber.Az regionda baş verən proseslərlə bağlı sanballı analitik materialları ilə də seçilir. Sizcə, indiki informasiya müharibəsi şəraitində analitik jurnalistikanın rolu nə dərəcədə artıb?***

– İnformasiya müharibəsi şəraitində analitik jurnalistikanın rolu dəfələrlə artıb. Çünki artıq məsələ təkcə xəbərin birinci kim tərəfindən verilməsində deyil. Əsas məsələ odur ki, hadisənin mənası nədir, onun arxa planında hansı maraqlar dayanır və bu proseslərin mümkün nəticələri nə ola bilər. Xəbər faktı göstərir, analitika isə həmin faktın mahiyyətini açır. Müasir informasiya məkanında manipulyasiya çox vaxt yalanla deyil, kontekstdən çıxarılmış həqiqətlə aparılır. Yəni fakt təqdim olunur, amma səbəbi, siyasi çəkisi, regional təsiri və strateji nəticələri tam göstərilmir.

Analitik jurnalistika məhz burada həlledici rol oynayır. O, oxucuya sadəcə "nə baş verdi?" sualının deyil, "niyə baş verdi?", "kimə sərf edir?" və "bundan sonra nə ola bilər?" suallarının da cavabını verir. Məncə, bu gün güclü media yalnız xəbər istehsal edən media deyil, həm də düşüncə formalaşdıran, dəyərləndirmə aparan və oxucunu daha dərindən anlamağa sövq edən media qurumudur.

***– Saytınız əsasən rusdilli auditoriya arasında geniş oxucu kütləsinə malik media resursu kimi tanınır. Redaksiya indiyədək auditoriyanın sosial və peşə tərkibi ilə bağlı hər hansı sosioloji təhlil və ya sorğu aparıbmı? Bu amili fəaliyyətinizdə nəzərə alırsınızmı?***



– Biz auditoriyanı öyrənmək məsələsinə daim diqqət yetiririk. Bu istiqamətdə qənaətlərimiz əsasən rəqəmsal analitika, oxucu davranışı, coğrafi bölgü, maraq sahələri və peşə qrupları üzrə aparılan müşahidələrə əsaslanır. Təcrübə göstərir ki, Caliber.Az-ın auditoriyası kifayət qədər düşünən, seçici və ictimai-siyasi gündəmi yaxından izləyən auditoriyadır. Buraya jurnalistlər, ekspertlər, diplomatlar, dövlət və özəl sektor nümayəndələri, akademik çevrələr və ümumilikdə, regionda baş verənləri daha dərindən anlamaq istəyən oxucular daxildir. Təbii ki, biz bunu fəaliyyətimizdə nəzərə alırıq. Auditoriyanın səviyyəsi media dilini və təqdimat formasını da müəyyənləşdirir. Eyni zamanda, mürəkkəb siyasi və geosiyasi mövzuların peşəkar dildə təqdim olunmasına baxmayaraq, oxucu üçün anlaşılmaz və qapalı görünməməsinə xüsusi diqqət yetiririk.

***– 5 il ərzində Caliber.Az həm oxunaqlılığı ilə, həm də istinad edilən mənbələrdən biri kimi nüfuz qazanıb. Bu uğurun arxasında dayanan prinsiplər və platformanın inkişafı ilə bağlı yeni hədəflər barədə fikirlərinizi bilmək istərdik...***

– Hesab edirəm ki, bu uğurun arxasında, ilk növbədə, etimad dayanır. Oxucu bilməlidir ki, Caliber.Az-da material təsadüfi deyil, yoxlanılmış və məsuliyyətlə hazırlanmış material yayımlanır. Digər mühüm prinsip operativliklə peşəkarlıq arasında balansı qorumaqdır. Eyni zamanda redaksiyanın öz siması, dəst-xətti və aydın peşəkar prinsipləri də bu etimadın formalaşmasında mühüm rol oynayır. Media üçün əsas məsələlərdən biri oxucu etimadını qazanmaq və onu qorumaqdır. Bu isə ardıcıllıq, məsuliyyət və peşəkar iş prinsipləri ilə mümkün olur. Yeni hədəflərə gəlincə, əlbəttə ki, biz yalnız əldə olunan nəticələrlə kifayətlənmək niyyətində deyilik.

Qarşıda məzmunun coğrafiyasını genişləndirmək, həm analitik və multimedia istiqamətlərini daha da gücləndirmək, həm də beynəlxalq auditoriyaya çıxışı artırmaq kimi məqsədlər var. Bu yolda bizim üçün mühüm amillərdən biri də daxil olduğumuz "Global Media Group"un və onun rəhbərliyinin davamlı dəstəyidir. Biz bütün təşəbbüslərimizdə bu dəstəyi hiss edirik və bu, qarşımıza daha iddialı məqsədlər qoymağa imkan verir.

**P.S.** *"Xalq qəzeti"nin kollektivi Caliber.Az-ın redaksiyasına gələcək fəaliyyətində daha böyük uğurlar, geniş oxucu auditoriyası və dünya miqyasında tanınma diləyir.*

***Səxavət HƏMİD***
***XQ***

# Ermənistanın Xarici Kəşfiyyat Xidmətinin həyəcan təbili

## *Gerçək təhlükə, yoxsa parlament seçkilərinə hesablanmış gediş?*

**Məlum olduğu kimi, bu il iyunun 7-də Ermənistanda parlament seçkiləri keçiriləcək. Ötən ildən prosesIə bağlı bir sıra gərginlik elementləri müşahidə olunmaqdadır.**



Ermənistandakı ayrı-ayrı müxalif qüvvələrin baş nazir Nikol Paşinyan iqtidarına qarşı erməni cəmiyyətini hərəkətə gətirməyə hesablanmış fikirlər səsləndirdiklərini görürük. Hətta, seçkisonrası gərginliklərin yarana biləcəyini də ehtimal etmək mümkündür. Bütün bunlar öz yerində. Amma Ermənistan Xarici Kəşfiyyat Xidmətinin bəyanatı nisbətən fərqli aspektlərin dövriyyəyə girəcəyindən xəbər verir. Qeyd edək ki, sözügedən dövlət qurumu bəyanatında başqa bir ölkədə Ermənistan vətəndaşlarına göstərilən təzyiq xüsusunda seçki prosesinə müdaxilə məsələsini qabardıb. Söhbət hansı başqa ölkədən gedir, təxmin etmək çətin deyil.

Əlbəttə, söz xarici təsirdən düşürsə, gözlər önündə Rusiya canlanır. O Rusiya ki, onun Prezidenti Vladimir Putinin bir neçə il əvvəl səsləndirdiyi fikri yada salmağa ehtiyac yaranır. Putin demişdi ki, Rusiyada Ermənistanda yaşayan ermənilərdən də çox erməni var. Həmin ermənilərin bir çoxu vətəndaş statusu daşısalar da, vətəndaşlığı olmayan hayların sayı az deyil. Elə isə Ermənistan Xarici Kəşfiyyat Xidmətinin bəyanatındakı nüanslara nəzər salaq.

Deməli, qurum bildirir ki, başqa ölkədə həmin ölkənin xüsusi xidmət orqanlarının adından çıxış edən müxtəlif aktorların milli mənsubiyyətinə görə erməni olan, Ermənistan Respublikasının vətəndaşı sayılan və iqtisadi fəaliyyətlə məşğul şəxslərə təzyiq göstərməyə çalışdıqlarına dair məlumata malikdir: "Məqsəd onları Ermənistanda keçiriləcəyi gözlənilən parlament seçkilərində iştirak üçün müraciət etmiş müəyyən siyasi qüvvələrin dəstəklənməsi istiqamətində addımlar atmağa sövq etməkdir".

Qeyd edək ki, Ermənistan Xarici Kəşfiyyat Xidmətinin bəyanatında sözügedən addımların erməni sahibkarların siyasi qüvvələrə maliyyə və təşkilati xarakterli dəstək göstərmələrinə təhrik mahiyyətini əhatə etdiyi, lakin məsələnin bununla məhdudlaşmadığı açıqlanıb. Hərçənd, dövlət qurumu konkret ölkə adı çəkmir. Bəli, erməni dövlət qurumunun yaydığı bəyanat və sənəddə ifadəsini tapan motiv ciddi qarşılanmalıdır. Başqa ölkədəki iqtisadi fəaliyyətlə məşğul olan erməni əsilli şəxslərə təzyiq parametri qabardılırsa, Ermənistandan kənarda yaşayan ermənilərin səs hüququna malik olduqlarını da yada salmalıyıq. Axı seçki vaxtı onlar əvvəlcədən müəyyənləşdirilmiş məntəqələrə gəlib mövqelərini bildirəcəklər.

Deməli... Ermənilər Rusiyada əsasən ticarət fəaliyyəti ilə məşğuldurlar. Onların böyük qismi öz soydaşlarının yaratdıqları şirkətlərdə və ya müəssisələrdə çalışırlar. Belə nəticəyə gəlmək mümkündür ki, ticarət şəbəkəsinin erməni rəhbərinə təzyiq faktı qeydə alınacaqsa, bu, sıravi işçiləri də əhatə edəcək. Nəticədə, zəncirvari seçki sxematikası yaranacaq. Rusiyanın müəyyən dairələrində belə fikir var ki, əcnəbilər və ya vətəndaşı olmayan şəxslər Rusiyada çalışırlarsa və həyatlarını təmin edirlərsə, bu ölkənin maraq və mənafeləri naminə səy göstərməlidirlər. Kremlin Ermənistandakı maraq və mənafeləri aydındır.

Paşinyan iqtidarının bu baxımdan heç nəyə yaramadığı, əksinə, Kremlə qarşı zidd mövqe tutduğu da həmçinin. Üstəlik, Ermənistandakı Rusiyaya bağlı ayrı-ayrı çevrələrin ölkələrində hakimiyyəti devrimək planları hazırladıqlarını və bu barədə açıqlama verdiklərini bilirik. Onu da bilirik ki, hazırkı situasiyada bu planların səmərə verəcəyi şübhəlidir. Ona görə də həmin çevrələr siyasi qəsd reallaşdırmağa yox, bilavasitə seçkiyə kökləniblər. Ermənistanın Xarici Kəşfiyyat Xidməti bəyanat yayıb xəbərdarlıq edirsə, belə qənaət formalaşır ki, ölkə daxilini hərəkətə gətirmək niyyəti güdən xaricdəkilər fəallaşıblar.

Digər tərəfdən, Ermənistan Xarici Kəşfiyyat Xidmətinin, sadəcə, önləyici tədbir görmək məqsədini də söyləyə bilərik. Yəni, tam mümkündür ki, xidmət gələcəkdə sadaladığımız proseslərin gerçəkləşə bilmə ehtimalı üzərinə yatırım edir. Yatırım kənardakı qüvvələrin hayların iradəsinin əksinə addım atmağa çalışmaları təsəvvürünün formalaşmasına hesablanıb. Belə bir hesablanmanın məramı erməni cəmiyyətində immunitet yaratmaqdır. Görünür, Paşinyan iqtidarının təmsilçiləri Ermənistanda Rusiya əleyhinə antipatiyanı seçki prosesinə gətirməklə qalib gəlmək barədə düşünmək fikrindədirlər. Yeri gəlmişkən, bu düşüncə 2021-ci ilin yayında keçirilmiş seçkilərdə işə yaramış və müharibə məğlubu olan hakimiyyət düşərgəsi uğur qazanmışdı.

Sonda dediklərimiz fonunda ümumiləşdirmə apararaq bildirək ki, Ermənistanda seçkilərin adi siyasi proses kimi deyil, kəskin rəqabət və mümkün siyasi böhran fonunda keçiriləcəyi aydındır. Yəni hakimiyyətlə müxalifət arasında legitimlik və hakimiyyət uğrunda ciddi mübarizə gözlənilir. Ölkə iqtidarı seçkiyə təsir ehtimalını gündəmə gətirirsə, bu onun prosesin kampaniya dövründə "milli təhlükəsizlik" və "xarici müdaxilə" narrativindən yararlanacağının göstəricisidir.

Deməli, Paşinyan iqtidarının seçki strategiyasının bir qolunu ölkədəki anti-Rusiya emosiyalarını seçki resursuna çevirmək təşkil edir və heç şübhəsiz, qarşıdakı aylarda belə yanaşmanın başqa fərqli təzahürləri meydana çıxacaq. Əlbəttə, Ermənistanda seçki prosesinə ölkənin Xarici Kəşfiyyat Xidmətinin bəyanatında açıqlanan təsir cəhdlərinin başqa təmayülləri də aktuallaşa bilər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ankara bölgədə barış və sabitlik tərəfdarıdır



(əvvəli 1-ci səhifədə)

Qardaş ölkə liderinin açıqlamasının birinci tərəfinə diqqət yetirərək deyək ki, Türkiyə NATO ölkəsi olmasına baxmayaraq, strateji mövqe və yanaşma baxımından xeyli dərəcədə müstəqil qərarvermə strukturuna malikdir. Yəni, Ankara alyansa yox, alyans Ankaraya ehtiyac duyur. Vəziyyət başqa cür də ola bilərdi. Hesab edirik ki, İran dairələri, ilk növbədə, mövcud məqamı düşünməli və Ankaranın tutduğu sabitləşdirici xətti düzgün qiymətləndirməlidirlər.

İkincisi, Türkiyə özlüyündə müstəqil xarici siyasət yanaşmasına malikdir və İran böhranına münasibətdə bu siyasətin ayrı-ayrı elementləri görünməkdədir. Məsələn, Ankara böhrana təmkinlə yanaşır, ən əsası, barışdıcı missiyanı yerinə yetirir və hazırda mövcud istiqamətdə nəyəsə nail ola bilmirsə, bu, böyük ölçüdə ondan asılı deyil.

Digər tərəfdən, Türkiyə müharibənin sonlandırılması naminə gerçək addımlar ata bilmirsə, bu, o demək deyil ki, gələcəkdə də belə olacaq. Çünki Prezident Ərdoğan qətiyyətli şəkildə bildirib: "Türkiyə İran böhranı məsələsində ədalətin, dürüstlüyün, beynəlxalq hüququn, sülhün və sabitliyin tərəfindədir. Biz münaqişələrin dialoq yolu ilə həllini dəstəkləyirik". Yəni yaxşı olar ki, Tehran özünü sığortalamaq üçün Ankara amilini daim nəzərə alsın, ona münasibətdə ehtiyatlı və həssas davransın. Necə deyərlər, bu günün sabahı var. İran tərəfi Ərdoğanın Türkiyə ərazisinə raket zərbələrini pisləyən və onları təxribat xarakterli, həmçinin iki ölkə arasındakı münasibətlərə təhlükə yaradan addımlar adlandırmasından nəticə çıxarmalıdır.

Onu da bildirək ki, Prezident Ərdoğan ölkə hökumətinin öz sədrliyi ilə keçirilmiş iclasında "bizim səmimi xəbərdarlıqlarımıza baxmayaraq, Türkiyənin digər tərəflərlə dostluğunu təhlükə altına qoyan son dərəcə yanlış və təxribat xarakterli addımlar davam edir" şəklində bəyanat səsləndirib. Hesab edirik ki, qardaş ölkə liderinin "Türkiyənin digər tərəflərlə dostluğunu təhlükə altına qoyan" ifadəsi üzərində dayanmağa ehtiyac var.

Hər halda, İranın hansısa uzaqmənzilli raketi Türkiyə üzərindən uçub hədəfə çatacaqsa, bu, adi məsələ sayıla bilməz. Axı nəinki hədəf, bütövlükdə hədəflər məlumdur. Əlbəttə, İsraili nəzərdə tutmuruq. Söhbət Birləşmiş Ərəb Əmirliklərindən, Qətər, Küveyt və digər bu kimi ölkələrdən gedir. O ölkələr ki, Ankara ilə sıx təmaslara malikdirlər və onlara Türkiyənin hava məkanından istifadə ilə hücum gerçəkləşirsə, ortaya düşündürücü məqamlar və şübhələr çıxır. Tehran bu durumu da nəzərə almalı, Ankaranı şübhəli duruma salacaq hərəkətlərdən çəkinməlidir.

ABŞ-ın dövlət katibi Marko Rubionun açıqlaması da ciddi təhlil edilməlidir. Rubio bildirib ki, Birləşmiş Ştatlar İranın qonşularını və dünyanı raketlərlə təhdid qabiliyyətini məhv etmək yolunda qətiyyətlə irəliləyir. Burada "İranın qonşularını və dünyanı" ifadəsi üzərində dayanmağa ehtiyac var. Aydın görünür ki, Tehranın yol verdiyi naşı hərəkətin mahiyyətində yayındırmaq potensialı var. Fikrimizi izah edək. Nəzərə alaq ki, İran hazırda beynəlxalq ictimaiyyətin ciddi antipatiya mənbəyidir. Tehranın qonşuları hədəfə götürməsi bu antipatiya durumuna yeni çalarlar qazandırır. Deməli, Türkiyənin hədəfə götürülməsi, yaxud ölkəni hava məkanından istifadə ilə hansısa hədəflərə zərbə endirilməsi həmin çalarları daha da tündləşdirə bilər.

Bu isə bölgəyə yaxşı heç nə vəd etmir. Ona görə Prezident Ərdoğan, bir növ, qəflət yuxusundan ayılma mesajı səsləndirir: "Minillik qonşuluq və qardaşlıq münasibətlərimizi kölgə altına sala biləcək, xalqımızın qəlbində və düşüncəsində dərin yaralar aça biləcək addımlar heç kim tərəfindən atılmamalıdır. Türkiyənin mövqeyi aydındır: biz alovun yayılmasını dayandırmaq və daha çox qan tökülməsinin qarşısını almaq üçün fövqəladə səylər göstəririk".

R.T.Ərdoğan İrana münasibətdə onu da bildirib ki, "səhvdə israr etmək və ya təkəbbürlü şəkildə yanlış mövqedə qalmaq yolverilməzdir". Deməli, Türkiyə liderinin dilə gətirdiyi fikirlərdən gəlinən qənaət Tehranın hərəkətlərinə, eyni zamanda, daha fərqli rakusdan yanaşmağı tələb edir. Yəni məsələnin birinci tərəfi Türkiyənin hava məkanından istifadə ilə digər dövlətlərin hədəfə gətirilməsinin yolverilməzliyidirsə, digər yandan hədəfə gələnlərin Ankara ilə sıx münasibətlərdə olmaları amili var. Yəqin buna görədir ki, Ərdoğan belə bir açıqlama da verib: "İranın qardaş ölkələrimizi hədəf alan hücumlarını dəstəkləmədiyimizi və bunun nəticə verməyəcəyini açıq şəkildə bildirdik".

Qeyd edək ki, Türkiyə liderinin açıqlamasının iqtisadi aspekti də var ki, ölkə rəsmiləri, o cümlədən xarici işlər naziri Hakan Fidan bir neçə dəfə bu məsələyə diqqət yetirib. Şübhəsiz, mövcud anlamda Ərdoğanın fikirləri daha ağır çəkiyə malikdir. O bildirib ki, İranla bağlı münaqişə nə qədər uzanarsa, bölgədə vəziyyət bir o qədər pisləşəcək: "Regionda gərginlik gedərək artır. Bu günə qədər ancaq İranda uşaqlar da daxil olmaqla, təxminən 1500 insan həyatını itirib. Qarşılıqlı zərbələr böhranın iqtisadi yükünü artırır. Yeni "macəraların" bədəlini bütün regionumuz, hətta Avropa və Asiya daxil olmaqla, bütün dünya ödəyəcək". "Gərginliyi azaltmaq üçün diplomatiyaya üstünlük verməliyik. Gələcəyimizi təhdid edən hər bir problemə "şərəfli həll yolu" tapıla biləcəyinə inanırıq. Müharibə daha da yayılmadan mümkün qədər tez bitməlidir. Biz bölgədə sülh və rifah atmosferini yenidən yaratmaq əzmindəyik. Əlbəttə ki, bu yolda hər kəsin, xüsusən də bölgə ölkələrinin konstruktiv rolu vacibdir", - deyə Ərdoğan vurğulayıb.

Sonda onu da bildirək ki, Türkiyə üzərində İrana məxsus ilk ballistik raket vurulsa da, Ankaranın kifayət qədər səbirli davrandığı diqqətdən yayınmır. Bu səbir özlüyündə örnək mahiyyət daşıyır. Elə bir mahiyyət ki, həm də prinsipiallığı qoruyur. Axı Ərdoğan onu da deyib ki, Ankara qardaş ölkələrlə, xüsusən Azərbaycanla həmrəydir, bölgədə sülh və sabitliyi pozacaq hər hansı ssenariyə qarşıdır. Ən başlıcası: "Heç kim səhv hesablar etməsin. Qardaşı qardaşa qarşı qoyacaq tələyə düşməməliyik".

Deməli, mövcud böhranın fonunda Türkiyənin siyasi-diplomatik fəaliyyəti kifayət qədər çoxşaxəlidir və bu yanaşma Ankaranın qlobal aktor obrazını canlandırır. Söhbət müharibəyə son qoyacaq, onun daha geniş areala yayılmasına imkan verməyəcək, həm də İran üçün heç də yaxşı sonluq vəd etməyən ssenarinin qarşısını alacaq siyasi balansdan gedir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Makronun "U dönüşü"




(əvvəli 1-ci səhifədə)

Görünən odur ki, Paris gec də olsa, bölgədə formalaşan yeni geosiyasi reallıqları qəbul etməyə məcbur qalıb. Son illər Fransa ilə Azərbaycan arasında münasibətlər kifayət qədər gərgin mərhələdən keçib. Rəsmi Paris bir çox hallarda balanslı vasitəçi mövqeyindən uzaqlaşaraq regiondakı proseslərə emosional yanaşma nümayiş etdirib. Bu isə Fransanın Cənubi Qafqazdakı imicinə xeyli zərər verib. Xüsusilə II Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıq fonunda köhnə yanaşmanı davam etdirmək Fransanı proseslərdən kənarda qoyan amilə çevrilmişdi. Məlumdur ki, diplomatik praktikada dövlət başçılarının başqa bir xalqın dilində müraciət etməsi siyasi mesaj sayılır və münasibətlərdə yumşalma niyyətinin, rəğbətin göstəricisi sayılır. Bu, baxımdan Makronun paylaşımı Fransa siyasətində ritorikanın dəyişdiyini, Parisin əvvəlki sərt xəttdən tədricən uzaqlaşdığını göstərən simvolik addım kimi görünür. Əslində, bu o qədər də təəccüb doğurmamalıdır. Çünki Cənubi Qafqazda son illər formalaşan yeni konfiqurasiya Fransanın əvvəlki siyasətinin effektiv olmadığını açıq şəkildə ortaya qoydu. Regionda güc balansı dəyişdi, siyasi prioritetlər yeniləndi və Azərbaycan həm hərbi, həm diplomatik, həm də iqtisadi baxımdan əsas aktorlardan birinə çevrildi. Enerji təhlükəsizliyi, beynəlxalq nəqliyyat dəhlizləri, regional sabitlik və qlobal əməkdaşlıq layihələri Bakının rolunu daha da artırdı. Və uzun müddət bu dəyişiklikləri qəbulunda tərəddüd edən Fransa mövcud reallıqla hesablaşmadan bölgədə nüfuz qazanmağın mümkünsüzlüyünü anladı. Avropanın enerji təhlükəsizliyi məsələsinin gündəmin əsas mövzularından birinə çevrildiyi, yeni nəqliyyat marşrutlarının formalaşdığı və qlobal qarşıdurmaların dərinləşdiyi bir dövrdə Azərbaycan kimi strateji tərəfdaşla münasibətləri gərgin saxlamaq Paris üçün siyasi baxımdan sərfəli olmazdı. Makronun paylaşımı məhz bu zərurətin qəbul edildiyini göstərən işarə kimi yozula bilər. Çox güman ki, Fransa regiona münasibətdə daha realist və hesablanmış siyasət yürütməyə hazırlaşır. Daha dəqiq desək, Paris ideoloji yanaşmadan maraqlara əsaslanan siyasətə keçmək məcburiyyətində qalır.

Azərbaycanın Fransa vətəndaşlarının İrandan təxliyəsi üçün yardımı məsələsinə də toxunmasaq olmaz. Parisin siyasətində müşahidə olunan selektiv yanaşma, ölkəmizə qarşı aparılan qarayaxma kampaniyaları və qeyd edə biləcəyimiz daha bir çox anti-Azərbaycan siyasətinin nümunələrinə rəğmən ölkəmiz sivillərin təhlükəsizliyinə önəm verir. Yaxın Şərqdə cərəyan edən hadisələr fonunda rəsmi Bakının davranışı beynəlxalq humanizm və etik norma baxımından nümunəvi oldu. Fransız vətəndaşlarının İrandan təhlükəsiz təxliyəsi məsələsində Azərbaycan həm dövlət strukturları, həm diplomatik kanallar, həm də operativ humanitar tədbirlər vasitəsilə fəal iştirak etdi.

Sonda qeyd edək ki, bir dövlətin etik və beynəlmiləl prinsiplərə sadiqliyi onun beynəlxalq imicinə ciddi töhfə verir. Azərbaycan həm də bu missiyanın daşıyıcısı olaraq qlobal siyasi gərginliklərdə belə insani dəyərlər və humanitar məsuliyyətlə hərəkətin mümkünlüyünü sübut etdi. Fransa kimi qlobal gücün qərəzli mövqeyinə baxmayaraq, dövlətimiz yenə də öz prinsiplərindən sapmayaraq beynəlxalq hüquq çərçivəsində humanist addımlar atdı. Bununla da həm Azərbaycan diplomatiyasının yetkinliyi, həm də ölkənin beynəlxalq səhnədə etibarlılığı bir daha öz təsdiqini tapdı.

***Nəzrin ELDARQIZI***
***XQ***

*Ekspert rəyi*



**Elçin MİRZƏBƏYLİ,**
**Milli Məclisin deputatı**

Fransa prezidentinin "X" üzərindən Azərbaycan dilində etdiyi paylaşımın məzmunu və forması daha geniş siyasi kontekstdə təhlil edildikdə Parisin son illər Azərbaycana münasibətdə formalaşdırdığı selektiv və bəzən açıq qərəzli xətt fonunda müəyyən korrektə cəhdlərinin müşahidə olunduğunu söyləmək mümkündür. Diqqətçəkən məqamlardan biri paylaşımın məhz Azərbaycan dilində edilməsi və birbaşa Prezident İlham Əliyev ilə telefon danışığının qeyd olunmasıdır. Praktikada belə jestlər təsadüfi sayılmır. Dövlət başçılarının və ya hökumət rəhbərlərinin öz müraciətlərini mesajın ünvanlandığı ölkənin dilində etmələri, adətən, həmin ölkəyə siyasi mesaj vermək, münasibətlərdə yeni mərhələyə keçmək və ya mövcud gərginliyi yumşaltmaq niyyəti ilə əlaqələndirilir. Nəzərə alsaq ki, son illər Fransa–Azərbaycan kifayət qədər mürəkkəb mərhələdən keçib, bu addım diplomatik ritorikanın yumşaldılması kimi qiymətləndirilə bilər.

Digər tərəfdən, paylaşımda Azərbaycanın regional proseslərdə oynadığı rolun dolayısı ilə etiraf edilməsi də diqqətdən yayınmır. Makron Azərbaycanın Fransa vətəndaşlarının təxliyəsi ilə bağlı göstərdiyi yardıma görə təşəkkür etməklə, faktiki olaraq, Bakının regionda mühüm logistika və təhlükəsizlik platforması kimi çıxış etdiyini qəbul edir. Bu isə son illər Azərbaycanın geosiyasi çəkisinin artmasının beynəlxalq səviyyədə açıq etiraf edildiyini göstərir. Məlumdur ki, Azərbaycan təkcə Cənubi Qafqazın deyil, həm də Avrasiya məkanının mühüm nəqliyyat və enerji qovşaqlarından birinə çevrilib. Enerji təhlükəsizliyi, Şərq-Qərb nəqliyyat dəhlizi marşrutları, eləcə də regional təhlükəsizlik məsələlərində Bakının rolu getdikcə artır.

Paylaşımın digər mühüm elementi Ermənistan–Azərbaycan münasibətlərində sülh prosesinə dəstəyin vurğulanmasıdır. Bu məqam xüsusilə həssasdır, çünki son illərdə Parisin açıq şəkildə sülhə maneə yaratmaq məqsədi daşıyan mövqe tutması və müxtəlif platformalarda Bakıya qarşı tənqidi çıxışları Azərbaycan ictimaiyyətində ciddi narazılıq doğurmuşdu. Bu səbəbdən Makronun "ikitərəfli dialoqu daha möhkəm əsaslar üzərində davam etdirmək" niyyətini ifadə etməsi müəyyən dərəcədə diplomatik balans axtarışı kimi də qiymətləndirilə bilər. Lakin bütün bunları Fransanın siyasətində tam və köklü dönüş kimi təqdim etmək də hələ tezdir. Diplomatiyada jestlər və mesajlar bəzən taktiki xarakter daşıyır və konkret situativ maraqlardan irəli gəlir.

# Ticarət sülhü əvəz edə bilməz

## *Ermənistan və Azərbaycanın bazar münasibətləri intensivləşsə də...*



**Dünyanın inkişaf tarixindən bəllidir ki, ölkələr arasında ticari-iqtisadi münasibətlər hər zaman üstqurumun müəyyənləşdirdiyi bazis rolunu oynayıb. Yəni üstqurum ölkələrarası ictimai-siyasi əlaqələrin lokomotividir. Bu aksiom XXI əsrdə də öz qüvvəsində qalmaqdadır. Bu, 2025-ci il avqustun 8-də Vaşinqtonda əldə edilmiş tarixi razılaşmadan sonra keyfiyyətcə yeni inkişaf mərhələsinə keçmiş Ermənistanla Azərbaycan arasında sülh prosesində də öz əksini tapıb. Qonşu ölkənin baş naziri Nikol Paşinyanın bu günlərdə brifinqdə verdiyi açıqlamalardan əldə olunan qənaət də son nəticədə bu aksiomun sübutudur.**

Hayların baş naziri bildirib ki, Ermənistanla Azərbaycan arasında münasibətlərdə siyasi gündəmdən daha çox iqtisadi gündəm üstünlük təşkil edir: "Görünür, iqtisadi münasibətlər siyasi gündəmdən üstündür. Bu yaxşıdır, çünki bütün siyasi proqramlar iqtisadi layihələrə xidmət edir. Avqustun 8-də baş verən hadisələr isə iqtisadi əməkdaşlıq üçün kifayət qədər geniş imkanlar yaratdı və mən şadam ki, Ermənistanla Azərbaycan arasında ticarət əlaqələri qurulur və inkişaf edir". Fikrini bir qədər də konkretləşdirən Paşinyan ən qısa zamanda nəinki Azərbaycandan, həm də Ermənistandan Azərbaycana mal ixrac edəcəklərinə ümidvar olduğunu da söyləməyi unutmayıb. Fəqət onun mediaya açıqlamasında bilərəkdən, ya bilməyərəkdən "unutduğu" vacib bir məqama toxunmaq istərdik.

*

Ermənistan liderinin aşkar sezilən nikbinliyinin arxasında Bakının yaratdığı yeni imkanlar və konkret əməllər dayanır. Bu kontekstdə diqqətəlayiq fakt ondan ibarətdir ki, 2025-ci ilin oktyabrında Azərbaycan öz ərazisindən Ermənistana yük tranzitinə qoyulan bütün məhdudiyyətləri aradan qaldırdı. Bakının bu humanistliyi ilə Qazaxıstan və Rusiya taxılının qonşu respublikaya tədarükü həyata keçirildi. Az sonra isə Azərbaycan benzini və dizeli ilə dolu sisternlər Gürcüstan üzərindən Ermənistana yola salındı.

O ki qaldı Paşinyanın Ermənistan məhsullarının Azərbaycana ixracı ilə bağlı bəyanatına, bu niyyət siyasi isteblişmentin leksikonuna möhkəm yerləşib, bunu ölkənin digər rəsmilərinin mesajları da göstərir. Məsələn, bu ilin yanvarında iqtisadiyyat naziri Gevorq Papoyan Azərbaycana idxal oluna biləcək malların siyahısını açıqlamış və bildirmişdi ki, İrəvan və Bakı alüminium folqa, alüminium folqa istehsalı üçün xammal, ferromolibden, tekstil və digər məhsulların tədarükü imkanları ilə bağlı danışıqlar aparır. Nazir onu da demişdi ki, Azərbaycanın bəzi şirkətləri müəyyən malların idxalında maraqlı olduqlarını bildiriblər: "Azərbaycan tərəfi onların maraqlandığı konkret malların siyahısını təqdim edib və biz ixrac edə biləcəyimiz miqdarla bağlı məlumat göndərmişik. Siyahımıza qızılgül və istixana məhsulları da daxildir: pomidor və bibər. Biz təxmini qiymət təklif etmişik". Pomidor və bibərin Ermənistandan idxalına niyə ehtiyacın yarandığı başqa yazının mövzusu olduğu üçün üstündən keçirik. Sadəcə, gözlənilən məhsul bolluğundan sevincək hala düşmüş Papoyanın qarşılıqlı ticarətin yüz milyonlarla dollarlıq potensiala malik olması fikri nikbin proqnozdur. Əlbəttə, Ermənistanla Azərbaycan arasında ticarətin artması təbiidir. Rəsmi İrəvanı sevindirən isə məhsul bolluğundan daha çox Ermənistanın Cənubi Qafqaz vasitəsilə Asiya və Avropanı birləşdirən Orta Dəhliz kimi böyük nəqliyyat, logistika, enerji və infrastruktur layihələrində iştirakına yolunun açılmasıdır. Niyə də sevinməsin? Kiçik bir ölkə üçün böyük işlərə qoşulmaq, təcriddən çıxmaq və uzun müddət durğunluq yaşayan iqtisadiyyatı inkişaf etdirmək az qazanc deyil.

*

İntəhası, yuxarıda qeyd etdiyimiz kimi, ticari-iqtisadi əlaqələr real siyasi fəaliyyətlə uyğunlaşdırılmalıdır. Bu kontekstdə qeyd etmək vacibdir ki, Paşinyanın Ermənistanla Azərbaycan arasında müharibə olmayacağını və Bakı ilə sülh sazişinin imzalanmasının Ermənistan hakimiyyəti üçün prioritet olduğunu söyləməsinə baxmayaraq, çox vacib məsələ hələ də həll olunmamış qalır. Bu, Ermənistan konstitusiyasına Azərbaycan dövlətinə qarşı ərazi iddialarını istisna edəcək dəyişikliklərdir. Paşinyanın brifinqdəki bəyanatları kontekstində diqqətçəkən ikinci məqam İrəvanın Avropaya inteqrasiya planlarına aiddir. Buna uyğun olaraq Paşinyan vaxtaşırı mətbuatda müzakirə olunan Ermənistan ərazisində Rusiya hərbi bazasının mövcudluğu məsələsinə müəyyən aydınlıq gətirib: "Rusiya hərbi bazasının Ermənistanda olması hələlik Ermənistanın Avropa İttifaqına daxil olmaq planlarına maneə törətmir. Bəli, Ermənistan Aİ-yə üzvlük prosesinə başlamaq üçün qanun qəbul edib. Amma biz hələ Rusiya hərbi bazasının bizim baxışımızı kölgədə qoyacağı nöqtədə deyilik".

Bu sözləri ilə isə Nikol Paşinyan daha dəqiq mövqe sərgiləyib: "Rusiya hərbi bazasının bizim baxış xəttimizi kəsdiyini görəndə, problemlərdən qaçmaq üçün necə hərəkət edəcəyimizi düşünəcəyik".

Yada salaq ki, bu il yanvarın əvvəlində Nikol Paşinyan ABŞ və Aİ səfirlərinin iştirakı ilə keçirilən "Ermənistan və dünya risklərin və imkanların kəsişməsində" konfransındakı çıxışında bildirmişdi ki, "Avropa İttifaqının standartlarına çatan kimi qarşımızda iki seçim olacaq: ya biz Aİ-yə qəbul olunacağıq, ya da qəbul edilməyəcəyik". Amma hər iki halda biz qazanacağıq. Əgər bizi qəbul etməsələr, biz yenə də Avropa standartlarına cavab verəcəyik, inkişaf etmiş və müasir dövlətimiz olacaq".

Baş nazirin ardınca xarici işlər naziri Ararat Mirzoyan Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsində keçirilən müzakirə zamanı bu xətti davam etdirib. O, Ermənistan və Aİ arasında əlaqələrin dərinləşdirilməsi perspektivlərindən, eləcə də ölkənin iddialı demokratik islahatlar proqramından danışaraq, aşağıdakıları vurğulayıb: "Seçim suveren demokratiya ilə tabeçiliyə aparan avtoritar yol arasındadır. Biz artıq seçimimizi etmişik".

İndi hər şey gün kimi aydın oldu. Beləliklə, yuxarıda deyilənləri ümumiləşdirərək bu qənaətə gələ bilərik ki, Ermənistanın xarici siyasəti müxalifətin və Qarabağ klanının müqavimətinə baxmayaraq, Avropaya inteqrasiya və Azərbaycanla sülhə yönəlib. İrəvanın gələcək kursu iyuna təyin edilmiş parlament seçkilərinin nəticəsindən və bir də ölkənin ana qanununa ediləcək zəruri düzəlişdən asılı olacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

*Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Nikol Paşinyan özünün qeyri-adi və ziddiyyətli bəyanatları, açıqlamaları ilə seçilən siyasətçi kimi tanınır. O, Ermənistanın sosial-iqtisadi çətinliklərdən çıxdığına görə, təbii ki, Bakıya minnətdar olmalıdır. Hesab edirəm ki, Paşinyan bunu tez-tez etməlidir ki, hamı onu eşitsin. Axı, uzun illər ərzində məhz Ermənistanın işğalçılıq siyasəti ucbatından, faktiki olaraq, dünyadan təcrid olunmuş vəziyyətdə idilər. Əgər Ermənistan baş naziri bunu başa düşürsə, deməli, böyük irəliləyiş var. Bunun özü iki ölkə arasında münasibətlərin normallaşmasına xidmət edən amillərdən biri sayıla bilər.

Amma aydın məsələdir ki, ölkələrarası münasibətlərdə siyasət hər zaman üstün sayılıb. Düşünürəm ki, bu üstünlüyü Paşinyan özü sonadək dərk etməlidir. O, vaxtilə konstitusiyalarının preambula hissəsindəki müddəanı da dəyişməyə lüzum görmürdü. Bakının praqmatik və qətiyyətli siyasəti nəticəsində bu gün o, Azərbaycana torpaq iddasını ehtiva edən həmin müddəanın çıxarılması üçün çalışır. Çünki artıq anlayır ki, bunu etməsə, yenə dalana dirənəcək və ölkəsi də təcriddə qalacaq. Əminliklə söyləməliyik ki, sülh dialoqu prosesində bu məsələyə xüsusi üstünlük verilməlidir. Ermənistanda yeni konstitusiya qəbul olunmalı, yaxud dediyimiz hissədə köklü dəyişiklik edilməlidir. Bəli, preambuladan məlum torpaq iddiası tamamilə, birmənalı şəkildə aradan qaldırılmalıdır. Əgər bu baş verməsə, İrəvan nə ərazimizdən yük daşıya biləcək, nə də Bakı sülhə nail olmağı bacaracaq. Paşinyan bu məqamı unutmamalı və yaxın keşmişin dərslərindən nəticə çıxarmalıdır.

# Dövlətin özünümüdafiə imkanı və gücü



## I MƏQALƏ

### Liderlik: hüquqla dürüstlüyün kəsişməsində

Müasir dünyada baş verən geosiyasi proseslər praktiki nəticələrlə yanaşı, nəzəri olaraq da əhəmiyyətli qənaətlər əldə etməyə imkan verir. Siyasi-diplomatik ibarələrdən indi geniş istifadə edib, atılan addımların əsl mahiyyətini gizlətməyə çalışanlar az deyil. Sözdə və diplomatik təmaslarda özlərini "sülh və əməkdaşlıq mələyi" kimi qələmə verənlərin əməllərinə siyasi təlimlərin, beynəlxalq hüququn və geosiyasi nəzəriyyələrin elmi prizmasında baxanda, sabun köpüyü kimi darmadağın olur. Həmin əlamətlər hətta dünyanın bir sıra güclü dövlətlərinin xarici siyasətlərində görünür. Bu məqam müasir liderliyin və diplomatiyanın həqiqət anıdır – insanlar sözə deyil, konkret əmələ inanırlar.

### Nümunələr

Bizim regionda liderin hüquqa və dürüstlüyə münasibətini ifadə edən çoxlu sayda faktlar mövcuddur. Azərbaycan dövlətinin regional və qlobal miqyasda fəaliyyəti təcrübəsi belə bir ümumi qənaət əldə etməyə imkan vermişdir: ulu öndər Heydər Əliyev beynəlxalq hüquqa tam əməl edən və fəaliyyətində dürüst davranan lider olmuşdur!

Heydər Əliyevin beynəlxalq hüquqa uyğun addımlar atdığını saysız-hesabsız faktlar sübut edir. Burada yalnız onu vurğulayaq ki, Azərbaycan dövlətçiliyi üçün ən çətin və kəskin situasiyalarda belə, Ümummilli lider beynəlxalq hüququn normalarına üstünlük vermişdir. Məhz Heydər Əliyevin bu yüksək liderlik keyfiyyəti sayəsində 1994-cü ildə təcavüzkar Ermənistanla atəşkəs əldə olunmuşdur.

Ulu öndər Heydər Əliyevin 1994-cü il və 1995-ci illərdə BMT yüksək tribunasından səsləndirdiyi fikirlər də Azərbaycan liderinin beynəlxalq hüquqa dərin sayğısının klassik nümunəsidir. Terrora, hərbi təcavüzə, haqsız informasiya müharibəsinə məruz qalmış Azərbaycanın dövlət başçısı bütün dünyanı sülhə, ədalətə, hüquqa əməl etməyə, münaqişələri danışıqlarla həll etmə cəsarəti göstərməyə dəvət etmişdir!

Ən əsası odur ki, Heydər Əliyev bütün fəaliyyəti boyu bu mövqedən zərrə qədər də kənara çıxmamışdır. Buna görə də dünya liderləri Heydər Əliyevi sözübütöv, verdiyi vədlərə əməl edən, ədalətli, sülhsevər Lider olaraq qəbul etmişlər.

Bu bağlılıqda Gürcüstanın keçmiş prezidenti E.Şevardnadzenin ATƏT-in İstanbul sammitində açıq etirafını bir daha xatırlamağa dəyər: Heydər Əliyev olmasa idi, Gürcüstandan neft marşrutu keçməyəcəkdi. O, qarşı duran bütün tərəflərə üstün gəldi!

Prezident İlham Əliyev bu ənənəni Cənubi Qafqazda davam etdirən yeganə liderdir. Bunu Azərbaycan dövlət başçısı atdığı hər addımında sübut etmişdir. Artıq bütün dünya həmin faktı qəbul edir. İlham Əliyevin sözü və əməli ilə, siyasi-diplomatik kommunikativ məharətilə, əldə etdiyi konkret nailiyyətlərlə hüquq, ədalət və əməkdaşlığa tam üstünlük verdiyini təsdiq etmişdir.

Ulu öndər Heydər Əliyevin siyasi xəttini davam etdirərək, Azərbaycan Prezidenti beynəlxalq hüququ, tarixi ədaləti və toplumun milli ləyaqətini bərpa etmişdir. Azərbaycanın dövlət kimi ərazisini və tam suverenliyini təmin etdi və bu zaman heç bir qonşu ölkənin haqqına girmədi – həmişə öz sülhsevərliyini və əməkdaşlığa bağlılığını nümayiş etdirdi. Bütövlükdə Cənubi Qafqazın təhlükəsizliyi və davamlı inkişafı üçün yüksək məsuliyyət hissi keçirdiyini göstərdi. İndi bu üstün keyfiyyəti ABŞ-dan tutmuş region ölkələri olan Gürcüstan və Ermənistana qədər hər kəs etiraf edir.

Azərbaycan Prezidenti müasir dünya siyasətində siyasi-diplomatik məharəti ilə yüksək fəzilətli ünsiyyət qabiliyyətini yaradıcı sinerjiyə çevirə bilən lider imicinə malikdir.

### Hüquq, sülh və xeyirxahlıq

Ulu öndər Heydər Əliyev müasir mərhələdə siyasi liderin hüquqa və sülhə sadiqliyinin fəzilətlilik və xeyirxahlıqla tamamlanmalı olduğunun nümunəsidir. Bu keyfiyyət qonşu dövlətlərə münasibətində aydın ifadə olunmuşdur.

Məsələn, Azərbaycan üçün ən ağır günlərdə belə Heydər Əliyev yardım əlini fəlakətin astanasında olan Gürcüstana uzatmışdır. Dəfələrlə Ermənistana səhvini düzəltməyə imkan vermişdir - rəsmi İrəvanın şıltaqlığına baxmayaraq, danışıqlar xəttindən dönməmişdir. Türkiyə ilə münasibətləri yeni yüksək səviyyəyə çatdırmışdır. Rusiyanı faktiki olaraq Azərbaycanla əməkdaşlıqdan fayda əldə edəcəyinə inandırmışdır. İranın yersiz və əsassız iddialarını cilovlayaraq, Azərbaycanla normal əlaqələr qurmaq yolunu seçməsində israr etmişdir.

Paralel olaraq Çin, ABŞ və Avropa ilə əlaqələrin inkişafının təməllərini atmışdır.

Prezident İlham Əliyev bu istiqamətdə də siyasi varislik prinsipinə tam əməl edərək, yeni uğurlar qazanmışdır. Dövlət başçısı region dövlətlərinin hər birinə, yaxın və uzaq coğrafiyada yardıma ehtiyacı olan hər bir ölkəyə səmimiyyətlə xeyirxahlıq əlini uzatmışdır.

Gürcüstana edilən yardımlar və siyasi xeyirxahlığın sayı-hesabı yoxdur. Rusiyanın zaman-zaman təxribatçı davranışlarına baxmayaraq, əməkdaşlıq və təhlükəsizlikdə imkan daxilində bütün xeyirxah addımlar atılmışdır.

Türkiyədə meşə yanğınları və zəlzələ zamanı səmimi və əsl qardaş kimi yardım əlini tərəddüd etmədən uzatmışdır.

Nəhayət, İran. Azərbaycan dövlətinə və cəmiyyətinə qarşı rəsmi Tehranın hansı addımları atdığını, təxribatlarını, təhdidlərini Azərbaycanda hər kəs bilir. Bütün bunlara rəğmən Azərbaycan Prezidentinin İrana qarşı xeyirxah və əsl qonşu münasibətini nümayiş etdirən bir addımını ayrıca xatırlatmaq istərdik. İrana olan hərbi hücumların fonunda Azərbaycan rəhbəri bu ölkə vətəndaşlarının Livandan təmənnasız təxliyə edilməsinə yardım göstərilməsi haqqında göstəriş vermişdir.

Bununla bağlı dövlət başçısı mart ayının 5-də keçirdiyi Təhlükəsizlik Şurasının iclasında demişdir: "Onu da bildirməliyəm, bu gün səhər mənə məlumat verildi ki, İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik".

### Mühüm siyasi məqam

Yuxarıda vurğuladığımız faktlar hər bir müstəqil dövlətin özünümüdafiə fəlsəfəsi baxımından əsas məqamlara işıq salmağa əsas verir. Azərbaycanın özünümüdafiə fəlsəfəsi sistemli və bütöv proses kimi tam oturuşmuşdur. Onun əsas cəhətləri və formalaşma kriteriyaları müasir siyasi, geosiyasi və beynəlxalq münasibətlər nəzəriyyələrinin prinsipləri ilə izah edilə bilir.

Nəzəri olaraq belə görünür ki, Azərbaycan rəhbərliyi müasir sivil və müstəqil dövlət kimi realpolitika çərçivəsində hüquqa, təhlükəsizliyə, mehriban qonşuluğa, qarşılıqlı faydalı əməkdaşlığa xidmət edən özünümüdafiə kursu seçmişdir. Onun başlıca xüsusiyyətlərindən biri fəzilətlilikdir.

Bu fikirlərin praktiki tətbiqi də tam təsdiqini tapır. Azərbaycan Respublikası Cənubi Qafqaz, Mərkəzi Asiya, Türk dünyası, Yaxın Şərq və Avropa istiqamətlərində çoxlu sayda layihələr və siyasi-diplomatik təşəbbüslərlə özünümüdafiə potensialı ilə özünümüdafiə gücü arasında harmoniyaya malik olduğunu sübut edir.

Dövlətin özünümüdafiə potensialı ilə özünümüdafiə gücü arasında nisbətin müəyyən edilməsi prinsipial konseptual məsələdir. Onun aydınlaşdırılması ritorikasından asılı olmayaraq bu, hər bir liderin və ölkənin real kimliyini üzə çıxarır. Bu kontekstdə Azərbaycanın özünümüdafiə potensialı və gücünün başlıca xüsusiyyətləri bizim üçün çox əhəmiyyətlidir, çünki dünyaya onu geniş anlatmalıyıq. Gələcəkdə ola biləcəklərin dünya tərəfindən düzgün anlaşılması naminə bu istiqamətdə siyasilərlə yanaşı, ziyalılar da əmək sərf etməlidirlər.

### Özünümüdafiə potensialı və gücü anlayışı

Əlbəttə, söhbət müstəqil dövlətin özünümüdafiə potensialı və gücündən gedir. Bununla bağlı müasir nəzəriyyələr hansı məqamları önə çəkirlər? Elmi ədəbiyyatda dövlətin özünümüdafiə potensialı və gücü aşağıdakı faktorlarla izah edilir:

– Dövlətin xarici təcavüzü dəf etmək qabiliyyəti;
– Suverenliyini qoruya bilmək imkanları;
– Dövlətin hərbi, iqtisadi, elmi-texniki və resurs gücü;
– Ölkə əhalisinin mənəvi-siyasi birliyi.

Bu şərtlər özlüyündə konkret zaman kəsiyində dövlətin özünümüdafiə potensialı ilə gücü arasındakı optimal nisbəti formalaşdırır. Həmin əsasda dövlət ərazi bütövlüyünü və siyasi müstəqilliyini təmin etmək istiqamətində addımlar ata bilir. BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən dövlət hərbi təcavüz olanda, fərdi və kollektiv formada özünümüdafiəyə əl atmaq hüququna malikdir.

Bu zaman fərdi və ya kollektiv üsullardan istifadə oluna bilər. Burada bir prinsipial məqam vardır. O, bütövlükdə dövlətin ərazi bütövlüyünü və siyasi müstəqilliyini qorumaq üçün müəyyən etdiyi strateji məqsədlə bağlıdır.

Burada əsas məqam dövlətin seçdiyi strateji fəaliyyətin mahiyyəti ilə əlaqəlidir. Əgər dövlət öz ərazi bütövlüyü və siyasi müstəqilliyini özünümüdafiə kontekstində görürsə, konkret xarici siyasət xəttini yeridir ki, burada təcavüzkarlıq istisnadır. Digər halda başqasına təcavüz planı olursa, ərazi bütövlüyü və müstəqilliyin mahiyyəti fərqli olur.

Bu baxımdan Azərbaycan Prezidentinin aşağıdakı fikirləri dövlətimizin mövqeyini aydın ifadə edir. Dövlət başçısı vurğulamışdır: "Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq...".

Yəni Azərbaycanın xarici siyasəti mahiyyətcə əməkdaşlığa və konstruktiv münasibətlər sistemi qurmağa köklənmişdir. Burada təcavüzkarlıq sıfır dərəcəsindədir. Bu o deməkdir ki, Azərbaycanın hərbi, iqtisadi, elmi-texniki və resurs potensialı xarici təcavüzü dəf etməyə və suverenliyi qorumağa yönəlmişdir. Bu baxımdan özünümüdafiə fərdi və kollektiv tədbirlərin sintezidir.

Deməli, Azərbaycan üçün özünümüdafiə beynəlxalq hüquq normalarını gözləməklə silahlı hücuma elə cavab tədbirləridir ki, ərazi bütövlüyü və siyasi müstəqillik təmin olunsun. Bu zaman, dövlətin özünümüdafiə potensialı və gücünü xarakterizə edən faktorlar - dövlətin xarici təcavüzü dəf etmək qabiliyyəti, suverenliyi qoruya bilmək imkanları, dövlətin hərbi, iqtisadi, elmi-texniki, resurs gücü və ölkə əhalisinin mənəvi-siyasi birliyi arasında sinerji vacib şərtdir.

Bunlar kompleks halında Azərbaycan Respublikasının özünümüdafiə potensialı ilə gücü arasında nisbətin optimal ölçüsünü müəyyən edir. Praktiki tətbiq aspektində həmin nisbət dövlət başçısının həyata keçirdiyi xarici siyasət kursunda dəqiq ifadəsini tapmaqdadır. Onun fonunda Azərbaycan Respublikasının özünümüdafiənin fərdi forması ilə kollektiv forması arasında optimal nibətin gözlənilməsi müasir sivil və müstəqil dövlətin təhlükəsizlik strategiyasının bariz nümunəsi təsiri bağışlayır.

Bu əlamət özünü qabarıq surətdə dünyanın bir çox dövlətinin təhlükəsiziyin təmini məsələsində Azərbaycana açıq dəstəyində ifadəsini tapdı. Xüsusilə, Türk Dövlətləri Təşkilatı (TDT) üzvləri Bakını tam müdafiə edən sülh xarakterli mövqe nümayiş etdirdilər. Yəni TDT Azərbaycanın təhlükəsizliyini təmin etmək üçün sülhü qorumaq və əməkdaşlığı inkişaf etdirmək naminə həmişə Bakının yanında olmaq iradəsini bir daha nümayiş etdirdi.

Bu mövqenin əsas səbəbi Azərbaycan Prezidentinin böyük məhartətlə fərdi özünümdafiə ilə kollektiv öğzünümüdafiə konseptini realpolitika kontekstində sinxronlaşdıra bilməsi ilə bağlıdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# MEDİA: Avropa Şurası Platformasının hesabatı qərəzli və spekulyativdir

**Avropa Şurasının Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyinin Təşviqi Platforması tərəfindən dərc olunmuş Avropada mətbuat azadlığının vəziyyətinə dair 2025-ci il üzrə illik hesabatda Azərbaycanın media mühiti ilə bağlı birtərəfli, qərəzli mülahizələrə yer verilib. Xüsusilə "Media haqqında" Azərbaycan Respublikası Qanununa 2025-ci ildə edilmiş dəyişikliklərlə bağlı hesabatda əks olunan yanaşmalar saxta xarakter daşıyır.**

Bu fikirlər Medianın İnkişafı Agentliyinin bəyanatında əksini tapıb. Bəyanatda, bildirilib: "Media haqqında" Azərbaycan Respublikası Qanununa edilən dəyişikliklər cəmiyyətin və media ictimaiyyətinin tövsiyələri, istək və təklifləri əsas götürülməklə irəli sürülüb ki, burada əsas məqsəd ölkəmizin informasiya mühitinin qorunaraq sağlamlaşdırılması, media brendinin möhkəmləndirilməsi və peşəkar jurnalistin nüfuzunun gücləndirilməsi, cəmiyyətin tələblərini nəzərə alaraq informasiya məkanında bu və ya digər neqativ hallara qarşı mübarizə kontekstində dövlət tənzimlənməsində həssaslığın artırılması, çevikliyin təmin olunmasıdır.

Bu tip spekulyativ yanaşmalardan biri də çap mediası subyektlərinə dair fikirlərdə təzahür edir. Halbuki hesabatda göstərilənlərdən fərqli olaraq müvafiq dəyişikliklərdə ümumən media subyektlərinin adlarında ictimai qaydaya, mənəviyyata və əxlaqa zidd olan, istifadəçiləri yanılda bilən ifadələrdən istifadənin yol verilməzliyi ilə bağlı müddəa yer alır, bu da xarici və beynəlxalq təcrübədə geniş tətbiq olunan, istifadəçilərin subyektdən gözləntilərinə dair hüquqlarının, həmçinin media subyektlərinin marka dəyərinin qorunmasına xidmət edir".

**Bəyanatda diqqətə çatdırılıb ki, Azərbaycanda jurnalistlərin peşə fəaliyyətinə görə hər hansı məhdudiyyət mövcud deyildir və ölkədə ifadə azadlığı hüquqi və praktiki olaraq tam təmin edilib:**

"Eyni zamanda, vurğulayırıq ki, Azərbaycanda irqi, dini, mənşə, cinsi, etnik, habelə peşə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar qanun qarşısında bərabər məsuliyyət daşıyır. Hesabatda adı hallanan konkret şəxslərlə bağlı məsələ üzrə isə bildiririk ki, ictimaiyyətə açıq olan iş materiallarının təfərrüatlarından həmin şəxslərin peşə fəaliyyətləri ilə onlara qarşı irəli sürülmüş cinayət və inzibati ittihamlar arasında heç bir əlaqənin olmadığı, müvafiq iddiaların, sadəcə, uğursuz manipulyasiya cəhdlərini ifadə etdiyi aydın görünür.

Bununla yanaşı, qeyd edirik ki, media subyektlərinin müvafiq qaydada qeydiyyata alınması və Media Reyestrinə daxil edilməsi ilə bağlı tələb Azərbaycanda fəaliyyət göstərən bütün media subyektlərinə, o cümlədən xarici media subyektlərinin filial və nümayəndəliklərinə münasibətdə tətbiq edilir və bu istiqamətdəki yeni yanaşmalar mahiyyət etibarilə yalnız texniki-təşkilati baxımdan səmərələşdirici xarakter daşıyır.

Media subyektlərinin Reyestrə informasiya agentliyi kimi daxil edilməsi üçün nəzərdə tutulan tələblər formalaşdırılarkən mövcud praktikanın təhlilinin nəticələri əsas götürülüb, həmçinin informasiya agentliklərinin mahiyyət etibarilə yalnız istehlakçıların deyil, eyni zamanda, digər peşəkar media subyektlərinin də məzmunla təmin edilməsi sahəsindəki müstəsna fəaliyyəti diqqətə alınıb.

Hesabatda istinad olunan ölkəmizdə diffamasiya ilə bağlı qanunvericiliyin mövcud vəziyyətinə dair 2024-cü ildə Platformada dərc olunmuş müvafiq materialla əlaqədar xatırlatmaq istərdik ki, həmin materialda əksini tapan iddialara münasibətdə mövqeyimiz eyni ildə qarşı tərəfə rəsmi şəkildə bildirilib. Azərbaycanla bağlı belə hesabatlar hazırlanarkən rəsmi mövqeyin nəzərə alınmaması, faktların deyil, ehtimalların, subyektiv rəy və mülahizələrin əsas götürülməsi təəssüf doğurur".

***XQ***

# "Əbədiyaşar məhəbbət" boşnak dilində

**Azərbaycanın Bosniya və Herseqovinadakı səfirliyinin təşəbbüsü ilə Xalq yazıçısı Elmira Axundovanın "Zərifə və Heydər Əliyevlər – Əbədiyaşar məhəbbət" kitabı Sarayevoda boşnak dilində işıq üzü görüb.**




Nəşr son üç ildə səfirliyin ümummilli lider Heydər Əliyevin irsinin təbliği istiqamətində çap etdirdiyi ikinci mühüm kitabdır. Rus dilində qələmə alınan, son üç ildə Azərbaycan, qazax, özbək, Ukrayna dillərinə tərcümə olunaraq oxucular arasında geniş populyarlıq qazanan əsəri boşnak dilinə xanım Mayda Musiç tərcümə edib.

Elmira Axundovanın bu kitabı xalqımızın iki görkəmli şəxsiyyəti – ulu öndər Heydər Əliyev və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın 32 illik birgə həyatına həsr olunub. Müəllif xalqa və dövlətə xidmət kimi nəcib amala köklənən mənalı ömrün bütün mərhələlərinə işıq salmağa çalışıb. İlk tanışlıqdan tutmuş Zərifə xanımın vaxtsız vəfatına qədər birlikdə yaşadıqları həyatın biri-birindən zəngin və maraqlı illəri əsərin səhifələrində təkcə müəllifin təhkiyəsində deyil, Heydər Əliyevi və Zərifə xanımı yaxından tanıyan onlarla insanın xatirələri əsasında işıqlandırılıb. Əsərdə iki böyük şəxsiyyəti birləşdirən mənəvi tellər, onların həqiqi məhəbbətə və məqsəd birliyinə əsaslanan səmimi ailə münasibətləri, övladlarının tərbiyəsinə münasibət, ölkənin mədəni-mənəvi dirçəlişindəki böyük rolu, həyatları boyu üz-üzə gəldikləri, amma qarşılıqlı inam və məhəbbətin gücü ilə dəf etdikləri sınaqlar, çətinliklər haqda söz açılıb.

Nəfis tərtibatla çap olunmuş kitaba Zərifə və Heydər Əliyevlərin birgə həyatının müxtəlif dövrlərini göz önündə canlandıran illüstrativ materiallar əlavə edilib.

Kitaba ədəbiyyatşünas alim Vilayət Quliyev "Heç zaman bitməyən bir eşq hekayəsi" adlı maraqlı və təsirli sözardı yazıb.

Nəşrin əsas məqsədi Azərbaycanın müasir tarixini və görkəmli şəxsiyyətlərini Qərbi Balkan ictimaiyyətinə daha yaxından tanıtmaqdır.

***XQ***

# "Mənzərəyə açılan ev" qrup sərgisi



**Martın 8-də "Gazelli Art House"da "Her Art in Action" festivalının 2026-cı il buraxılışının açılış mərasimi keçirilib.**

Festivalın ilk günündə VarYox incəsənət və mədəniyyət platforması və "Gazelli Art House" Bakı qalereyasının birgə əməkdaşlığı çərçivəsində "Mənzərəyə açılan ev" mövzusunda qrup sərgisinin nümayişinə başlanılıb.

Sərgidə Leyla Əliyevanın da rəsm əsərləri yer alır.

Leyla Əliyeva sərgidə iştirak edib, nümayiş etdirilən əsərlərə baxış keçirib. Ona festival barədə məlumat verilərək bildirilib ki, "Her Art in Action", VarYox incəsənət və mədəniyyət platforması tərəfindən təsis edilərək həyata keçirilən illik proqramdır və incəsənət sahəsində gender bərabərliyinin təşviqinə, mədəni inklüzivliyin artırılmasına, eləcə də Azərbaycanın beynəlxalq mədəni iştirakının gücləndirilməsinə həsr olunub. Bu il mart-may aylarını əhatə edən festival üçaylıq müddətdə Bakı şəhərinin müxtəlif məkanlarında keçiriləcək.

Tədbir çərçivəsində şəhid anasının doğum günü qeyd olunub, Leyla Əliyeva ona hədiyyə təqdim edib.

Həmçinin sərgi iştirakçıları öz əl işlərindən Leyla Əliyevaya hədiyyə ediblər.

Sonda Leyla Əliyeva "Gazelli Group" şirkətinin təsisçisi və prezidenti Zərifə Həmzəyevanın xatirə guşəsini də ziyarət edib.

Festivalın builki buraxılışının kuratoru, multimedia rəssamı Sitara İbrahimbəyli martın 8-də keçirilən ilk sərgisinin açılışında 27 yerli və xarici rəssamın əsərlərinin nümayiş olunduğunu qeyd edib: "Üçüncü ildir ki, martın 8-də festivalın açılışını edirik. Ümumi üç açılış olacaq. Apreldə 11 nömrəli İnteqrasiya təlimli internat məktəbinin (Bilgəh) şagirdlərinin tanınmış müasir rəssamlarla dialoq əsasında yaradılan birgə sərgisi təşkil olunacaq. Üçüncü layihə isə İçərişəhərdə keçiriləcək və açıq havada fotoqrafiya gecəsi olacaq. Ümumilikdə, 3 ay ərzində 50-dən çox rəssamın əl işi sərgilənəcək".



Qeyd olunub ki, 3 il ardıcıl keçirilən "Her Art in Action" regionda qadınların yaradıcılığına və millətlərarası mübadiləyə həsr olunmuş nadir festival kimi çıxış edir. Layihə Azərbaycandan və region ölkələrindən, o cümlədən Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkiyə, Gürcüstan, Misir, həmçinin Balkan bölgəsi, İspaniya və Litvadan olan qadınları fəal şəkildə bir araya gətirir.

"Mənzərəyə açılan ev" mövzusu isə evi sabit məkan kimi deyil, qadın təcrübəsi ilə formalaşan dəyişkən bir vəziyyət kimi nəzərdən keçirir. Gündəlik məişət hüdudlarından çıxaraq, mövzu qadınların ictimai və şəxsi həyat, göz önündə olma və təklik, aidiyyət və müqavimət arasındakı gərginlikdə məkanı necə yaratdığını, müəyyən etdiyini, mübarizə apardığını və geri qaytardığını araşdırır.

Müstəqil rəssam Kafiyə Eyvazova builki festivala "Pəncərədən baxış" əsəri ilə qatılıb. "Üç ildir festivala qatılıram və ilk dəfədir ki, xalça texnikasında iş təqdim edirəm. Əsər xovlu xalça texnikasında toxunub və insanları ailə strukturunu sorğulamağa dəvət edir. Burada kişi motivləri qadın motivlərini sanki qoruyurmuş kimi görünsə də onu məhdudlaşdırır. Getdikcə qadının üz cizgiləri yox olur. Çünki məhdudiyyət insanın şəxsiyyətini arxa plana salır və görünməz edir. Əsər cəmiyyətimizə qadınlara dəyər verməyi, onları dinləməyi və azadlığını məhdudlaşdırmamağı tövsiyə edir".

Festivala mayın 31-də yekun vurulacaq.

***XQ***

# Azərbaycan Orta Dəhlizin aparıcı ölkəsidir




**Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi tanınan Orta Dəhliz uzun müddət Şimal və Cənub marşrutlarının alternativi hesab olunub. Lakin son illərdə Avrasiya məkanında baş verən geosiyasi dəyişikliklər göstərir ki, dəhliz artıq əvəzedici variantdan daha çox regionun əsas ticarət arteriyalarından biridir. Statistik göstəricilər marşrutun strateji əhəmiyyətini daha aydın ortaya qoyur.**

Qazaxıstan Nəqliyyat Nazirliyinin məlumatına görə, 2029-cu ilə qədər Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə konteyner daşımalarının 300 min TEU-ya qədər artırılması planlaşdırılır. Bildirilir ki, 2025-ci ildə marşrutla təxminən 77 min TEU konteyner daşınıb. Son 7 ildə TBNM ilə daşımaların ümumi həcmi təxminən 5 dəfə artaraq ildə 0,8 milyon tondan 4,5 milyon tona çatıb ki, bu da marşrutun qlobal logistikanın əsas həlqələrindən biri kimi rolunun möhkəmləndirilməsində mühüm addım olub.

Nazirliyin məlumatına görə, marşrut vasitəsilə daşımaların dinamikası davamlı artım göstərir: 2019-cu ildə daşımaların həcmi 759 min, 2020-ci ildə 783 min, 2021-ci ildə 586 min, 2022-ci ildə 1,485 milyon, 2023-cü ildə 2,764 milyon, 2024-cü ildə 4,484 milyon, 2025-ci ildə isə 4,119 milyon ton təşkil edib. Bu gün Trans-Xəzər marşrutu Çin, Qazaxıstan, Azərbaycan, Qafqaz ölkələri, Türkiyə və Avropa bazarlarını birləşdirən multimodal nəqliyyat arteriyasıdır.

Daşımaların həcminin artması infrastrukturun genişləndirilməsi və iştirakçı ölkələrlə nəqliyyat operatorları arasında strateji tərəfdaşlığın gücləndirilməsinin nəticəsidir. Gömrük prosedurlarının sadələşdirilməsi, "bir pəncərə" prinsipinin tətbiqi və yüklərin çatdırılma müddətinin azaldılması marşrutun inkişafının mühüm amilləri olub. Əgər əvvəllər daşımaların müddəti 28-32 gün idisə, indi bu göstərici 13-17 günə qədər azaldılıb.

Bundan başqa, Azərbaycan və Qazaxıstan tezliklə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə əməkdaşlıq haqqında hökumətlərarası saziş imzalamağı planlaşdırırlar. Qazaxıstan Nəqliyyat Nazirliyi bildirib ki, tərəflər artıq saziş layihəsinin hazırlanmasını başa çatdırıblar. Onun imzalanmasında məqsəd TBNM-in institusional statusunun artırılmasıdır.

Qeyd etmək lazımdır ki, Orta Dəhlizdə Azərbaycanın rolu xüsusilə önəmlidir. Bakı Limanı, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu, rəqəmsal gömrük sistemləri və Xəzər dənizində donanmanın modernləşdirilməsi üçün həyata keçirilən investisiyalar tranzit imkanlarını əhəmiyyətli dərəcədə artırıb və çatdırılma müddətini qısaldıb. Bu baxımdan Orta Dəhlizə yalnız infrastruktur layihəsi olmaqla kifayətlənmir, eyni zamanda, Azərbaycanın iqtisadi siyasətinin strateji prioritetlərindən biri kimi çıxış edir.

Orta Dəhlizə Qərb ölkələri, xüsusilə ABŞ və Avropa dövlətləri, son illərdə ciddi maraq göstərir. Bu maraq əsasən marşrutun Avrasiya ticarətində strateji rolundan və Şimal marşrutu ilə Cənub dəhlizindəki qeyri-sabitliklərdən irəli gəlir. ABŞ ilə Azərbaycan arasında imzalanan Strateji Tərəfdaşlıq Xartiyası çərçivəsində də Orta Dəhliz xüsusi diqqət mərkəzindədir. Sənəd quru, dəniz və hava nəqliyyatının inkişafını, tranzit prosedurlarının asanlaşdırılmasını və multimodal logistikanın gücləndirilməsini nəzərdə tutur. Eyni zamanda, Avropa şirkətləri də Orta Dəhlizin multimodal imkanlarını və yüksək tranzit tutumunu qiymətləndirir, layihəyə investisiyaların artırılması və infrastrukturun təkmilləşdirilməsində maraqlıdır.

Xartiyada qeyd olunur: "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafı; enerji və məlumat bağlantısı, ticarət və tranzit asanlaşdırılması; gömrük nəzarəti və sərhəd keçidi; beynəlxalq multimodal logistika və digər əlaqəli sahələr üzrə əməkdaşlıq yolu ilə Trans-Xəzər Nəqliyyat Dəhlizinə (Orta Dəhliz) diqqət yetirərək regional əlaqəni təşviq etmək üçün birgə işləmək niyyətindədirlər".

Sənədə əsasən, tərəflər 8 avqust 2025-ci il tarixli Vaşinqton Sülh Zirvə Görüşünün Bəyannaməsinə uyğun olaraq beynəlxalq və ölkədaxili bağlantıları, Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin edəcək və regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq multimodal layihə kimi Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) əhəmiyyətini qəbul edirlər.

TRIPP, yəni Zəngəzur dəhlizi, gələcəkdə region üçün strateji önəm kəsb edəcək layihədir. Gözləntilərə görə, bu dəhliz Azərbaycan, Naxçıvan Muxtar Respublikası və regionun digər ölkələri arasında birbaşa tranzit bağlantısı yaradacaq, yük daşımalarını sürətləndirəcək və çatdırılma müddətlərini xeyli qısaldacaq.

Layihənin tamamlanması ilə TRIPP Orta Dəhlizin əsas seqmentlərindən birinə çevriləcək. Eyni zamanda, iştirakçı ölkələr üçün yeni investisiya və iqtisadi imkanlar yaradacaq və Avrasiya ticarətində strateji rol oynayacaq.

***Musa BAĞIRLI***
***XQ***

**Yaxın Şərqdə gərginliyin artması və İranda baş verən proseslər qlobal iqtisadi sistemdə, xüsusilə də inkişaf etməkdə olan ölkələrin maliyyə dayanıqlılığına yeni təhlükə yarada bilər. Beynəlxalq reytinq qiymətləndirmələri göstərir ki, regional münaqişə yalnız siyasi sabitliyə deyil, həm də enerji resursları, maliyyə axınları və valyuta bazarları vasitəsilə bir sıra ölkələrin iqtisadi vəziyyətinə təsir göstərə biləcək amillər formalaşdırır.**

# Geosiyasi böhran və rəqəmsal valyuta

## *"Fitch ratings"in Azərbaycan nikbinliyi*

Qiymətləndirmələrə görə, münaqişənin təsiri, əsasən, bir neçə iqtisadi kanal üzərindən ötürülə bilər. Enerji idxalının bahalaşması, pul köçürmələrinin azalması, maliyyə subsidiyalarının məhdudlaşması, valyuta məzənnələrində təzyiq və beynəlxalq maliyyələşməyə çıxışın çətinləşməsi bir çox inkişaf etməkdə olan ölkələr üçün əlavə risklər yaradar. Xüsusilə enerji resurslarından asılı olan iqtisadi sistemlərdə bu faktorlar makroiqtisadi sabitlik üçün ciddi sınağa çevrilə bilər.

Regional qeyri-sabitlik humanitar və sosial təsirlərlə də müşayiət olunur. "Fitch ratings" beynəlxalq reytinq agentliyi öz hesabatında bildirir ki, İranda vəziyyətin kəskinləşməsi qaçqın axınının artmasına gətirib çıxarsa, region ölkələri üçün yeni sosial-iqtisadi çağırışlar yaranar. Bu kontekstdə Azərbaycan, Türkiyə və İraq kimi ölkələr potensial təsirlərə məruz qala biləcək dövlətlər sırasında göstərilir.




Digər tərəfdən, enerji bazarlarında baş verən dəyişikliklər bəzi ölkələr üçün yeni iqtisadi imkanlar da yaradar. Fars körfəzi regionundan kənarda yerləşən və karbohidrogen ixrac edən bir sıra inkişaf etməkdə olan dövlətlər üçün enerji qiymətlərinin uzun müddət yüksək səviyyədə qalması ixrac gəlirlərinin artmasına səbəb ola bilər. Bu isə dövlət maliyyəsinin möhkəmlənməsinə və xarici maliyyə mövqelərinin yaxşılaşmasına şərait yaradar.

Eyni zamanda, enerji bazarında mümkün sarsıntıların əsas təhlükə mənbələrindən biri də Hörmüz boğazı ətrafında yaranan gərginlikdir. Analitik qiymətləndirmələr göstərir ki, əgər bu strateji nəqliyyat marşrutunda mümkün bağlanma qısamüddətli – təxminən 1 ay və ya daha az davam edərsə və regiondakı neft hasilatı infrastrukturuna ciddi ziyan dəyməzsə, inkişaf etməkdə olan bazarlar üçün risklər nisbətən məhdud qala bilər. Lakin prosesin uzanması və ya enerji infrastrukturuna zərər dəyməsi qlobal enerji bazarlarında daha dərin dalğalanmalar yarada bilər.

Enerji qiymətlərinin artması xüsusilə xalis enerji idxalçısı olan ölkələr üçün ciddi makroiqtisadi yük yaradır. Bir çox inkişaf etməkdə olan ölkələrdə qazıntı yanacaqlarının idxalı ÜDM-in əhəmiyyətli hissəsini təşkil edir. Böyük iqtisadiyyatlar arasında Çili, Misir, Hindistan, Mərakeş, Pakistan, Filippin, Tailand və Ukrayna kimi dövlətlərdə bu göstəricinin ÜDM-in 3 faizi və ya daha çoxuna bərabər olduğu qeyd edilir. Bu isə enerji qiymətlərində artımın həmin ölkələrin cari hesab balansına və fiskal imkanlarına birbaşa təsir etdiyini göstərir.

Xüsusilə maliyyə imkanları məhdud olan və ya artıq böyük cari hesab kəsiri ilə üzləşən ölkələr üçün çətinlik daha kəskin şəkil alır. Enerji idxalının bahalaşması belə iqtisadiyyatlarda maliyyə sabitliyini zəiflədər və xarici borc öhdəliklərinin icrasını çətinləşdirər.

Digər tərəfdən, İranda baş verən proseslərin gələcək istiqaməti ilə bağlı müxtəlif ehtimallar da nəzərdən keçirilir. Analitik qiymətləndirmələrə görə, ölkənin siyasi inkişafı bir neçə mümkün ssenari üzrə formalaşa bilər. Bunlardan biri mövcud siyasi sistemin müəyyən dərəcədə zəiflədilmiş formada davam etməsi ehtimalıdır. Digər ssenari hakim elitalar daxilində sərt mövqeli qüvvələrlə daha praqmatik yanaşma tərəfdarları arasında parçalanmanın dərinləşməsi ilə bağlıdır. Üçüncü ehtimal isə dövlət idarəetmə sistemində mərkəzi hakimiyyətin tədricən zəifləməsi ilə xarakterizə olunur.

Bu ssenarilərin hər biri regionun geosiyasi və iqtisadi mənzərəsinə fərqli təsir göstərə bilər. Eyni zamanda, İranın strateji kursunun yaxın perspektivdə köklü şəkildə dəyişməsi ehtimalı nisbətən zəif qiymətləndirilir. Ümumilikdə, Yaxın Şərqdə baş verən hadisələr qlobal iqtisadi sistem üçün həm risklər, həm də yeni iqtisadi reallıqlar yaradır. Enerji bazarlarında dalğalanmalar, maliyyə axınlarında dəyişikliklər və regional təhlükəsizlik mühiti bir çox inkişaf etməkdə olan ölkələrin iqtisadi siyasətində ehtiyatlı və çevik yanaşmanı zəruri edir. Bu baxımdan, regionda baş verən proseslərin inkişafı yalnız siyasi deyil, həm də qlobal iqtisadi gündəmin əsas mövzularından biri olaraq qalır.

"Fitch ratings" onu da qeyd edir ki, Azərbaycan Mərkəzi Bankı rəqəmsal valyutanın tətbiqi zamanı böyük ehtimalla ikisəviyyəli modelə üstünlük verər. Bu modelə əsasən, mərkəzi bankın rəqəmsal valyutasının (CBDC) emissiyası və ümumi idarəetməsi tənzimləyici qurumda qalır, vətəndaşlara və biznes subyektlərinə təqdim olunması isə kommersiya bankları vasitəsilə həyata keçirilir. Belə yanaşma maliyyə sistemində mövcud bank infrastrukturunun qorunmasına və yeni texnologiyaların mərhələli şəkildə inteqrasiyasına imkan yaradır.

Qiymətləndirmələrə görə, bu proses bank sektorundan əlavə texnoloji və institusional hazırlıq tələb edəcək. Kommersiya banklarının mərkəzi bankın rəqəmsal platformasına qoşulması, yenilənmiş komplayens tələblərinin yerinə yetirilməsi, kibertəhlükəsizlik sistemlərinin gücləndirilməsi və əməliyyat mexanizmlərinin uyğunlaşdırılması üçün əlavə investisiyalara ehtiyac yaranması ehtimalı da var.

Eyni zamanda, rəqəmsal valyutanın tətbiqi bank sektoru üçün müəyyən risklər də yaradar. Müştərilərin vəsaitlərinin bir hissəsini bank depozitlərindən rəqəmsal valyutaya yönəltməsi depozit bazasının daraldar ki, bu da kredit təşkilatlarının maliyyələşmə imkanlarına və likvidlik ehtiyatlarına təsir göstərər. Nəticədə bankların daha bahalı maliyyə mənbələrinə müraciət etmək ehtimalı var.

Digər tərəfdən, "Fitch ratings" agentliyinin Azərbaycan üçün 2026-2027-ci illərdə real ÜDM-in artım proqnozunu 2,4 faiz səviyyəsində dəyişməz saxlayıb ki, bu da ölkənin ortamüddətli iqtisadi artım potensialına uyğundur. Proqnozlara görə, orta illik inflyasiya göstəricisi 2026-cı ildə 4,6 faizə çatacaq, 2027-ci ildə isə 4 faizə enəcək. 2026-2027-ci illərdə büdcə siyasəti mötədil stimullaşdırıcı xarakter daşıyacaq, bu da Azərbaycanın azad edilmiş ərazilərindəki xərclər və digər kapital qoyuluşları ilə bağlıdır.

Bununla yanaşı, Ermənistanla münasibətlərin normallaşmasından irəli gələn "sülh dividendləri" sayəsində müdafiə büdcəsinin qismən tam istifadə olunmaması istisna edilmir. Planlaşdırılmış investisiyaların strukturunun daxili inflyasiya təzyiqinin əhəmiyyətli artımına səbəb olmayacağı ehtimal olunur.

***Nurlan ABDALOV***
***XQ***

## "Qoşadaş"da dənizin dibi öyrənilir

**"Qoşadaş" sahəsində 3D seysmik çöl işlərinin aparılmasına hazırlıq məqsədilə ilkin mərhələdə dəniz dibinin tədqiqatına başlanılır. Bu barədə Azərbaycan Dövlət Neft Şirkətindən məlumat verilib.**

Bildirilib ki, tədqiqatın əvvəlcədən aparılması, gələcəkdə seysmik çöl işləri zamanı nodların optimal yerləşdirilməsini və nəzərdə tutulan əməliyyatların səmərəliliyini təmin edəcək. Əldə olunan nəticələr seysmik proqramın uğurla həyata keçirilməsinə dəstək verəcək.

Tədqiqat çərçivəsində dəniz dibinin şəraitini dəqiq xəritələndirmək və potensial maneələri müəyyən etmək məqsədilə qabaqcıl çoxşüalı və sonar texnologiyalarından istifadə olunur ki, bu da dənizdibi nodların daha təhlükəsiz və optimal yerləşdirilməsini təmin edir.

Qeyd edək ki, tədqiqat işlərini ARDNŞ-ın Geofizika və Geologiya İdarəsi "SOCAR Fugro" şirkəti ilə əməkdaşlıq çərçivəsində həyata keçirir. Belə layihələrin icrası gələcəkdə nəzərdə tutulmuş çöl işlərinin daha səmərəli aparılmasına və yüksəkkeyfiyyətli seysmik məlumatların əldə olunmasına şərait yaradacaq.

## "Mingəçevir" gəmi-bərəsi əsaslı yeniləşdirilib




**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin "Mingəçevir" gəmi-bərəsinin əsaslı təmiri yekunlaşıb. Proses çərçivəsində gəminin baş və köməkçi mühərrikləri istismara yararlı vəziyyətə gətirilib. Bununla yanaşı, bərədə gövdə-qaynaq, boruquraşdırma, elektrik və avtomatika işləri yerinə yetirilib.**

Təmir çərçivəsində gəmidə yeni "Navtex", "VHF" və "MF/HF" tipli stasionar radiostansiyalar quraşdırılıb, LAG, exolot və komanda yayım qurğularında isə əsaslı yenidənqurma işləri aparılıb. Gəminin sualtı və suüstü hissələri, maşın şöbəsi və baş göyərtəsi təmizlənərək rənglənib, heyətin yaşayış otaqları tamamilə yenilənib. "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan işlərdən sonra dəniz sınaqlarını uğurla başa vuran gəmi-bərə yenidən istismara qaytarılıb.

Qeyd edək ki, "Mingəçevir" gəmi-bərəsinin uzunluğu 154,5 metr, eni 17,5 metr, sürəti 14 düyündür. Gəminin tam yükgötürmə qabiliyyəti isə 5 min 985 ton təşkil edir.

## Büdcə gəlirləri 6,3 milyard manatı ötüb

**2026-cı ilin yanvar–fevral aylarında dövlət büdcəsinin icrasında müsbət dinamika davam edib. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 147 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb.**



Maliyyə Nazirliyindən bildirilib ki, cari ilin yanvar-fevral ayları ərzində dövlət büdcəsinin gəlirləri 6 311,5 milyon manat təşkil edib ki, bu da proqnozu 58,3 milyon manat və ya 0.9 faiz üstələyib.

Dövlət büdcəsinin gəlirlərində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 3 002,0 milyon manat təşkil edərək proqnozdan 79,5 milyon manat və ya 2.7 faiz, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 983,1 milyon manat təşkil edərək proqnozdan 3,1 milyon manat və ya 0.3 faiz, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 9,8 milyon manat təşkil edərək proqnozdan 0,9 milyon manat və ya 10.2 faiz, sair daxilolmalar 63,4 milyon manat təşkil edərək proqnozdan 15,7 milyon manat və ya 32.9 faiz çox, Dövlət Neft Fondundan transfert isə 2 140,0 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Eyni zamanda, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 113,2 milyon manat təşkil edərək proqnoza qarşı 73.5 faiz icra olunub.

Yanvar-fevral ayları ərzində dövlət büdcəsinin xərcləri 4 803,4 milyon manat proqnoza qarşı 4 643,1 milyon manat məbləğində icra edilib ki, bu da 96.7 faiz təşkil edir. 2026-cı ilin yanvar-fevral ayları ərzində icmal büdcənin gəlirləri 7 558,3 milyon manat, xərcləri isə 5 338,4 milyon manat məbləğində icra edilib.

## Taxıl vaqonları Ermənistana ölkəmizdən keçib gedib



**Azərbaycan ərazisindən keçməklə Ermənistana Rusiya taxılı daşıyan 7 vaqondan ibarət yük qatarı Biləcəri Dəmiryol Stansiyasından yola salınıb. Daha sonra qatar "Böyük Kəsik" stansiyasından Gürcüstana keçərək Ermənistana çatıb. Qeyd edək ki, Ermənistana göndərilən taxılın ümumi çəkisi 488 tondur.**

Sonuncu dəfə fevralın 4-də Azərbaycan ərazisindən keçməklə Ermənistana 560 ton Rusiya taxılı daşıyan 8 vaqondan ibarət yük qatarı yola salınıb.

İndiyə qədər Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 21 min tondan çox (302 vaqon) taxıl, həmçinin 610 ton (9 vaqon) gübrə göndərilib.

***XQ***

# Paytaxt sənayesi ilk ayda – 3,6 milyard manat

**Bu ilin yanvar ayında Bakı şəhərində sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 3,6 milyard manat təşkil edib. Bu barədə Bakı Şəhər Statistika İdarəsindən məlumat verilib.**



Bu ilin yanvar ayında paytaxtda sənaye məhsulunun 70 faizi mədənçıxarma, 25,1 faizi emal, 3,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Sənayedə qeyri-dövlət sektorunun payı 83,3 faiz olub. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 86,4 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 13,6 faiz təşkil edib.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında bu il fevralın 1-nə 431,8 milyon manatlıq hazır məhsul ehtiyatı olub. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 39,9 milyon manat məbləğində digər məhsullar da olub.

Qeyd edək ki, bu ilin yanvar ayında Azərbaycanda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 4,7 milyard manatlıq və ya 2025-ci ilin müvafiq ayı ilə müqayisədə 2,5 faiz çox sənaye məhsulu istehsal edilib, məhsul istehsalı neft-qaz sektorunda 1,4 faiz, qeyri-neft-qaz sektorunda isə 8,7 faiz artıb.

# bp Azərbaycanla əməkdaşlığa yüksək önəm verir

## *Şirkət Xəzərdə yeni layihələr həyata keçirir*



**“Azərbaycanda biznes və investorlar üçün çox əlverişli mühit formalaşıb. Prezident İlham Əliyev, Azərbaycan hökuməti, səlahiyyətli qurumlar, Dövlət Neft Şirkətinin nümayəndələri və tərəfdaşlarımız elə şərait yaradırlar ki, biznesimiz və investorlar özlərini maksimum təhlükəsiz hiss edirlər”. Bu barədə bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Covanni Kristofoli kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinqdə ətraflı məlumat verdi.**

Ölkəmizdə biznesin inkişaf etməsinə və layihələrin həyata keçirməsinə imkan verən investisiya mühitinin yaradıldığını bildirən regional prezidentin sözlərinə görə, bu amil iqtisadiyyatın gələcək inkişafına və artımına töhfə verir. bp-nin Azərbaycandakı biznesinə rəhbərlik etməkdən məmnunluğunu vurğulayan C.Kristofoli dedi ki, təmsil etdiyi şirkətin ölkə qarşısında əsas vəzifəsi “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokundan hasil olunan neftin həcmini maksimum dərəcədə artırmaq və eyni zamanda, daha çox neft çıxarıldıqca platformaların məhsuldarlığının təbii azalmasını idarə etməkdir: “AÇG dünyanın ən böyük və ən mühüm yataqlardan biridir. Bu yatağın bizim tərəfimizdən idarəolunma səviyyəsi sahə üzrə ən yaxşı göstəricilər sırasına daxildir”.

bp-nin qlobal strategiyasının neft və qaz hasilatının artırılmasına yönəldiyini bildirən regional prezident Azərbaycanın bu baxımdan şirkətin strateji planlarına tam uyğun gələn mühüm istiqamət kimi nəzərdən keçirildiyini diqqətə çatdırdı: “Biz neft-qaz sahəsində yüksəlmək istəyirik və Azərbaycan bu baxımdan həmin strategiyanın həyata keçirilməsini çox yaxşı dəstəkləyə bilər. Xəzər dənizi bir region kimi bp-nin strategiyasına tam uyğundur. Ona görə də biz çox istəyərdik ki, bundan sonra da ölkə rəhbərliyi və Azərbaycan Dövlət Neft Şirkəti ilə işləyək, yeni imkanları birlikdə müzakirə edib onlara qoşulaq”.

AÇG layihəsi çərçivəsində hasilat platformalarından qazılan quyuların sayının artırıldığını diqqətə çatdıran C.Kristofolinin sözlərinə görə, ARDNŞ və qazma üzrə podratçılarla tərəfdaşlıq sayəsində eyni avadanlıq və xərclərdən istifadə edilməklə qazma əməliyyatları 30 faizdən artıq çoxaldılıb ki, bu da əsl səmərəlilik sayıla bilər. O, həmçinin bildirdi ki, təzyiqi qoruyub saxlamaq lazımdır ki, neft səthə maneəsiz çıxsın. Bunun üçün isə rezervuarın davamlı fəallığının təmin olunması məqsədilə lazımi sahələrə su və qaz vurulur. Bununla yanaşı, şirkət hazırda müasir texnologiyalar, yüksək dəqiqlikli dənizdibi sensorlar vasitəsilə seysmik çəkilişlər aparır.

Diqqətə çatdırıldı ki, bp şirkəti bu ilin avqust ayında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” yataqlar blokundakı “Mərkəzi Azəri” platformasının fəaliyyətini profilaktik işlər aparmaq məqsədilə qismən dayandırmağı planlaşdırır. 11 gün platformanın yalnız qaz qurğularının fəaliyyəti dayandırılacaq ki, bu da neft hasilatını davam etdirməyə mane olmayacaq.

bp-nin regional prezidenti bu il AÇG sərbəst qazın işlənməsi layihəsi çərçivəsində ilk hasilata başlanılacağını diqqətə çatdırdı: “Məni xüsusilə sevindirən məqam odur ki, ilin birinci yarısında, təxminən, yay aylarına doğru, biz “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun daha dərin hissəsindən qazılan quyunu istismara verəcəyik. Bu, rezervuarın yeni hissəsini öyrənməyə imkan yaradacaq və həmin hissə böyük həcmdə qaz verə bilər ki, bu da hasilat göstəricilərimizi əhəmiyyətli dərəcədə artıracaq”. Onun sözlərinə görə, qeyd olunan göstərici AÇG-də iri qaz ehtiyatlarına çıxışı təmin edəcək.

Yeri gəlmişkən, AÇG yatağındakı sərbəst təbii qaz ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı ilə bağlı işləri irəlilətmək məqsədilə 2024-cü il sentyabrın 20-də mövcud hasilatın pay bölgüsü sazişinə yeni bir əlavə imzalanıb. Həmin sazişə sərbəst təbii qaz ehtiyatları ilə bağlı yeni əlavənin imzalanmasından sonra planlaşdırılmış ilkin hasilat quyusu “Qərbi Çıraq” platformasından təhlükəsiz şəkildə qazılıb. Qiymətləndirmə baxımından xüsusi əhəmiyyət daşıyan həmin quyudan əldə olunan məlumatlar AÇG-dəki sərbəst təbii qaz ehtiyatlarının işlənməsi üçün gələcək planların hazırlanmasına kömək edəcək. Ümumilikdə isə, buradan çıxarıla bilən sərbəst təbii qaz ehtiyatlarının 4 trilyon kub futadək olduğu proqnozlaşdırılır.

Brifinqdə bp və tərəfdaşlarının Azərbaycanda həyata keçirdikləri “Şahdəniz” qaz hasilatı və ixracı layihəsi ilə bağlı da ən son məlumatlar çatdırıldı. Qeyd olundu ki, hazırda “Şahdəniz” layihəsi üzrə işlərin etibarlılıq göstəriciləri 100 faiz səviyyəsində qalır ki, bu da dünyanın neft-qaz sənayesində nadir hallarda rast gəlinən nəticədir. Layihə üzrə fəaliyyətlərin uğurla davam etdirildiyini bildirən regional prezident qeyd etdi ki, ilk növbədə, qazma işlərinə xüsusi diqqət yetirilir. Onun sözlərinə görə, bu il layihə çərçivəsində, təxminən, 6 yeni quyunun qazılması planlaşdırılır. Bununla yanaşı, “Şahdəniz Kompressiya” adlı yeni obyektin tikintisinin uğurla davam etdirildiyini bildirən şirkət rəhbəri dedi ki, həmin obyekt rezervuara olan təzyiqi azaltmağa kömək edəcək və daha çox qazın hasil olunmasına şərait yaradacaq.

Şirkət rəsmisi onu da bildirdi ki, hazırda “Şahdəniz” layihəsi çərçivəsində payın və gəlirlərin idarə edilməsi ABŞ və Avropa İttifaqı tərəfindən bəlli ölkələrə tətbiq olunan sanksiyalara ciddi riayət olunmaqla həyata keçirilir ki, bu da fəaliyyətin heç bir pozuntulara yol vermədən davam etdirilməsinə imkan verir. Onun sözlərinə görə, bu yanaşma ARDNŞ, Azərbaycan hökuməti, eləcə də Avropa İttifaqı və ABŞ ilə razılaşdırıldığından “Şahdəniz” yatağında fəaliyyət tamamilə mövcud beynəlxalq qaydalar çərçivəsində davam edir.

Covanni Kristofoli daha sonra qeyd etdi ki, bp şirkəti hazırda Azərbaycanda müxtəlif istiqamətlərdə yeni qaz mənbələrinin müəyyən edilməsi üzərində işləyir. Bu məqsədlə Xəzərin Azərbaycan sektorunda uğurlu seysmik tədqiqatlar aparılır ki, həmin işlər də dənizin hansı hissələrində yeni potensial qaz ehtiyatlarının olduğunu tapmağa imkan verəcək. Xəzər dənizində aparılan geoloji kəşfiyyat işləri çərçivəsində isə “Şəfəq-Asiman” bloku üzrə həyata keçirilən tədbirlərin xüsusi əhəmiyyət daşıdığı diqqətə çatdırıldı. Eyni zamanda, Azərbaycan və ARDNŞ ilə yeni layihələrə qoşulmaq üçün işlər davam edir.

Regional prezident bp və tərəfdaşlarının Azərbaycanda yenicə qoşulduğu “Qarabağ” və “Əşrəfi–Dan ulduzu–Aypara” layihəsi, eləcə də ölkəmizdə həyata keçirilən sosial sərmayə proqramı çərçivəsində həyata keçirilən tədbirlərdən də geniş bəhs etdi.

Sonda media nümayəndələrinin çoxsaylı sualları cavablandırıldı.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Yaxın Şərqdən baş qaldıran ekoloji kabus

## *Bölgədə hərbi əməliyyatların yaratdığı geniş çirklənmə dalğası Azərbaycana çata bilərmi?*



**Fevralın 28-dən etibarən İran ərazisində davam edən hərbi əməliyyatların təkcə hərbi və siyasi deyil, həm də ciddi ekoloji nəticələr doğura biləcəyi ilə bağlı narahatlıqlar getdikcə artır. Xüsusilə neft emalı zavodları və yanacaq anbarlarının hədəfə alınması nəticəsində atmosferə daxil olan qara tüstü buludları regionun bir sıra ölkələri üçün potensial ekoloji təhlükə yaradır. Ekoloqların fikrincə, bu çirklənmə hava axınlarının istiqamətindən asılı olaraq qonşu dövlətlərə yayıla və hətta Şimali Qafqaz regionuna qədər çata bilər. Belə bir vəziyyət isə Azərbaycan üçün də ekoloji təhlükə ehtimalını gündəmə gətirir.**

### Raketlər səmanın bağrını yarır

Tarix boyu müharibələr insan itkilərinə səbəb olmaqla və infrastruktura ziyan vurmaqla yanaşı, həm də uzunmüddətli ekoloji fəsadlarla yadda qalıb. Enerji infrastrukturu, xüsusilə neft emalı zavodları, neft anbarları və yanacaq bazaları müasir münaqişələrdə ən həssas obyektlərdən hesab edilib. Belə obyektlərə endirilən zərbələr hər zaman böyük miqdarda karbohidrogenlərin yanmasına və atmosferə zəhərli qazların buraxılmasına səbəb olub. Ekoloqlar qeyd edirlər ki, savaş dönəmlərində neft məhsullarının yanması nəticəsində atmoferə daha çox müəyyən maddələr – karbonmonoksid və karbon qazı, kükürd dioksid, benzol və digər aromatik karbohidrogenlər, eləcə də ağır metal tərkibli hissəciklər yayılıb.

Bu maddələrdən ibarət qara tüstü buludu böyük məsafələr qət edə bilən aerozol qatları formalaşdırır. Belə hallarda atmosferdə yaranan çirklənmə yalnız zərbə endirilən ölkə ilə məhdudlaşmır. Bu cür genişmiqyaslı yanğınlar nəticəsində əmələ gələn tüstü kütlələri bəzən min kilometrlərlə məsafəyə yayılaraq regional ekoloji böhran yaradır.

Atmosfer axınları ilə çirklənmənin yayılması təhlükəsi barədə söhbət açan ekoloq Aydın Nəcəfov bunun bir neçə əsas amildən – küləyin istiqaməti və sürəti, temperatur, hava təzyiqi fərqləri, relyef xüsusiyyətləri, eləcə də atmosferin sabitlik səviyyəsi ilə asılı olduğunu vurğulayır. O, eyni zamanda, Cənubi Qafqaz regionunda hava axınlarının mühüm hissəsinin cənub və cənub-qərb istiqamətlərindən şimala doğru hərəkət etdiyini, bunun isə nəzəri olaraq İranda yaranan tüstü və toz buludlarının müəyyən şəraitdə Azərbaycanın üzərinə doğru yönələ bilməsi ehtimalının artırdığını da bildirir.

A.Nəcəfovun fikrincə, əgər genişmiqyaslı yanğınlar uzun müddət davam edərsə, bu zaman tüstü hissəcikləri yüksək atmosfer qatlarına qalxa və orada günlərlə, hətta həftələrlə qala bilir. Belə hallarda çirklənmə tədricən geniş ərazilərə yayılır. Məhz bu səbəbdən bəzi ekoloji monitorinq qurumları tərəfindən tüstü buludlarının güclü təsiri nəzərə alınaraq çirklənmənin, hətta Şimali Qafqaz regionunu əhatə edəcəyi istisna olunmur.

### Partlayış və yanğınların qara buludları regionu təhdid edir

**Ekoloq Həsən Hüseynov** vurğulayır ki, neft məhsullarının yanması nəticəsində yaranan ən təhlükəli maddələrdən biri karbohidrogen tərkibli toz dumanıdır. Əsasən mikroskopik hissəciklərdən ibarət olan həmin toz dumanı insanın tənəffüs sistemi üçün ciddi təhlükə yaradır. Belə kiçik hissəciklər daha çox bronxit və astma, ağciyər xəstəlikləri, ürək-damar problemlərini ağırlaşdırır, uzunmüddətli təsirdə isə onkoloji riskləri artırır, eyni zamanda, ağciyərlərə daxil olaraq qana keçir. Bu səbəbdən həkimlər tərəfindən belə hallarda hava keyfiyyətinin ciddi monitorinqinin aparılması vacibliyi vurğulanır. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən isə atmosfer çirklənməsinin xüsusilə uşaqlar, yaşlı insanlar və xroniki xəstəlikləri olan şəxslər üçün daha təhlükəli olduğu bildirilir.

H.Hüseynovun sözlərinə görə, İran Yaxın Şərqin və Cənubi Qafqazın ən böyük enerji istehsalçılarından biridir. Ölkədə çoxsaylı neft emalı zavodları və neft-kimya müəssisələri fəaliyyət göstərir. Bu obyektlərdən bir neçəsinin zədələnməsi atmosferə böyük həcmdə çirkləndirici maddələrin buraxılmasına gətirib çıxarır. Ekoloji domino effekti isə bir neçə mərhələdə baş verir. Bu isə, ilk növbədə, neft məhsullarının yanması, tüstü buludlarının yaranması, atmosfer axınları ilə regiona yayılması, turşulu yağışların əmələ gəlməsi, habelə, torpaq və su ehtiyatlarının çirklənməsində özünü göstərir. Belə bir proses uzun müddət davam edərsə, onun təsiri yalnız havanın keyfiyyəti ilə məhdudlaşmır, eyni zamanda, bitki örtüyü, kənd təsərrüfatı məhsulları və su mənbələri də risk altına düşür.

Ekoloq mövcud təhlükənin Azərbaycana təsiri ilə bağlı bildirir ki, son illər ölkədə ekoloji monitorinq sisteminin gücləndirilməsi istiqamətində müəyyən addımlar atılıb. Atmosfer havasının keyfiyyətinin müxtəlif bölgələrdə yerləşdirilən monitorinq stansiyaları vasitəsilə ölçülməsinə başlanılıb. Bu stansiyalar vasitəsilə zərərli qazların və hissəciklərin səviyyəsinin real vaxt rejimində izlənilməsinə imkan yaradılıb. Xüsusilə paytaxt Bakıda və sənaye zonalarında hava keyfiyyətinə nəzarət gücləndirilib. Monitorinq sistemləri ilə potensial transsərhəd çirklənmə hallarında operativ məlumatın əldə edilməsinə də əlverişli imkan yaradılıb.

H.Hüseynov hesab edir ki, bu gün regionda baş verən hərbi qarşıdırmalar fonunda atmosfer monitorinqinin genişləndirilməsi, peyk müşahidələrinin artırılması, meteoroloji modellərin tətbiq olunması, səhiyyə sisteminin mümkün risklərə hazırlanması və Xəzər hövzəsi üçün mümkün risklərin qarşısının alınması kimi tədbirlər daim diqqət mərkəzində saxlanılır. Lakin bu məqamda unudulmamalıdır ki, bir sıra hallarda ekoloji təhlükə yalnız atmosferlə məhdudlaşmır. Belə ki, əgər hərbi əməliyyatlar nəticəsində neft infrastrukturu ciddi zədələnərsə, bu zaman su hövzələrinin çirklənməsi riski də müşahidə oluna bilər.

Regionun əsas ekoloji sistemlərindən biri olan Xəzər dənizi üçün belə ssenari daha çox narahatlıq doğurur. Çünki Xəzər hövzəsi qapalı su sistemi olduğundan burada baş verən çirklənmələrin uzun müddət mövcudluğunu saxlaması mümkündür. Neft mənşəli maddələrin suya qarışması isə balıq ehtiyatlarına və biomüxtəlifliyə ciddi zərər verir. Bu səbəbdən region ölkələri üçün ekoloji təhlükəsizlik məsələləri milli xarakter daşımaqla yanaşı, həm də regional əməkdaşlığı zəruri edən bir sahəyə çevrilir.

### Transsərhəd zəhərlənmə bəşəri cinayətdir

Atmosfer çirklənməsinin sərhəd tanımaması beynəlxalq ekoloji hüquqda mühüm məsələdir. Çünki bir ölkədə yaranan sənaye və ya hərbi mənşəli çirklənmə digər dövlətlərə də təsir göstərə bilir. Bu səbəbdən bir çox beynəlxalq konvensiyalar dövlətlərin ekoloji məsuliyyətini nəzərdə tutur. Müasir ekoloji diplomatiyada “transsərhəd çirklənmə” anlayışı geniş şəkildə tətbiq olunur. Belə hallarda hər hansı ölkənin fəaliyyətinin digər dövlətlərin ekoloji təhlükəsizliyinə zərər verməməsi əsas prinsiplərdən biridir. Mütəxəssislər hesab edirlər ki, mövcud vəziyyətin hələlik potensial risk mərhələsində qiymətləndirilməsi zəruridir. Çünki çirklənmənin real miqyası zərər görmüş obyektlərin sayı, yanğınların davametmə müddəti, atmosferin dövr etməsi (sirkulyasiyası) və yağıntı səviyyəsi kimi amillərdən asılıdır. Əgər yanğınlar qısa müddətdə söndürülürsə, ekoloji təsirin miqyası məhdud qala bilir. Lakin uzunmüddətli yanğınlar atmosferdə böyük miqdarda tüstü və aerozolun toplanması ilə nəticələnir.

Bu baxımdan erkən xəbərdarlıq sistemləri mühüm rol oynayır. Müasir dünyada ekoloji təhlükəsizlik getdikcə milli təhlükəsizlik anlayışının ayrılmaz hissəsinə çevrilir. Sənaye qəzaları, hərbi əməliyyatlar və iqlim dəyişiklikləri regional ekoloji təhlükə ehtimalını artırır. Enerji infrastrukturu üzərində baş verən hərbi zərbələr isə xüsusilə təhlükəli hesab olunur. Ona görə ki, bu obyektlər alovlanmaqla böyük miqdarda zəhərli maddələr ehtiva edir. Ekspertlərin fikrincə, region ölkələri belə vəziyyətlərdə bir sıra istiqamətlər üzrə əməkdaşlığı gücləndirməlidir. Məsələn, ekoloji məlumat mübadiləsi, regional monitorinq şəbəkəsi, fövqəladə vəziyyətlərə hazırlıq, ətraf mühitin qorunması kimi ortaq strategiyaların icrası diqqətdə saxlanılmalıdır.

Beləliklə, İranda davam edən hərbi əməliyyatların ekoloji təsirləri region üçün yeni təhlükələr yaradır. Neft emalı zavodları və yanacaq anbarlarının zədələnməsi ilə yaranan tüstü buludlarının atmosfer axınları vasitəsilə geniş ərazilərə yayılmaq təhlükəsi ciddi narahatlıq doğurur. Bu prosesin real təsir miqyası hələ tam aydın olmasa da, ekoloqlar tərəfindən mümkün risklərin diqqətlə izlənilməsinin vacibliyi vurğulanır. Çünki atmosfer çirklənməsi, karbohidrogen tərkibli toz dumanı və transsərhəd ekoloji təsirlər region ölkələri üçün ciddi çağırışdır.

Belə şəraitdə ekoloji monitorinq sistemlərinin gücləndirilməsi, regional əməkdaşlığın genişləndirilməsi və əhalinin sağlamlığının qorunması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi xüsusi önəm kəsb edir. Çünki müasir dövrdə müharibələrin görünməyən, lakin uzunmüddətli təsirə malik ən təhlükəli nəticələrindən biri məhz ekoloji fəlakətlərdir. Bu isə ekoloji təhlükəsizlik məsələlərinə daha həssas yanaşılmasını zəruri edir.

*Vaqif BAYRAMOV*
*XQ*

### *Ekspert rəyi*



**Cavid HÜSEYNOV,**
**iqlim eksperti**

ABŞ, İsrail və İran arasında gərginliyin hərbi qarşıdurmaya çevrilməsi siyasi və humanitar problemlərlə yanaşı, ekosistemlərin dağılması, təbii resursların tükənmək təhlükəsi ilə üz-üzə qalması və uzunmüddətli ekoloji çətinliklərin yaranması ilə də müşahidə edilir. Başqa sözlə, bu münaqişə ilə, eyni zamanda, regionun ekoloji sisteminə 3 əsas istiqamətdə – hava çirklənməsi, dəniz ekosistemlərinin zədələnməsi və canlı aləmə (fauna və flora) təsir göstərilir.

Müasir raket və bombaların partlayışı nəticəsində atmosferə böyük həcmdə zəhərli qazlar, ağır metallar və partlayıcı qalıqları buraxılır. Hərbi partlayışlar zamanı metallar və kimyəvi maddələr havaya yayılır, bu isə həm insan sağlamlığı, həm də ekosistem üçün təhlükə ilə nəticələnir. Raketlərin yanacağında və partlayıcı maddələrində tez-tez istifadə olunan kimyəvi komponentlər isə atmosferdə uzun müddət qala bilir. Belə halda şəhərlərdə hava keyfiyyətinin kəskin pisləşməsi, turşulu yağışların yaranma riskinin artması, eləcə də torpaq və su hövzələrinin kimyəvi çirklənməsi müşahidə edilir.

Son günlər İranda müşahidə olunan hava çirkliliyi həm təbii (toz fırtınaları), həm də texnogen (sənaye və hərbi gərginlik fonunda yaranan tüstü) amillərlə bağlıdır. Narahatlıq doğuran belə hava çirkliliyinin və toz hadisələrinin Azərbaycana keçməsi elmi baxımdan mümkündür, lakin bu, hər dəfə baş vermir və daha çox küləklərin istiqaməti və meteoroloji şəraitdən asılıdır.

Martın 7-8-də İranda (Tehran və digər şəhərlər) baş verən partlayışlar və neft anbarlarındakı yanğınlar nəticəsində atmosferə çox miqdarda toksik maddə (kükürd və azot oksidləri) atılıb. Bu cür toz və tüstü kütlələrinin ölkəmizə çatması üçün çox güclü cənub küləklərinin əsməsi tələb olunur ki, indiki proqnozlar bunu göstərmir.

Hazırda Azərbaycan ərazisində əsasən qərb və şimal-qərb küləkləri üstünlük təşkil edir. Bu, o deməkdir ki, İranda (xüsusilə cənub və mərkəzi hissələrdə) yaranan tozlu hava kütlələri adətən cənub-şərq istiqamətinə, yəni bizdən uzağa doğru hərəkət edir. Azərbaycanın rəsmi qurumları mütəmadi olaraq havanın keyfiyyətini monitorinq edir. Son məlumata görə, Bakı və Abşeron yarımadasında, eləcə də digər bölgələrdə hava keyfiyyəti norma daxilindədir. Sərhədyanı bölgələrdə, xüsusilə Naxçıvanda hərbi gərginliklə bağlı lokal tozlanma olsa da, bu, ümumi ekoloji fəlakət səviyyəsində deyil.

Beləliklə, hərbi əməliyyatlar təkcə şəhərləri deyil, eyni zamanda, təbiəti də məhv edir. Raket zərbələri və artilleriya atəşləri meşələrdə və otlaq sahələrində yanğınlara səbəb olur. Bu isə ekosistemlərin məhv olmasına gətirib çıxarır. Müharibənin fauna və flora üzərində əsas təsirləri isə meşə və bitki örtüyünün məhv olması, heyvanların yaşayış mühitinin dağıdılması, miqrasiya yollarının dəyişməsi və kütləvi heyvan ölümləridir.

*Biz deməsək…*

# Gəl-gəl deyən "qazanclar", ver-ver deyən ödənclər

## *Gizli qumara çevrilmiş kredit oyunları*




**Müasir dövrdə banklar həyatımızın ayrılmaz hissəsi olsa da, çox vaxt onların təklif etdiyi xidmətlərin arxasında müştəriyə sərf etməyən maraqlar dayanır. Bir çoxumuz bank xidmətlərindən yararlanarkən özümüzü qazanclı hiss etdiyimizi düşünürük, lakin bəzi hallarda gizli tələlərlə qarşılaşırıq.**

Hər şey reklam lövhələrindəki iri hərflərlə yazılmış "sıfır faiz" və ya "komissiyasız" kimi cəlbedici şüarlarla başlayır. Belə vədlər qarşısında insan qeyri-ixtiyari olaraq ehtiyatı kənara qoyur, rəqəmlərin arxasındakı gizli borc yükünü görmür. Çox vaxt komissiyasız təqdim olunan kreditin arxasında məcburi sığorta haqları və ya xidmət ödənişləri də gizlənir. Müqavilənin imzalanma mərhələsində bəlli olur ki, həmin cəlbedici rəqəmlər ya sərfəli deyil, ya da onların üzərinə müxtəlif sığorta və xidmət haqları əlavə edilir. Nəticədə, vətəndaşın ödədiyi real məbləğ elan ediləndən qat-qat yuxarı olur.

Bu, maliyyə dünyasının ən işlək qazanc üsuludur: görünən komissiya xərclərini ləğv etməklə müştəridə məmnuniyyət yaradır, əsl mənfəət isə gizli şərtlərin arxasında reallaşdırılır. Banklar "komissiyasız kredit" vədi verdikdə, adətən, itirdiklərini faiz dərəcələrinə daxil etməklə qazanırlar. Təbii ki, maliyyə qurumlarının müəyyən qədər mənfəət məqsədi başadüşüləndir, lakin şərtlərin şəffaf təqdim edilməməsi bəzən məlumatsızlıq ucbatından istehlakçıların əlavə xərcə düşmələrinə yol açır.

Digər problem isə sığorta məsələsidir. Kredit götürən hər kəsə məcburi şəkildə sığorta "sırımaq" artıq ənənəyə çevrilib. Prinsip etibarilə könüllü olması nəzərdə tutulan bu xidmət elə formada təqdim edilir ki, müştəridə sığortasız kredit almağın qeyri-mümkünlüyü barədə yanlış təsəvvür yaranır. Ən pisi isə odur ki, sığorta haqqı əvvəlcədən kredit məbləğindən tutulur və müştəri almadığı pula görə də illərlə banka faiz ödəyir. Bu, sanki mağazadan bir kiloqram meyvə alıb, tərəzidəki qabın çəkisinə görə də pul ödəməyə bənzəyir. Eyni yanaşma əmanətlər zamanı da müşahidə olunur; banklar yüksək dividend vəd edərkən inflyasiya faktorunu arxa plana keçirirlər. Sonda qazanılan faiz gəliri, qiymət artımı qarşısında pulların dəyər itirməsinin yanında sadəcə bir "təsəlli mükafatı" kimi qalır.

Kredit kartları isə bankların ən təhlükəli oyunudur. "İndi al, sonra ödə" şüarı ilə təklif edilən bu kartlar insanları bitib-tükənməyən borc bataqlığına çəkir. Bu sistem istehlakçının ən zəif nöqtəsinə – dərhal sahib olmaq arzusuna xitab edən "maliyyə hipnozu"dur. Siz malı mağazadan pulsuz çıxardığınızı düşünürsünüz, amma əslində gələcək əməyinizi banka girov qoymuş olursunuz.

Bank sektorunda müştəri qazanmaq üçün saysız–hesabsız hiylələrindən biri də "Cashback" siyasətidir. Son illərin ən populyar trendinə çevrilən bu marketinq hiyləsi, xərclənən məbləğin cüzi bir hissəsini geri qaytarmaqla istehlakçıda "xərclədikcə qazanmaq" illüziyası yaradır. Bu psixoloji manevr müştərini qənaət etdiyinə inandırsa da, əslində, onu daha çox xərcləməyə sövq edir. Sonda isə qazanan tərəf bonusla sevinən müştəri deyil, milyonlarla insanın cibini idarə edən bank olur.

Kartdakı borcun yalnız "minimum ödəniş" hissəsini köçürməklə hər şeyin qaydasında olduğunu düşünənlər, əslində, ən böyük maliyyə xətasına yol verirlər. Banklar bu seçimi müştəriyə "çətin gündə dəstək" kimi təqdim etsələr də, riyazi reallıq tam başqadır: bu, borcun "əbədiləşdirilməsidir". Minimal məbləği ödəməklə müştəri əsas borcu deyil, yalnız yığılmış faizləri bağlayır. Beləliklə, istehlakçı özünü borcunu ödəyən məsuliyyətli vətəndaş hesab etdiyi halda, bank üçün o, gəlir mənbəyinə çevrilir. Üstəlik, müqavilələrin kiçik şriftlərlə yazılmış hissələrindəki "birtərəfli qaydada şərtləri dəyişmək" bəndi və ya bir günlük gecikməyə görə tətbiq edilən astronomik cərimələr bu görünməz zənciri daha da möhkəmləndirir. Bəs necə edək ki, bu labirintə düşməyək?

**Məsələyə aydınlıq gətirən bank-maliyyə eksperti, hüquqşünas Əkrəm Həsənov bildirdi ki, bankların sığorta tələbi qanunvericiliyə uyğun olsa da, vətəndaşın konkret sığorta şirkətinə yönləndirilməsi və ya bu xidmətin bank daxilində məcburi qaydada satılması birbaşa qanun pozuntusu hesab edilir:**

–İlk növbədə, qeyd edim ki, Azərbaycanda bütün daşınmaz əmlaklar (istər yaşayış, istərsə də qeyri-yaşayış sahələri) fəlakətlərdən və digər risklərdən icbari qaydada sığortalanmalıdır. Bu tələb bank-



dan kredit götürülüb-götürülməməsindən asılı olmayaraq hər kəsə şamil edilir. Lakin məlumdur ki, əhalinin böyük əksəriyyəti bu qanuni tələbi yerinə yetirmir. Bu hal kütləvi xarakter daşıdığı üçün dövlət tərəfindən, hələ ki, ciddi sanksiyalar tətbiq olunmur.

Vətəndaş əmlakını girov qoymaq üçün banka müraciət etdikdə, bank ondan qanuna uyğun olaraq icbari sığorta istəyir. Bu, bankın şəxsi tələbi deyil, qanunvericilikdən irəli gəlir. Həyat və əmək qabiliyyətinin sığortasına gəldikdə isə bu, yalnız İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilən kreditlərdə məcburidir. Bu tələb bankların daxili qərarı deyil, birbaşa dövlət başçısı tərəfindən təsdiq edilmiş qaydalara əsasən icra olunur. Yəni müvafiq kreditin ayrılması üçün həyat və əmək qabiliyyətinin sığortalanması qaçılmazdır.

Burada əsas problem sığortanın tələb edilməsi deyil, bankların vətəndaşa sığorta şirkətini seçmək üçün təzyiq göstərməsidir. Vətəndaşa hansı sığortaçı ilə əməkdaşlıq etməli olduğu barədə göstəriş verilməsi birbaşa qanun pozuntusudur. Təəssüf ki, yerli bank təcrübəsində belə hallar tez-tez müşahidə olunur və bu, hüquqi baxımdan yolverilməzdir. Hətta bəzi banklarda sığorta şirkətləri nümayəndələrinin yerindəcə xidmət təklif etməsi hallarına da rast gəlinir.

**Müsahibimiz bank müqavilələrinin həddindən artıq mürəkkəb dildə və olduqca xırda şriftlərlə tərtib olunması məsələsinə də toxunaraq, bunun istehlakçı hüquqlarının müdafiəsini çətinləşdirdiyini vurğuladı. O, bu cür tərtibatın vətəndaşların öz öhdəliklərini tam anlamasına mane olduğunu və banklar qarşısında onları müdafiəsiz qoyduğunu söylədi:**

– Bank müqavilələrinin istehlakçılar üçün anlaşılan olmaması, həddindən artıq mürəkkəb dildə və xırda şriftlərlə tərtib edilməsi ən aktual problemlərdəndir. Ümumiyyətlə, 2023-cü ilin oktyabr ayından etibarən Azərbaycanda istehlak kreditlərini tənzimləyən Mülki Məcəlləyə yeni maddələr əlavə olunub. Qeyd edim ki, bu hüquqi dəyişikliklərin müəllifləri mən və almaniyalı professor Peter Krebsdir. Biz bu layihəni 2014-cü ildə hazırlasaq da, ölkəmizdə doqquz ildən sonra qəbul edildi.

Qanunvericilikdə bir sıra mühüm müddəalar öz əksini tapıb: artıq bankların müqavilələrə istənilən şərtləri subyektiv şəkildə daxil etmək ixtiyarı yoxdur, çünki qanun bu prosesi birbaşa tənzimləyir. Müqavilələrdəki xırda şriftlər məsələsinə gəldikdə isə, hazırladığımız ilkin layihədə şrift ölçüsünün 12-dən kiçik olmaması tələbi qoyulmuşdu. Təəssüf ki, bir çox xarici ölkələrdə tətbiq olunmasına baxmayaraq, bu bənd qanun layihəsinin yekun variantından çıxarıldı.

Kredit müqavilələrindən fərqli olaraq, bank əmanəti və bank hesabı müqavilələri ilə bağlı qanunvericilikdə o qədər də çox tələblər yoxdur. Lakin Mülki Məcəllədə müqavilənin "standart şərtləri" adlı xüsusi bölmə mövcuddur. Həmin bölmənin müddəalarına əsasən, bankın və ya hər hansı sahibkarın vətəndaşla bağladığı standart müqavilədə istehlakçının maraqlarına zidd bütün şərtlər hüquqi baxımdan etibarsız sayılır.

Ümumiyyətlə, heç bir ölkədə vətəndaşın sahibkar tərəfindən təqdim olunan müqavilə şərtlərini tam dərk etməsi gözlənilmir. Çünki vətəndaş maliyyə, hüquq və ya kommersiya sahələri üzrə mütəxəssis deyil və bu şərtlər ona tam aydın olmaya bilər. Hətta ali təhsilli şəxslər belə çox vaxt bu mürəkkəb sənədləri anlamaqda çətinlik çəkirlər. Bu, bütün dünyada belədir; əksər hallarda vətəndaşlar həmin müqavilələri oxumurlar. Məhz bu səbəbdən qanunvericilik vətəndaşların maraqlarını müdafiə edir, lakin təəssüf ki, insanların çoxu bu hüquqlarından xəbərsizdirlər.

Bəzən banklar iddia edir ki, vətəndaş şərtlərlə razı deyildisə, müqaviləyə imza atmamalı idi. Lakin qanunvericilik bu məsələdə istehlakçının tərəfindədir: əgər müqaviləyə vətəndaşın maraqlarına zidd olan, birtərəfli qaydada yalnız bankın mənafeyini qoruyan hər hansı müddəa daxil edilibsə, məhkəmə həmin bəndi etibarsız saya bilər.

Söhbət vətəndaşın dərhal fərqinə varmadığı, onun ziyanına olan bəndlərdən gedir. Məsələn, kredit ödənişi gecikdirildiyi halda tətbiq edilən qeyri-proporsional sanksiyalar və ya bankın vətəndaşın icazəsi olmadan onun kredit məlumatlarını üçüncü şəxslərə ötürmək hüququnu özündə saxlaması kimi şərtləri nümunə göstərmək olar. Bu cür müddəalar vətəndaşın mənafeyinə zidd olduğu üçün hüquqi qüvvəsini itirmiş hesab edilə bilər.

**İqtisadçı-ekspert Eldəniz Əmirov isə bildirdi ki, kredit məbləğindən sığorta haqqının öncədən tutulması müştəri üçün əlavə yük yaradır:**

–Bu təcrübə dünyanın bir çox ölkələri ilə yanaşı, bizdə də tətbiq olunur. Burada ədalətsiz və doğru olmayan məqam görünsə də, hüquqi və maliyyə texnikası baxımından hardasa başadüşüləndir. Çünki kredit məbləği bilavasitə konkret şəkildə qeyd olunur, lakin sığorta haqqı isə kredit verilən andan tutulur. Sığorta haqlarının gecikdirilərək ödənilməsi düzgün hesab edilmir.



Faiz nominal məbləğ üzərindən hesablandıqdan sonra həmin məbləğin bir hissəsi sığortaya yönəldilirsə, müştəri faktiki olaraq əlinə almadığı vəsait üçün faiz ödəməli olur. Bu da onun üzərinə əlavə yük qoyur. Beynəlxalq təcrübədə, məsələn, Avropa İttifaqının istehlak kreditləri ilə bağlı yeni qaydalarında bu məsələlər daha şəffafdır. Orada kreditin ümumi dəyərinin hesablanmasına sığorta haqları kimi əlavə xidmətlərin daxil edilməsi xüsusi vurğulanır.

Ölkəmizdə isə bankların istehlak kreditlərinə yanaşması standart deyil və müəssisədən müəssisəyə fərqliliklər mövcuddur. Dünya Bankının bununla bağlı tövsiyə sənədində bütün xərclərin ümumi deyil, ayrı-ayrılıqda və detallı şəkildə müştəriyə təqdim edilməsi zərurəti qeyd olunur ki, istehlakçı son qərarı özü verə bilsin. Yəni xidmət göstərən tərəf - bank öz şərtlərini, təbii ki, qanunvericiliyin tələblərini pozmadan qoya bilər. Amma əsas məsələ budur ki, burada hər hansı bir gizli manevrlər, manipulyasiyalar olmamalıdır. Bütün şərtlər öncədən aydın şəkildə müştəriyə təqdim olunmalıdır.

**Bankların "indi al, sonra ödə" marketinq siyasətinə də toxunan iqtisadçı söylədi ki, bu yanaşma birbaşa müştəri psixologiyasına hesablanmış şirnikləndirmədir:**

– Əslində, burada qanunvericiliyə zidd hər hansı məqam olduğunu düşünmürəm, çünki mahiyyət etibarilə bu, marketinq siyasətidir. Bank da xidmət, məhsul və ya pul satır, yəni burada yanlış, ədalətsiz və ya aldadıcı bir məqam yoxdur. Məsələ burasındadır ki, bu qərarları istehlakçı, yəni müştəri özü verir. Bu tip yanaşma tam normaldır və azad bazarın tələblərinə uyğun, qanuni davranış texnologiyasıdır. Sadəcə, istehlakçılar öz maliyyə imkanlarını düzgün təhlil etməli, banklar isə riskləri dəqiq qiymətləndirməlidir, əks halda, bu, ciddi problemlərə yol aça bilər.

Müştəri anlamalıdır ki, "indi al, sonra ödə" prinsipi yalnız qısamüddətli maliyyə çətinlikləri, qəfil xərclər və ya gəlirlərdə stabilliyin pozulduğu spesifik hallar üçün əlverişlidir. Belə situasiyalarda bu təkliflər faydalı olsa da, digər hallarda müştərini banklardan asılı vəziyyətə sala bilər. Ona görə də bütün hallarda tövsiyə edərdim ki, insanlar öz resurslarını doğru qiymətləndirsinlər, qısamüddətli komfort üçün uzunmüddətli borca düşməsinlər.

Ekspert rəyləri və mövcud bazar mənzərəsi bu həqiqəti ortaya qoyur: bankların təklif etdiyi xidmətlər hesab-kitab bilməyənlərə daha çox zərər verə bilər. Qanunlar bizi qorumağı nəzərdə tutsa da, insanın ən etibarlı köməkçisi ayıq-sayıqlığı və diqqətidir. Dar günə düşməmək üçün hər kəs ayağını yorğanına görə uzatmalı, lüzumsuz xərclərdən çəkinməlidir. Unutmayaq ki, banklar xeyriyyəçi deyil, hər təklifin arxasında öz qazancları dayanır. Onlar pul satıb, faiz qazanırlar. Odur ki, hər hansı sənədə imza atmazdan əvvəl gizli xərcləri, sığorta şərtlərini və mümkün cərimələri dərindən araşdıraq ki, sonradan borc bataqlığında boğulmayaq.

***Elenora HƏSƏNOVA***
***XQ***

*Yeni layihələr*

# Sosial xidmətlərdə şəffaflıq, əlçatanlıq və səmərəlilik



**Ötən ilin sonunda Sosial Xidmətlər Agentliyi və DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi yeni rəqəmsal həll olan Sosial Xidmət Xəritəsi hazırlanaraq istifadəyə verib. Şəffaflıq, əlçatanlıq və səmərəliliyin daha da artırılması məqsədi daşıyan bu layihə ölkə üzrə sosial xidmətləri vahid rəqəmsal platformada cəmləyir və onun coğrafi mənzərəsini interaktiv xəritədə əks etdirir.**

İstifadəçilər üçün xəritə üzərindən xidmət növləri üzrə axtarış aparmaq, yaşadıqları əraziyə yaxın sosial xidmət müəssisəsi, icra olunan sosial layihələr, eləcə də inklüziv və mədəni tədbirlər barədə ətraflı məlumat əldə etmək, həmçinin birbaşa müraciət imkanı yaradılıb. Elektron platforma, eyni zamanda, sosial xidmətlərə ehtiyacı olan həssas əhali qrupları üçün vaxt itkisinin və əlavə müraciət prosedurlarının minimuma endirilməsini təmin edəcək.

Sosial sahədə aparılan islahatların davamı olan Sosial Xidmət Xəritəsi vətəndaş mərkəzli yanaşmanın, rəqəmsallaşmanın və məlumat əsaslı idarəetmənin daha bir nümunəsidir. Sosial Xidmət Xəritəsi və Sosial işin idarə olunması elektron sistemi sosial xidmətlərin koordinasiyasını gücləndirir, qurumlar arasında məlumat mübadiləsini sürətləndirir və xidmətlərin daha operativ göstərilməsinə şərait yaradır. Növbəti mərhələdə xəritənin funksional imkanlarının genişləndirilməsi, yeni xidmət istiqamətlərinin əlavə edilməsi və aidiyyəti qurumlarla inteqrasiyanın genişləndirilməsi nəzərdə tutulub.

Bu barədə söz açan Sosial Xidmətlər Agentliyi İdarə Heyətinin sədri Vüqar Behbudov bildirdi ki, istər indiyədək həyata keçirdiyimiz tədbirlərdə, istərsə də qarşıdakı dövr üçün müəyyən etdiyimiz hədəflərdə əsas prioritet xüsusi qayğıya ehtiyacı olan vətəndaşların sosial xidmətlərlə vaxtında və fasiləsiz şəkildə təmin olunmasıdır. Xidmətlərin daha keyfiyyətli və hər kəs üçün əlçatan olması istiqamətində ardıcıl işlər aparırıq. Bu il də mənzil təminatının davam etdirilməsi, sosial xidmət mərkəzlərinin sayının artırılması, sosial sifariş əsasında icra olunan layihələrin əhatə dairəsinin genişləndirilməsi, eləcə də yeni tərəfdaşlıqların qurulması əsas hədəflər sırasındadır. Bu addımlar həssas əhali qruplarına aid vətəndaşların sosial rifahının yüksəldilməsinə, sosial adaptasiyasına və cəmiyyətə daha fəal inteqrasiyasına xidmət edir.

***

**Fəal məşğulluq proqramları işsiz və ya işaxtaran şəxslərin əmək bazarına inteqrasiyasını sürətləndirməyə yönəlmiş tədbirlər kompleksidir. Bu proqramlar peşə hazırlığı, özünüməşğulluq layihələri, subsidiyalı iş yerləri, ictimai işlər və sahibkarlığın təşviqi kimi istiqamətləri əhatə edir.**

olunanlar üçün ilk mərhələdə təlimlər təşkil olunaraq, onlara kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar öyrədilir. Təlimləri bitirənlər biznes planlarına uyğun aktivlərlə təmin edilirlər.

Xüsusilə işğaldan azad edilmiş ərazilərdə bu proqramların tətbiqi əhalinin iqtisadi aktivliyinin artırılmasına və yeni həyat şəraitinə uyğunlaşmasına mühüm töhfə verir. Həyata keçirilən proqramlar regionların iqtisadi potensialının reallaşdırılmasına, əhalinin rifahının yüksəlməsinə və dayanıqlı inkişafın təmin olunmasına xidmət edir. Uzunmüddətli perspektivdə bu tədbirlər azad edilmiş ərazilərin ölkənin iqtisadi həyatına tam inteqrasiyasını təmin edəcək. İşğaldan azad edilmiş ərazilərə köçürülən sakinlərdən artıq 8673 şəxsin məşğulluğu təmin olunub, 754 sakin üçün özünüməşğulluq proqramı üzrə kiçik bizneslər qurulub. 383 sakin isə işəgötürənlərlə birgə təşkil olunan peşə kurslarına cəlb edilib.

Azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması müvəqqəti məşğulluq imkanları da yaradır. Yol tikintisi, sosial obyektlərin qurulması, kommunal infrastrukturların bərpası kimi layihələrdə yerli əhalinin iştirakı təmin edilir. Bu proqramlar bir tərəfdən insanların gəlir əldə etməsinə, digər tərəfdən isə regionların inkişaf prosesinə əhalinin birbaşa cəlb olunmasına şərait yaradır.

Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı tikinti və bərpa işləri müxtəlif sahələr üzrə ixtisaslı kadr ehtiyacını artırır. Bu səbəbdən dövlət tərəfindən peşə hazırlığı və ixtisasartırma kursları təşkil edilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) arasında əməkdaşlıq çərçivəsində növbəti "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" peşəsi üzrə hazrlıq kursuna başlanıb. Kursa 40 nəfər işsiz şəxs cəlb edilib. Müdavimlər üçün ANAMA tərəfindən "Humanitar minatəmizləmə" və "Döyüş sahəsinin təmizlənməsi" istiqamətlərində xüsusi təlimlər təşkil olunur.

Təlimlər zamanı iştirakçılara mina təhlükəsi ilə bağlı davranış qaydaları, əməliyyat prosedurları və təhlükəsizlik standartları barədə ətraflı məlumat verilir. Müdavimlər texniki standartlar və təhlükəsizlik tələbləri, təhlükənin idarə



olunması, ilkin tibbi yardımın əsasları, zərərçəkmişlərin təxliyəsi, eləcə də istehsalat və əməliyyat mühitində texniki təhlükəsizlik qaydaları üzrə nəzəri və praktik biliklər əldə edirlər. Qeyd edək ki, ANAMA ilə Dövlət Məşğulluq Agentliyinin əməkdaşlığı çərçivəsində indiyədək təşkil olunmuş kurslara ümumilikdə 331 nəfər cəlb olunub.

Məşğulluq yalnız iqtisadi göstərici deyil, eyni zamanda, sosial sabitlik, rifah və regionların davamlı inkişafı üçün mühüm amildir. Bu baxımdan dövlət tərəfindən müxtəlif məşğulluq proqramları həyata keçirilir və əhalinin əmək bazarına inteqrasiyası üçün geniş imkanlar yaradılır.

Mühüm sosial-iqtisadi əhəmiyyətə malik olan özünüməşğulluq proqramının icrası uğurla davam edir. Dövlət Məşğulluq Agentliyi tərəfindən bu il artıq 700-dək şəxsə özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim olunub. Mal və materiallar formasında verilmiş aktivlər hesabına onlardan 545 şəxs kənd təsərrüfatı, digərləri istehsal və xidmət sahələri üzrə kiçik təsərrüfatlar qurub. Proqrama cəlb

Uzunmüddətli perspektivdə bu layihələr azad edilmiş ərazilərin ölkənin iqtisadi sisteminə tam inteqrasiyasını təmin edəcək və həmin regionların dayanıqlı inkişafına zəmin yaradacaq.

***Mustafa KAMAL***
***XQ***

*I Türkoloji Qurultay – 100*

**I Türkoloji Qurultay türk xalqlarının XX əsr elmi-mədəni tarixində nadir hadisələrdəndir. Bu məclis elmi mahiyyəti ilə milli taleyi, akademik məqsədlərilə mədəni məsuliyyəti eyni məkanda birləşdirə bilmişdir. Qurultay təkcə müəyyən zaman kəsiyində keçirilmiş elmi toplantı deyil, türk xalqlarının öz varlığını düşünmək, dərk etmək və gələcəyə daşımaq cəhdinin təşkilatlanmış forması idi. Onun əhəmiyyəti elmin milli yaddaşla, analizin tarixi məsuliyyətlə qovuşduğu nöqtədə meydana çıxır.**

# I Türkoloji Qurultay tarixin yaddaşında



Qurultayın keçirildiyi dövr türk xalqları üçün dərin ziddiyyətlər mərhələsi idi. Bir tərəfdən imperiyaların dağılması ilə yaranmış ümidlər, digər tərəfdən, yeni siyasi sistemlərin sərt ideoloji çərçivələri mövcud idi. Belə bir şəraitdə milli varlığın açıq siyasi mübarizə yolu ilə ifadəsi mümkünsüz idi. Məhz bu səbəbdən elm, xüsusilə də dilçilik və tarix elmi, milli düşüncənin ən təhlükəsiz və legitim ifadə vasitəsinə çevrilmişdi.

Qurultayın gündəliyində dayanan dil məsələsi sırf filoloji problem kimi deyil, milli kimliyin əsas dayağı kimi dərk olunurdu. Dil burada ünsiyyət vasitəsi olmaqdan çıxaraq tarixi yaddaşın, mədəni davamlılığın və kollektiv düşüncənin əsas mexanizmi kimi təqdim edilirdi. Türk dilləri arasındakı oxşarlıqların elmi şəkildə sübutu, sistemli təsnifatı və qarşılıqlı əlaqələrinin göstərilməsi təkcə akademik nəticə deyil, həm də türk xalqlarının tarixi-mədəni birliyinin elmi təsdiqi idi.

Əlifba məsələsinin qurultayın işində xüsusi yer tutması təsadüfi deyildi. Latın qrafikasına keçid ideyası türk xalqlarının öz dillərini müasir elmin tələblərinə uyğunlaşdırmaq, savadlanmanı genişləndirmək və qlobal intellektual məkanla əlaqə yaratmaq istəyinin ifadəsi idi.

Türkoloji Qurultayın əhəmiyyəti milli ideyanı romantik səviyyədən çıxarıb rasional-elmi müstəviyə keçirməsində də aydın görünür. Burada millət anlayışı hisslərə deyil, faktlara, müqayisələrə, dil materialına və tarixi mənbələrə əsaslanaraq izah edilirdi. Bu isə milli özünüdərkin daha dayanıqlı, daha davamlı formasını yaradırdı. Çünki elmi əsaslandırılmış ideya–siyasi basqılar qarşısında daha gec sarsılır, daha uzun müddət yaşayır.

Qurultayın keçirildiyi siyasi mühit onun əhəmiyyətini daha da artırır. Milli birlik ideyasının təhlükəli sayıldığı bir dövrdə bu birlik dilçilik, folklor, terminologiya və etnoqrafiya vasitəsilə ifadə olunurdu. Burada Türk dünyasının bütövlüyü şüarlarla deyil, qrammatik quruluşlarla, söz kökləri ilə, mifoloji paralellərlə sübut edilirdi. Bu isə ideyanın həm dərinliyini, həm də intellektual incəliyini göstərirdi.

Sonrakı illərdə qurultay iştirakçılarına qarşı aparılan repressiyalar hadisənin təsir gücünü azaltmadı. Əksinə, Türkoloji Qurultay zaman keçdikcə, yalnız elmi hadisə deyil, həm də düşüncə cəsarətinin, intellektual müqavimətin simvolu kimi qəbul olunmağa başladı. Onun ideyaları uzun müddət açıq şəkildə səsləndirilməsə də, milli yaddaşda yaşadı və müstəqillik dövründə yenidən aktuallıq qazandı.

Azərbaycan Respublikası Prezidentinin “Birinci Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsi haqqında” 2005-ci il 9 noyabr tarixli və “Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında” 2025-ci il 22 oktyabr tarixli sərəncamları bu tarixi hadisənin müasir siyasətdəki davamlı əhəmiyyətinin təsdiqi, elmi və ideoloji xəttin təməl prinsipidir.

XX əsrin elmi-mədəni tarixində mühüm mərhələ sayılan və 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayla bağlı sənəd-informasiya resurslarının araşdırılması türkoloji fikrin təşəkkülü, inkişaf istiqamətləri və elmi irsin sistemli şəkildə öyrənilməsi baxımından xüsusi elmi əhəmiyyət kəsb edir.

100-dən artıq iştirakçının, seçmə alim və mütəfəkkirin əksəriyyətinin həbsi və fiziki məhvi ilə bitən qurultay yaxın tarixin ən böyük ziyalı-alim soyqırımı sənədi, məzmunca kədərli, hüznlü bir tarix, insanlıq dramıdır.

Bu mühüm tarixi hadisənin elmi, siyasi, ictimai tutumunu xarakterizə edən bir sıra informasiya resursları vardır ki, bunların hər birində qurultayın tarixi-funksional mahiyyəti əks etdirilmişdir.

Belə informasiya mənbələrindən biri “1926-cı il I Bakı Türkoloji Qurultayı (Stenoqram materialları, biblioqrafiya və fotosənədlər)” adlı kitabdır. 2006-cı ildə “Çinar-çap” nəşriyyatında işıq üzü görən nəşrin ruscadan tərcüməsinin, ön söz və şərhlərinin müəllifləri professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyevdir. Kitabda oxuculara qurultayın stenoqramı (rus dilindən tərcümə), biblioqrafiya və fotosənədlər təqdim olunmuşdur. Kitabda ilk olaraq “Birinci Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 noyabr 2005-ci il tarixli Sərəncamı, “1926-cı il I Bakı Türkoloji Qurultayı haqqında söz” adlı ön söz verilmişdir. “Birinci Ümumittifaq Türkoloji Qurultayın stenoqrafik hesabatı” başlığı altında birinci iclasdan başlayaraq 27 fevral–6 mart tarixlərində keçirilmiş 17 iclasda dinlənilmiş 37 məruzənin stenoqramı, müzakirələr, mandat komissiyasının məruzəsi, V.V.Bartoldun rəyi, I Türkoloji Qurultayın qətnamələri, qurultay nümayəndələrinin əlifba üzrə siyahısı, həmçinin “Latın əsaslı yeni türk əlifbası və I Bakı Türkoloji Qurultayı: Biblioqrafiya” adlı yeni bölmə də yer almışdır. Bu mövzuda ilk dəfə çap olunan biblioqrafiyada XIX-XX əsrlərdə yeni əlifba uğrunda mübarizəni əks etdirən materiallar dərc olunmuşdur.

Mövzunun tarixi aktuallığı və əhəmiyyəti nəzərə alınaraq biblioqrafiyada materiallar xronoloji qaydada verilmiş, “Kitablar”, “Dövri mətbuat və məcmuələrdə çap olunan materiallar”, “Köməkçi göstərici” kimi başlıqlar altında Azərbaycan və rus dillərində qruplaşdırılmışdır. Biblioqrafiyada 299 mənbə toplanmışdır.

Kitabın “Foto-sənədlər” bölməsində zəngin tarixi fotomaterialla, qurultayın proqram və bülletenlərinin, eləcə də digər sənədlərinin əks olunduğu rəsmlər yer almışdır *(Nərimanoğlu K.V., Ağakişiyev Ə. 1926-cı il Türkoloji Qurultayı. - Bakı, Çinar-çap nəşr., 2006. - 570 s.).*

Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə 23-25 may 2006-cı il tarixlərində Bakıda keçirilmiş “I Türkoloji Qurultayın 80 illik yubileyinə həsr edilmiş elmi konfrans”ın materialları da qurultay haqqında zəngin informasiya mənbəyidir. Burada I Türkoloji Qurultay və müasir Türk dünyası, ortaq əlifba və dil məsələlərinin Azərbaycan - türk xalqlarının mədəni inkişafında rolu, ədəbiyyat, dil, türk dillərinin orfoqrafiyası, tarix, etnoqrafiya, terminologiya, ümumtürk dili problemi və digər çoxsaylı məsələlər haqqında geniş informasiya tutumuna malik araşdırmalar haqqında məlumatlar toplanmışdır.

10 iyun 2016-cı ildə I Türkoloji Qurultayın 90 illiyi münasibətilə Bakıda keçirilən “Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər” adlı elmi sessiyanın materiallarında toplanmış məqalələr də I Türkoloji Qurultay haqqında geniş informasiya tutumuna malikdir. Burada akademik İsa Həbibbəylinin “Birinci Türkoloji Qurultayın idealları işığında”, Muxtar İmanovun “Birinci Türkoloji Qurultayın görünməyən tərəfləri”, Afaq Xürrəmqızının “I Türkoloji Qurultayda qeyri-türk xalqlarının iştirakı və əlifba məsələsi”, Seyran Qayıbovun “Birinci Türkoloji Qurultayda folklor məsələləri” və digər problemlərin geniş təhlil olunduğu materiallar öz əksini tapmışdır.

28 dekabr 2016-cı il tarixində Azərbaycan Respublikası Təhsil Nazirliyi və Bakı Dövlət Universitetinin birgə təşkil etdiyi “Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş “Müasir türkologiya: dünən, bu gün və sabah (problemlər və perspektivlər)” adlı respublika elmi konfransının materialları da qurultayın qarşıda qoyduğu məsələlərə işıq salmaq baxımından dəyərli nəşrdir. Belə ki, birinci bölmə “Birinci Türkoloji Qurultay (1926) – türk xalqlarının inteqrasiyasında yeni mərhələ” adlanır və qurultayın müxtəlif aspektlərini təhlil və tədqiq edən materialları əks etdirir. I Türkoloji Qurultayda ərəb əlifbasından latın əlifbasına keçid, Altay dilləri məsələsi, qurultayın terminologiyanın və orfoqrafiyanın inkişafında rolu və başqa mövzular kifayət qədər informasiya tutumuna malikdir.

I Türkoloji Qurultayın 100 illiyi münasibətilə professor Nadir Məmmədlinin ərsəyə gətirdiyi “1926-cı il – I Türkoloji Qurultay: tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda” kitabı da qurultay haqqında ən mükəmməl informasiya resursudur. Kitabda “həmin dövrün tarixi konteksti, 100 il keçməsinə baxmayaraq, tədqiq olunmayan arxiv sənədləri və mətbuat materiallarının xronoloji ardıcıllıqla transkripsiyası, seçmə tərcümələri və elmi şərhləri verilir. Nəşrdə qurultayın protokolları, məruzə və çıxış mətnləri, rəsmi teleqramlar, eləcə də müvafiq komissiyaların sənədləri yer alır”.

Giriş, üç fəsil və ədəbiyyat siyahısından ibarət olan nəşrdə qurultayın siyasi və elmi əsasları, əlifba məsələsi, yazı-orfoqrafiya problemi, terminologiya və türk dillərinin ədəbi dili məsələləri, o cümlədən ortaq ədəbi dil, tədris-metodologiya məsələsi, arxiv sənədlərinin xronoloji transkripsiyası, seçmə tərcümələr və şərhlər, eləcə də o dövrün “Yeni yol”, “Bakinski raboçi”, “Kommunist”, “Yeni fikir” kimi o dövrün qəzetlərində qurultayla bağlı məqalələr toplanmışdır.

Müəllif qeyd edir ki, kitabı yazmaqda məqsəd təkcə hadisələrin ardıcıllığını əks etdirmək deyil, eyni zamanda, bunun arxasında dayanan tarixi-siyasi məzmunu, ideoloji istiqamətləri analitik şəkildə açıqlamaqdır.

Kitab qurultayla bağlı bütün nəşrlərdən kəskin şəkildə fərqlənir. Əminliklə demək olar ki, bu nəşr tədqiqatçılar üçün ən dolğun informasiya resursudur.

Bu gün Türkoloji Qurultaya qayıdış nostalji deyil, analitik zərurətdir. Çünki müasir dövrdə türk xalqlarının mədəni və elmi inteqrasiyası, ortaq dəyərlər üzərində əməkdaşlıq ideyası məhz həmin qurultayda qoyulmuş elmi əsaslara söykənir. Qurultay sübut etdi ki, millətin davamlılığı yalnız siyasi güclə deyil, intellektual birliklə, elmi düşüncə ilə təmin olunur.

Beləliklə, Türkoloji Qurultay elmi tədbir olmaqla yanaşı, milli düşüncənin tarixində dönüş nöqtəsi, bu gün də düşünən Türk dünyası üçün canlı ideya mənbəyidir.

Mənbələrin hər birində I Türkoloji Qurultayla bağlı məlumatlar bir-birini təkrarlasa da, onların hər birində qurultayın təşkili, burada qaldırılmış problemlər və qəbul edilmiş qətnamələrə müxtəlif yanaşmalar vardır. Bu yanaşmaların hər biri ortaq türk əlifbası, ədəbiyyatı və türk xalqlarının mədəni inteqrasiyası məsələsində eyni mövqedən çıxış etməkdədir.

***Şəhla TAHİRQIZI,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

*Kitab rəfi*

## “Əkinçi”dən 50 il sonra”

**Uzun illərin araşdırmalarının nəticəsi olan bu kitabın müəllifi Əməkdar mədəniyyət işçisi Müsəllim Həsənovdur. Arxivdə çalışarkən “Birinci Türk qəzetinin 50 illiyi ilə bağlı yazışmalar” adlı sənədlər qovluğuna rast gələn həmkarımız “Əkinçi”nin tarixi ilə bağlı bir sıra öyrənilməmiş məqamları araşdırmağa başlayıb və sanballı tədqiqat əsərini ərsəyə gətirib.**




Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə işıq üzü görən kitabın Ön söz müəllifi Rəşad Məcid, redaktoru Elşən Əliyevdir. “Əkinçi” irsinə ehtiramla qələmə alınan topluda Azərbaycan mətbuat tarixi arxivinin yaradılması üçün atılan ilk addımlar, Moskva və Leninqrad (indiki Sankt-Peterburq) arxiv və muzeylərində aparılan axtarışlar, ayrı-ayrı illərdə Həsən bəy Zərdabiyə münasibət və sair məsələlər barədə nadir arxiv sənədləri əsasında maraqlı söhbət açılır. Kitabda həmin sənədlərin fotoşəkilləri də yer alıb.

Mətbuat tarixçiləri, jurnalistlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulan “Əkinçidən 50 il sonra” əsəri “RAF Poliqraf-2017” MMC-də çap edilib.

## “Virus”

**Əsərləri ölkəmizdə və xaricdə çap olunan tanınmış yazıçı Aslan Quliyevin “Virus” romanı bir neçə il öncə Türkiyə oxucusuna təqdim edilib. Budur, artıq əsər “Qanun” Nəşrlər Evində buraxılaraq yerli oxucuların mühakiməsinə verilib.**

Bu roman ölkə və insanlıq üçün ən böyük təhlükənin ölüm, aclıq və ya müharibə yox, mənəviyyata yoluxan virus olduğundan bəhs edir. Həqiqəti eşitmək əvəzinə onu susdurmaq yolu seçiləndə ölkənin göz önündə necə çökməsi, nə qədər ağır nəticələrə gətirib çıxarması ustalıqla təsvir olunur.




Müəllifin ciddi, ölçülü-biçili və məsuliyyətli yazıçı mövqeyindən xəbər verən roman bədii-sosioloji təfsir baxımından maraq doğurur.

## “Sarı köynək”

**Yeniyetmələr üçün klassik aşıq Dədə Ələsgərin yaradıcılığını əks etdirən yeni kitab çapdan çıxıb. “Sarı köynək” adlanan həmin topluda Aşıq Ələsgərin külliyyatından məktəbyaşlı uşaqların zövqünə və qavramasına uyğun seçmə əsərlər ipə-sapa düzülüb.**




Kitaba “Sarı köynək” adının verilməsi təsadüfi deyil. Bu, Aşıq Ələsgərin ən populyar şeirlərindən biridir və sözlərinə mahnı da bəstələnib. Burada haqq aşığının şeirləri, dastan və rəvayətləri, xatirələri, deyişmələri və onun yaradıcılığına aid bir çox digər nümunələr yer alıb.

“Sarı köynək” kitabının nəşrə hazırlanması və dizaynının müasir standartlara uyğunlaşdırılması layihəsi dahi şairin nəslinin nümayəndəsi, onun kötücəsi Aysel Zahidqızının təşəbbüsüdür. Kitab “TEAS Press” Nəşriyyat Evinin “3 alma” Uşaq Ədəbiyyatı bölməsi tərəfindən nəşrə hazırlanıb və Türkiyədə çap olunub.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Sənət dünyası*

# Kamanın mehri və Mehrinin kamanı

**Musiqi alətləri içərisində kamançanın öz yeri var. İnsan qəlbinin simlərinə toxunmaq qüdrəti kamançanı digər alətlərdən fərqləndirir. O həm də insan səsinə yaxınlığı ilə seçilir. Kamançanın bətnində uyuyan səsi dilləndirmək böyük məharət tələb edir.**

Qrammatikada sifət ismə uyğun gəldiyi kimi, kaman da daim insan barmaqlarına doğru can atır; barmaqlar simlərə toxunanda, sanki, ruh, kamanı canlandırır. Yetər ki, onu diqqətlə dinləyəsən. Sənət adamları başqasına sirr olanı aşkar görürlər.



Mehri Əsədullayeva kamana ruh bəxş etməyi bacaran nadir istedad sahiblərindəndir. Hər dəfə onun ifasını dinləyəndə xəyal məni Buzovnanın qumlu sahillərinə aparır, dalğaların ritmini Abşeron mühitinin rənglərini görürəm o xallarda. Qəribə assosiasiyalardır. Bəlkə də bu, mənim də, onun da Bakı mühitində yetişməyimizlə bağlıdır. Çox güman ki, belədir. Mehri xanımın ifasında Şərqlə Qərbin təmasları çox rahatlıqla çulğaşır, keçidlər o qədər ahəngdarlıqla, harmonik şəkildə tətbiq olunur ki, qulağa yad gəlmir, əksinə, qəlbə rahatlıq, ruha dinclik gətirir.

Kamanın arxaikası, semantikası və mədəniyyət şəbəkəsində “kaman” anlayışı ilə bağlı paradiqmalar geniş və müfəssəl şərh tələb edən mövzulardır. Bu barədə mənim fərqli düşüncələrim var, yəqin ki, nə vaxtsa bu barədə də yazacağam. İndi isə yol alıram bu günlərdə baş vermiş xoş bir sənət hadisəsinin fəlsəfi-estetik mətləbinə...

Mehri Əsədullayeva musiqiçi ailəsində dünyaya gəlib. Atası Əməkdar incəsənət xadimi, professor Arif Əsədullayev muğamlarımızı nota köçürən nadir kaman ifaçısıdır.

Onun bu xidməti musiqi mədəniyyətimiz üçün əvəzsiz töhfədir. Anası Azərbaycanda ilk qadın solist kamança ifaçısı olmuş Xalq artisti Şəfiqə xanım Eyvazova ifaçılıq sənətimizin zirvəsindəndir. Belə bir ailədə dünyaya göz açmaq onun gələcək taleyini müəyyənləşdirirdi. Mehri də valideynləri kimi sənət yolunu seçdi və böyük uğurlar qazandı. Ölkəmizdən kənarda da Azərbaycan musiqisini ləyaqətlə təmsil etməklə yanaşı, sənətə yeniliklər gətirməyə nail oldu.

...İki gün əvvəl Beynəlxalq Muğam Mərkəzində Mehrinin növbəti konserti keçirilirdi və zal ağzına qədər dolu idi. Bu insanlar onun heyranları, pərəstişkarları idi və düşünürəm ki, tamaşaçı sevgisini qazanmaq hər bir sənətkar üçün böyük xoşbəxtlikdir. Mehri bu sevgini çoxdan qazanıb. Dünya xalqlarının nəğmələrini, eləcə də Azərbaycan bəstəkarlarının mahnılarını fonoqramsız, canlı oxudu və alqışlar, səhnəyə yağan gül-çiçək yağışı tamaşaçıların sevgisinin, rəğbətinin ifadəsi idi.

Konsert proqramında bəndənizin də bir şeiri səsləndi və düşünürəm ki, kamanın səsinə sözlə qoşulmaq səslə sözün vəhdətinə bir işarədir. Fürsətdən istifadə edib şeirimi proqrama daxil etdikləri üçün konsertin təşkilatçılarına təşəkkürümü bildirirəm.

Mən tədbirdən ruhuma dinclik gətirən xoş əhvalla ayrıldım, Mehrinin ifaları duyğularıma yelkən açmışdı və həm də onu düşünürdüm ki, bu qəbil sənət gecələri təkcə videolentə köçürülməli deyil, həm də yazıya çevrilməlidir. Bu gecələr mədəniyyətimizin bir parçasıdır.

Mehri Əsədullayevanın konserti, sözün əsl mənasında, bir sənət bayramı idi. Dəyərli sənətkarımızı təbrik edir, gələcək illərdə böyük səhnələri fəth etməsini arzulayıram.

***Kənan HACI,***
***yazıçı-publisist***

# Bahar Muradova BMT-də TDT adından bəyanatla çıxış edib



**Nyu-Yorkda keçirilən BMT-nin Qadınların Statusu üzrə Komissiyasının 70-ci sessiyasının ümumi müzakirələri çərçivəsində Türk Dövlətləri Təşkilatı adından bəyanatla çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, təşkilata üzv ölkələr Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Azərbaycan əsas insan hüquqlarına, insan ləyaqətinə, qadın və kişilərin bərabər hüquqlarına sadiq olduqlarını bir daha təsdiqləyirlər.**

Komitə sədri qeyd edib ki, bu prinsiplər BMT nizamnaməsində də öz əksini tapır və üzv dövlətləri bu istiqamətdə davamlı və məqsədyönlü addımlar atmağa çağırır. Təşkilata üzv ölkələr qadın və qızların hüquqlarının tam təmin olunması istiqamətində öhdəliklərinə sadiqdir və bu baxımdan "Pekin Bəyannaməsi və Fəaliyyət Platforması" sənədinin məqsəd və hədəflərini dəstəkləyir. Qadın və qızların hüquqları bütün insan hüquqları və fundamental azadlıqların ayrılmaz hissəsidir.

Sessiyanın əsas mövzusu olan qadın və qızların ədalətə çıxış imkanlarının genişləndirilməsi məsələsinə toxunan B.Muradova vurğulayıb ki, bu istiqamətdə görülən tədbirlər qadınların hüquqlarının tam reallaşdırılması, onların səlahiyyətləndirilməsi və gender bərabərliyinin təşviqi üçün mühüm əhəmiyyət daşıyır. Bu sahədə əldə olunan irəliləyiş isə Davamlı İnkişaf üzrə 2030 Gündəliyi çərçivəsində qarşıya qoyulan məqsədlərin həyata keçirilməsinə də töhfə verir.

Çıxışda ailənin cəmiyyətin əsas və təməl institutu kimi rolu xüsusi qeyd olunub. Bildirilib ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi sənədinə uyğun olaraq ailənin qorunması, möhkəmləndirilməsi və inkişafı qadınların hüquqlarının təmin edilməsində mühüm rol oynayır.

Komitə sədri, həmçinin qadın və qızların sosial-iqtisadi inkişafda bərabər iştirakını təmin etmək üçün zəruri şəraitin yaradılmasının vacibliyini vurğulayıb. Erkən və məcburi evliliklər, təhsil və məşğulluq imkanları, eləcə də xüsusilə kənd yerlərində yaşayan qadın və qızların reproduktiv sağlamlıq xidmətlərinə çıxışındakı maneələrin aradan qaldırılmasının əhəmiyyəti qeyd olunub.

Sonda komitə sədri Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qadınların səlahiyyətləndirilməsi, gender bərabərliyinin təşviqi və insan təhlükəsizliyinin gücləndirilməsi istiqamətində beynəlxalq əməkdaşlığa sadiq qaldıqlarını vurğulayıb. Bildirib ki, bu yanaşma təşkilatın 2021-ci ildə qəbul edilmiş Türk Dünyası Vizyonu – 2040 sənədində də öz əksini tapıb.

*Z.BƏŞİRQIZI*
*XQ*

# MEDİA-nın vizual peşəkarlıq təlimi

**Dünən Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə "Vizual təsirin gücləndirilməsi və müasir auditoriya üçün cəlbedici multimedia məzmunların hazırlanması" mövzusunda peşəkar inkişaf təlim proqramı keçirildi.**




Media sahəsində çalışan mütəxəssislər və iştirakçılar üçün nəzərdə tutulan təlimin əsas məqsədi müasir jurnalistikada vizual media ilə təqdim olunan materialların əhəmiyyətini vurğulamaq, multimedia məzmununun hazırlanması üzrə bilik və bacarıqları artırmaq, media nümayəndələri arasında təcrübə və fikir mübadiləsini təşviq etmək idi. Gün ərzində təşkil olunan sessiyalar çərçivəsində iştirakçılara vizual məzmunun hazırlanması, mətnin təqdim olunma formaları, kadr seçimi və emosional təsir mövzularında təcrübi və nəzəri bilgilər çatdırıldı.

Medianın İnkişafı Agentliyi icraçı direktorunun müavini Natiq Məmmədli vurğuladı ki, rəqəmsal platformaların sürətli inkişafı informasiyanın istehlak formasını kökündən dəyişdiyi üçün vizual məzmun artıq köməkçi vasitə deyil, xəbərin əsas sütunudur. Belə dinamik mühitdə jurnalistlərin üzərinə düşən məsuliyyət daha çoxşaxəlidir; onlar artıq yalnız məlumatı çatdıran şəxs deyil, həm də texnoloji trendlərdən məlumatlı, çevik qərar verən və yaradıcı həllər təqdim edən peşəkar kadrlar olmalıdırlar. Bu gün auditoriyanın diqqətini qazanmaq və saniyələr içində minlərlə paylaşım arasından seçilmək üçün informasiyanı cəlbedici və təsirli şəkildə təqdim etmək vacibdir.

Təlimçi, tanınmış rejissor və kommunikasiya mütəxəssisi Antye Dombrovskinin yanaşmasına görə, informasiyanın vizuallaşdırılması həm də auditoriya ilə emosional bağ qurmaq və incəlikləri duymaq sənətidir. Müasir media mühitində informasiyanın həcmi artdıqca, multimedia alətlərindən səmərəli istifadə etmək məlumatın çatdırılmasında həlledici rol oynayır. Bu yanaşma, quru faktları canlı və yaddaqalan məntlərə çevirərək, xəbərin və ya mesajın təsir gücünü dəfələrlə artırır. Vizual elementlər – istər dinamik video, istərsə də rəngarəng infoqrafika dil və ya digər bariyerləri aşaraq auditoriyanın hadisəni daha aydın və sürətli qavramasına xidmət edir.

Antye Dombrovskinin təqdimatında keçilən təlim sessiyalarla davam etdi.

Birinci sessiyada müasir multimedia məzmun yaradıcılığına giriş mövzusu müzakirə olundu. Sessiya çərçivəsində iştirakçılara multimedia jurnalistikasının əsas prinsipləri, müxtəlif platformalar üçün məzmunun hazırlanması və vizual hekayəçiliyin struktur xüsusiyyətləri haqqında məlumat verildi. Media sahəsində çalışan mütəxəssislər arasında təcrübə və fikir mübadiləsi aparıldı.

İkinci sessiya isə real iş mühitində qərarvermə proseslərinə həsr olundu. Bu hissədə peşə terminologiyası, montaj prosesinin xüsusiyyətləri və vizual elementlərin işlənməsi mövzularına toxunuldu. Sessiya zamanı iştirakçılar qrup işi formatında praktiki tapşırıqlar yerinə yetirərək real media layihələrində istifadə olunan yanaşmaları tətbiq etmək imkanı əldə etdilər.

Üçüncü sessiyada mətnə giriş mövzusu diqqət mərkəzində idi. Bu sessiya çərçivəsində auditoriyanı cəlb edən giriş strategiyaları, emosional təsirin yaradılması və etibarlı narrativin qurulması məsələləri müzakirə olundu. Təlim zamanı iştirakçılara emosional və psixoloji aspektləri də izah edildi.

Dördüncü sessiya avadanlıqlardan istifadə və kadr quruluşunun əhəmiyyətinə həsr olundu. Bu hissədə kadrlama texnikaları, perspektivin vizual təsiri və müxtəlif çəkiliş üsulları haqqında məlumat verildi. İştirakçılar qrup işi çərçivəsində kompozisiya elementlərini praktiki şəkildə sınaqdan keçirdilər.

Təlimin növbəti sessiyasında multimedia materiallarının hazırlanması zamanı etik yanaşma prinsiplərindən danışıldı. İnformasiyanın düzgün təqdim olunması və vizual manipulyasiyaların qarşısının alınması kimi mövzulara diqqət yetirildi. Qeyd olundu ki, vizual materiallar auditoriyaya güclü təsir göstərdiyi üçün jurnalistlərin məsuliyyəti də artır və bu baxımdan etik standartlara riayət olunması xüsusi əhəmiyyət daşıyır.

Sonuncu sessiyada isə qazanılan bilgilər müzakirə olundu. İştirakçılar gün ərzində mənimsədikləri bilik və təcrübələri ümumiləşdirərək peşə fəaliyyətində bu bacarıqların tətbiqi imkanları barədə fikir mübadiləsi apardılar.

Media sahəsində çalışan mütəxəssislərin peşəkar inkişafına töhfə vermək və müasir media mühitində kommunikasiya bacarıqlarını gücləndirmək məqsədilə təşkil olunan təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olundu.

*Fidan ƏLİYEVA*
*XQ*

*BEYNƏLXALQ HƏYAT*

# Avropa yeni dünya nizamına necə uyğunlaşır?



**Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen bildirib ki, "qoca qitə" artıq keçmişdə qalmış və geri qayıtmayacaq köhnə dünya nizamının qoruyucusu ola bilməz. O və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Brüsseldə keçirilən Aİ diplomatlarının illik konfransındakı çıxışlarında xəbərdarlıq ediblər ki, beynəlxalq hüququn get-gedə daha çox pozulması səbəbindən ənənəvi dünya nizamı sürətlə dağılır və Avropa İttifaqı yeni "xaos və məcburetmə" dövrünə uyğunlaşmalıdır.**

Onların bu fikirləri ABŞ və İsrailin İranla əməliyyatlar aparmağa davam etdiyi bir vaxta təsadüf edir. Hər iki siyasətçi hesab edir ki, Yaxın Şərqdəki gərginlik qlobal enerji bazarlarını sarsıdıb və Qərb müttəfiqləri arasında fikir ayrılığına səbəb olub.

Avropa Komissiyasının prezidenti səfirlərlə söhbətində Avropanın artıq köhnə dünya nizamının qoruyucusu ola bilməyəcəyini deyib: "Müttəfiqlərimizlə birlikdə qurduğumuz qaydalara əsaslanan sistemi həmişə müdafiə edəcək və dəstəkləyəcəyik. Lakin artıq maraqlarımızı qorumağın yeganə yolu kimi ona etibar edə və ya onun qaydalarının bizi üzləşdiyimiz təhdidlərdən qoruyacağını güman edə bilmərik".

Fon der Lyayen bildirib ki, hazırkı "köklü dəyişikliklər dövründə" Aİ seçim qarşısında dayanıb: uzun müddətdən bəri formalaşmış "vərdişlərə və inanclara" sadiq qalmaq, yoxsa "fərqli bir tale" qurmaq. "Bizi blok daxilində daha güclü, qlobal miqyasda daha nüfuzlu və dünya ölkələri üçün daha yaxşı tərəfdaş edəcək bir xarici siyasət qura bilərik. Avropada müstəqilliyin təməlini təşkil edən, maraqlarımızı qoruyan və dəyərlərimizi təbliğ edən xarici siyasət! Köhnə dünyadan nostalji və ya kədərlə deyil, yeni dünya formalaşdırmaqla ayrılmalıyıq".

Kaya Kallas isə dörd il əvvəl Rusiyanın Ukraynaya tammiqyaslı hücumunu "beynəlxalq hüququn aşınmasına" və "güclə məcburetmə siyasətinin" geri qayıtmasına səbəb olan fəlakət kimi dəyərləndirib: "Bu, diqqətdən kənarda qalmadı, əksinə, bütün dünyaya artıq hərəkətlərinə görə heç bir məsuliyyət daşımamağa dair bir siqnal oldu: formalaşmış qaydalar kitabı sanki pəncərədən çölə atıldı. Beynəlxalq hüquq sistemini və hesabatlılıq mexanizmlərini bərpa etmədən qanunsuzluğa, iğtişaşlara və xaosa məhkumuq".

Qeyd etmək lazımdır ki, nə Fon der Lyayen, nə də Kallas İrana qarşı hücumları beynəlxalq hüquqa zidd hərəkət hesab edərək birbaşa qınamayıblar. Avropa Komissiyasının rəhbəri bildirib ki, Aİ "real vəziyyəti" nəzərə almalı və "dünyanı olduğu kimi" görməlidir.

Budur, Aİ diplomatlarının konfransında blokun xarici siyasətinin yenidən nəzərdən keçirilməsi məsələsi qaldırılıb. Fon der Lyayen və Kallas faktiki razılaşıblar ki, Aİ bir tərəfdən, müdafiə və çəkindirmə qabiliyyətlərini əhəmiyyətli dərəcədə gücləndirməli, digər tərəfdən isə, rəqiblərin istifadə etməyə çalışa biləcəyi hər hansı bir zəifliyi aradan qaldırmaq üçün ticarət və təhlükəsizlik sazişləri şəbəkəsini genişləndirməlidir.

Fon der Lyayen əlavə edib ki, Aİ geosiyasi təsirini gücləndirmək üçün daxili qərar qəbuletmə qaydalarında da dəyişiklik etməlidir. Hazırda blokun xarici siyasəti yekdiillik prinsipi ilə ciddi şəkildə bağlıdır, yəni 27 üzv dövlət hərəkət etməzdən əvvəl ortaq fəaliyyət kursu barədə razılığa gəlməlidir. Lakin fərdi vetolar əhəmiyyətli çəkiyə malikdir. Brüssel rəsmilərinin fikrincə, bu, Aİ-nin yavaş qərar qəbul etməsini və qlobal səhnədəki zəif mövqeyini şərtləndirir. Brüssel hazırda Macarıstanın üzv dövlətlərin Ukraynaya verməyə razılaşdığı 90 milyard avroluq kreditə son anda veto qoyması ilə mübarizə aparır. Fon der Lyayen bir daha bu çıxılmaz vəziyyətdən çıxış yolu tapacağına söz verib. Çünki onun sözlərinə görə, "Avropa İttifaqının etibarlılığı təhlükə altına düşür".

O bildirib: "Müasir dünyada xarici siyasətimizə, onun necə inkişaf etdirildiyinə və necə həyata keçirildiyinə ayıq və sərt bir baxışımız olmalıdır. Müharibədən sonrakı sabitlik və çoxtərəflilik dünyasında hazırlanmış doktrinamızın, təsisatlarımızın və qərarlarımızın ətrafımızda baş verən dəyişikliklərin sürətinə uyğun olub-olmadığını təcili olaraq nəzərdən keçirməliyik. Əgər daha real və maraqlara yönəlmiş xarici siyasətə ehtiyacımız olduğunu düşünürüksə, onda onu həyata keçirə bilməliyik".

Fon der Lyayen etiraf edib ki, blok nə qədər islahatlar aparsa, müdafiəyə sərmayə qoysa və tərəfdaşlarını şaxələndirsə də, ambisiyaları həmişə məhdud olacaq.

Avropa Komissiyasının prezidenti yekun olaraq bildirib: "Etiraf etməliyik ki, bütün qlobal problemləri həll edə və ya hər bir konkret halda dəyərlərimizi və maraqlarımızı mükəmməl şəkildə uyğunlaşdıra bilmərik. Lakin xarici siyasətimizin nəyə əsaslandığını və onu necə apardığımızı mütləq idarə edə bilərik".

*Paşa ƏMİRCANOV*
*XQ*

# Tərtərin İrəvanlı kəndində çərşənbə çal-çağırı



**Tərtər rayonunun İrəvanlı kəndində Yel çərşənbəsi böyük ruh yüksəkliyi və bayram ovqatı ilə qeyd olunub. Tərtər Rayon İcra Hakimiyyəti, Qarabağ Regional Mədəniyyət İdarəsi Tərtər nümayəndəliyi, Qərbi Azərbaycan İcmasının rayon nümayəndəliyi və Mamırlı bələdiyyəsinin birgə təşkil etdiyi şənlikdə rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, mədəniyyət işçiləri, kənd ağsaqqalları və sakinlər iştirak ediblər.**

El şənliyində Novruz çərşənbələrinin mahiyyəti, xalq inanclarındakı yeri haqqında danışılıb. Bayram tonqalı coşqu yaradıb. Tonqal başına toplaşan sakinlər qədim adətlərə uyğun olaraq od üzərindən atlanaraq yeni ilin bərəkət və uğur gətirməsini arzulayıblar. Bayram süfrəsində sacda bişirilən kətə, qovurğa və çərşənbə şirniyyatları qonaqlara təqdim olunub.

Şənlik milli musiqi sədaları altında davam edib. Kənd gəncləri tonqal ətrafında yallı gedib, pəhləvanlar güc və məharətlərini nümayiş etdiriblər. Bayram ovqatı ilə müşayiət olunan mərasimdə qədim ənənələr, xalq inancları və Novruz ruhu hamıya xoş əhval bəxş edib.

Mərasimdə kənd sakinləri Qərbi Azərbaycana qayıdacaqları günün uzaq olmadığını dilə gətiriblər.

*Vəli VƏLİYEV*
*XQ*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*baş ofis və tabeliyindəki idarələrə kartriclərin satın alınması məqsədilə*

## AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 2026-cı il martın 17-si saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

Ünvan: Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 45 (31014) 11 mart 2026-cı il, çərşənbə

## İDMAN

### Malayziya ilə idman təhsili əməkdaşlığı




**Azərbaycan İdman Akademiyası (ASA) ilə Malayziyanın INTI Beynəlxalq Universiteti arasında əməkdaşlığa dair memorandum imzalanıb.**

ASA-nın Mətbuat xidmətindən verilən məlumata görə, görüşdə akademiyanın tədris işləri üzrə prorektoru Ülkər Babayeva, ümumi işlər üzrə prorektoru Taleh Qələndərli və Beynəlxalq əməkdaşlıq və kommunikasiya departamentinin beynəlxalq əməkdaşlıq və layihələrlə iş şöbəsinin müdiri Həsən İbrahimli iştirak ediblər.

Memorandum tərəflər arasında tədris, elmi fəaliyyət və beynəlxalq əlaqələr sahəsində əməkdaşlığı nəzərdə tutur. Eyni zamanda, ASA və INTI ali təhsil müəssisələri üçün mühüm əhəmiyyət kəsb edən beynəlxalq reytinqlər istiqamətində əməkdaşlıq edəcək, professor-müəllim heyətinin və tədqiqatçıların, həmçinin fizioterapiya və idman menecmenti ixtisasları üzrə bakalavr tələbələrinin mübadiləsini həyata keçirəcəklər. Bununla yanaşı, birgə seminar və konfranslar təşkil olunacaq.

Qeyd edək ki, sözügedən memorandum ASA-nın Cənub-Şərqi Asiya regionunda yerləşən universitetlərlə imzaladığı ilk əməkdaşlıq sənədidir.

### Antidopinq simpoziumu təxirə salınıb




**Ümumdünya Antidopinq Agentliyi (WADA) 18-19 mart 2026-cı il tarixlərində Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsi planlaşdırılan WADA-nın Avropa üzrə Regional Simpoziumunu Yaxın Şərqdəki vəziyyət səbəbindən təxirə salıb. Simpoziumdan əvvəl Bakı şəhərində təşkil olunması nəzərdə tutulan WADA-nın İcraiyyə Komitəsinin (ExCo) iclasının isə onlayn formatda keçirilməsinə qərar verib.**

WADA açıqlamasında ev sahiblərinin – Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) göstərdiyi qonaqpərvərlik və dəstəyini yüksək qiymətləndirərək bu qərarın asanlıqla qəbul edilmədiyini diqqətə çatdırıb. Hava nəqliyyatında mümkün fasilələr və logistika amilləri diqqətlə təhlil edildikdən sonra bu qərarın verilməsi zəruri hesab olunub.

### Güləşçilərin məktəblilərlə görüşü




**Azərbaycanın tanınmış güləşçiləri Xırdalanda məktəblilərlə görüşüb.**

11 saylı tam orta məktəbdə qonaq olan yunan-Roma güləşi üzrə Olimpiya mükafatçısı, Dünya və Avropa çempionatının mükafatçısı Rəsul Çunayev və qadın güləşi üzrə U15 yığma komandanın məşqçisi, U23 Avropa çempionatının mükafatçısı Solmaz Adilova yeniyetmə və gənclərə qazandıqları uğurlar, bu nailiyyətlərə gedən yolda üzləşdikləri çətinliklər barədə fikirlərini bölüşərək, onlara öz tövsiyələrini çatdırıblar.

Güləşçilər daha sonra müxtəlif fəndlərin icrasını nümayiş etdirib və xalça üzərində mübarizə zamanı diqqət edilməli məqamları izah ediblər.

Qeyd edək ki, belə görüşlərin və ustad dərslərin keçirilməsində məqsəd gənc nəslin sağlam ruhda böyüməsinə dəstək vermək, motivasiyanı artırmaq, güləşlə bağlı maarifləndirməni gücləndirmək və bu sahədə keyfiyyət yüksəltməkdir.

*Qabil YUSİFOĞLU*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Dövlət Universiteti Filologiya fakültəsinin 1984-cü il buraxılışının müdavimləri tələbə yoldaşları Mətanət Babayevaya qardaşı

**FİRUDİN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*Kənddən şəhərə*

# Paytaxtda Novruz yarmarkası

## *Aşağı qiymət, yüksək xidmət məmnunluq yaradır*

**Yazın gəlişi ərəfəsində şəhərin mərkəzində günəşli bir səhərin ilk saatlarından etibarən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən təşkil olunan "Kənddən şəhərə" Novruz yarmarkasında canlanma hiss olunurdu. Satıcılar öz məhsullarını səliqə ilə düzür, alıcıları qarşılamağa hazırlaşırdılar.**









**"Aqrar Tədarük və Təchizat" ASC-nin İdarə Heyətinin üzvü Faiq Hüseynovun** verdiyi məlumata görə, yarmarka ərazisində Qida Təhlükəsizliyi Agentliyinin səyyar laboratoriyası fəaliyyət göstərir: "Əsas məqsəd şəffaflığın təmini və vətəndaşları satılan məhsulların keyfiyyətinə əmin etməkdir. Yarmarkada iştirak edən fermerlər piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla ödənişsiz təmin olunublar. İnanırıq ki, bu yarmarka vətəndaşların münasib qiymətə yerli məhsul əldə etmələrinə şərait yaradacaq, həm də bayram əhvali-ruhiyyəsinə töhfə verəcək".

Budəfəki yarmarkada 25 regiondan 55 fermer 145 çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirirdilər. Yerli fermerlərin məhsulları xüsusi maraq doğururdu. Novruz ədviyyatları, xonçalıq məhsullar, yüksək zövqlə bəzədilmiş səmənilər, təzə tərəvəzlər, bal və müxtəlif növ mürəbbələr alıcıların diqqətini cəlb edirdi. Satıcılar məhsulların təbii olduğunu vurğulayır, alıcılar isə dadına baxaraq seçim edirdilər.

Novruz əhvali-ruhiyyəsi və kənd təsərrüfatı məhsullarının, meyvələrin bolluğu isə yarmarkanın rəngarəng mənzərəsini yaradırdı. Yarmarkaların təşkili belə tədbirlər yerli istehsalın dəstəklənməsi, kiçik sahibkarların tanıdılması, eyni zamanda, şəhər sakinlərinin təbii məhsullara əlçatanlığını təmin etməklə yanaşı, zəhmət adamlarının əməyinə verilən dəyərin bariz nümunəsidir. Sosial baxımdan yarmarkalar əhalinin rifahının yüksəldilməsinə müsbət təsir göstərir. Bununla yanaşı, yarmarkalar milli ənənələrin yaşadılması, mədəni irsin təbliği və ictimai həmrəyliyin gücləndirilməsi baxımından da əhəmiyyətlidir.

Yarmarkaya gələn paytaxt sakinləri qeyd etdilər ki, bu cür təşkilatçılıq onların ailə büdcəsinə qənaət etməyə imkan yaradır. Fermerlər isə məhsullarının satışında yarmarkaların mühüm rol oynadığını bildirdilər.

**Balakənli fermer Sara Həsənova** 400 kiloqrama yaxın məhsul gətirdiyini bayram süfrəsinə daha çox çərəzlər, qoz, fındıq, badam, buğda, balqabaq tumu, innab, quru meyvələr qoyulduğu üçün alıcılara bazar qiymətlərindən xeyli aşağı təklif etdiyini bildirir. Hektarlarla torpaq sahəsində əkib-becərdiyi və bu gün paytaxt sakinlərinə təklif olunan məhsullar ailə təsərrüfatının birgə əməyinin bəhrəsidir. Keyfiyyətlərinə də söz ola bilməz. Barlı-bərəkətli torpaqdan əldə etdiyi qazancla övladlarına təhsil verməklə yanaşı, ev-eşik sahibi edib. Onları da zəhmətə alışdırıb.

**Qəbələli fermer Vüsal Mürsəlov** isə 300 kiloqrama yaxın məhsul satışa çıxarıb. Piştaxtasını əsasən həyətyanı sahəsinin məhsulları bəzəyir. Şabalıd, qoz, fındıq, xurma, lobya alıcıların ən çox aldığı məhsullardır. Fermer bildirir ki, Novruz bayramında sakinlərə lazım olanların hamısını gətirmişik. Qiymətlər də münasibdir. Bazar və marketlərdən hiss ediləcək dərəcədə fərqlənir. Elə vaxt olur ki, istənilən bir məhsulun satışında alıcı ilə razılaşmalı oluruq. İndi Ramazan ayıdır. Hamı bir-birinə kömək etməli, əl tutmalıdır.

**Fermer Fazil Rüstəmov** Qubadlının Başarat kəndindəndir. Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən 1410 metr hündürlükdə Kiçik Həkəri çayı sahilində yerləşən doğma dağ kəndinə 80 arı ailəsini köçürüb. İsti ocağını tərk etməzdən əvvəl də dolanışıq yeri torpaq olub. İndi isə kəndinə dönüb birdəfəlik məskunlaşacağı günü səbirsizliklə gözləyir. Kəndə köç etdikdən sonra hansı işlərlə məşğul olacağının planlarını qurub. Fazil dayı yarmarkaya paytaxt sakinləri üçün xalis bal, müxtəlif növ kəklikotu, solmazçiçəyi, əvəlik çıxarıb. Bunlar doğma kəndinin məhsullarıdır. Yaradılan şəraitdən razılığını bildirən fermer Başaratın bərəkətli məhsullarını növbəti yarmarkalarda satacağına tam əmindir.

**Bakı şəhər sakini Rauf Əliyev** qiymətlərdən və məhsulların keyfiyyətindən razılığını bildirir: "Novruz bayramı yaxınlaşdıqca, fikirləşirdim ki, haradan bazarlıq edəcəm. Yarmarkanın keçirilməsi ilə bağlı məlumatı oxuduqda sevindim. Burada qiymətlər olduqca münasibdir. Bayram əhvali-ruhiyyəsi də hiss olunur. Əsas odur ki, məhsullar keyfiyyətlidir. Satıcı-alıcı münasibətləri yüksək səviyyədə olduğundan bəzən güzəşt də edirlər. Yarmarkada gigiyenik qaydalara da yüksək səviyyədə əməl olunur. Bu cür yarmarkaların mütəmadi keçirilməsi həm yerli istehsalın təşviqi, həm də əhalinin sosial rifahının yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Çox istərdim yarmarkalar daimi olsun, həm büdcəmizə qənaət etmiş olarıq, həm də orqanik məhsullardan yararlanarıq. Əsas odur ki, məhsulları birbaşa istehsalçılardan alırıq. Həm də istənilən növ məhsulları seçmək imkanımız var. Zəhmət adamlarına təşəkkür edirəm. Onlar ilboyu əkib-becərirlər. Çəkdikləri əziyyət, axıtdıqları alın təri ölçüyəgəlməzdir. Biz paytaxt sakinləri məhz kənd əməkçilərinin zəhməti sayəsində hər növ keyfiyyətli qida məhsulları ilə təmin olunuruq. Bir anlığa diqqət etsək, görərik ki, piştaxtalarda nələr yoxdur? Bu məhsullar onların qabar əllərinin bəhrəsidir".

Yarmarkaların düzgün və mütəşəkkil təşkili bazar münasibətlərinin sağlam inkişafına, əhalinin maddi təminatının yaxşılaşdırılmasına və cəmiyyətin iqtisadi fəallığının artmasına xidmət edir.

Onu da qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən təşkil olunan "Kənddən Şəhərə" Novruz yarmarkası martın 18-dək davam edəcək.

*Müşfiq MİRZƏ*
*XQ*

# Şimpanzelərin də zövqü var

## *Onlar da insanlar kimi bəzəyi sevirlər*

**Arxeoloqlar qədim insan məskənlərində tez-tez kristal parçaları tapırlar. Bunların bəziləri 100 minlərlə il əvvələ aiddir. Maraqlıdır ki, onların çoxu alət, silah və ya bəzək kimi istifadə olunmayıb. Bu da belə bir sual yaradır: qədim insanlar kristalları niyə toplayırdılar?**



Bu sualı araşdırmaq üçün ispaniyalı alimlər insanın yaxın qohumu olan şimpanzelərlə təcrübə aparıblar. Məqsəd onlarda da kristallara marağın olub-olmadığını öyrənmək idi. Tədqiqatın nəticələri "Frontiers in Psychology" jurnalında dərc olunub.

Araşdırmalar göstərir ki, qədim insanlar kristalları, ən azı, 700–800 min il əvvəl toplamağa başlayıblar. Bir çox yaşayış yerlərində tapılan kvars kristalları uzaq ərazilərdən gətirilib. Bu isə onların təsadüfən deyil, məqsədli şəkildə toplandığını göstərir.

Təcrübələr zamanı şimpanzelərə həm kvars kristalı, həm də adi daş verilib. Başlanğıcda hər ikisinə qısa müddətdən sonra əsasən kristallara maraq göstəriblər. Onlar kristalı fırladıb və müxtəlif bucaqlardan baxıblar. Hətta bir şimpanze kristalı istirahət etdikləri otağa aparıb.

Başqa bir təcrübədə isə kiçik kristallar adi daşlarla qarışdırılıb. Şimpanzelər, demək olar ki, dərhal kristalları seçə biliblər. Hətta qarışığa başqa minerallar əlavə olunanda belə, onları adi daşlardan ayırmaqda çətinlik çəkməyiblər.

Alimlər müşahidə ediblər ki, şimpanzelər xüsusilə kristalların şəffaflığına maraq göstərirlər. Onları işığa tutaraq uzun müddət izləyirlər. Bəzən kristalları ağızlarında daşıyırlar ki, bu da onlar üçün qeyri-adi davranış sayılır.

Alimlərin fikrincə, kristalların cazibəsi onların forması və işığı fərqli əks etdirməsi ilə bağlıdır. Təbiətdə əksər obyektlər nizamsız formada olur, kristallar isə simmetrik və düz səthlərə malikdir. Bu xüsusiyyətlər həm insanlarda, həm də digər primatlarda maraq yarada bilər.

Tədqiqatçılar hesab edirlər ki, qədim insanlar da kristalları məhz bu qeyri-adi xüsusiyyətlərinə görə toplayıblar. Ola bilsin ki, bu maraq sonradan incəsənət və estetik zövqün yaranmasına səbəb olan ilk addımlardan biri olub.

Beləliklə, kristallar insanın gözəlliyə və qeyri-adiliyə marağının çox qədim olduğunu göstərir.

*Nurəngiz ADİLQIZI*
*XQ*

## "SUMQAYIT SANTEXNİK HİSSƏ" ATSC səhmdarlarının nəzərinə!

"Sumqayıt Santexnik Hissə" ATSC səhmdarlarının növbəti illik ümumi yığıncağı 26 aprel 2026-cı il saat 10:00-da Sumqayıt şəhəri, Metallurqlar küçəsi 25 nömrəli ünvanda keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin 2025-ci il ərzində gördüyü işlər və qarşıda duran vəzifələr barədə idarə heyətinin illik hesabatı.

**2.** Cəmiyyətin 2025-ci il üçün maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabatı və 2025-ci ilin balansının təsdiq edilməsi.

**3.** Digər məsələlər.

**Ünvan:** *Sumqayıt şəhəri, Metallurqlar küçəsi 25.*

***İdarə heyətinin sədri***
***Eldar Cəfərov***

## HAVA

### Bakıda çiskin, rayonlarda yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin ayın 10-dan 11-nə keçən gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-6, gündüz 7-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi 779 millimetr civə sütunundan 776 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 75-80, gündüz 60-65 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gündüz tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-5, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 10-15, gündüz 0-5 dərəcə şaxta olacaq.

*Q.ƏLİYEV*
*XQ*

***✓ Abşeron rayon, Mehdiabad qəsəbəsi 1 saylı tam orta məktəb tərəfindən 1985-ci ildə Hüseynov Mehman Əyyub oğlunun adına verilmiş 11 illik attestat itdiyi üçün etibarsız sayılır.***

***✓ Xaçmaz rayon İstisu qəsəbə sakini Yəhyayev Məzair Yəhya oğluna məxsus 01BL384 dövlət nömrə nişanlı "OPEL ASTRA" markalı minik avtomobilinə məxsus BD seriyalı, 700637 nömrəli texniki pasport itdiyi üçün etibarsız sayılır.***

***✓ 2 mart 2026-cı ildə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Sənan Kənan oğlu Mustafanın adına verilmiş AR N 063446 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 2960**
**SİFARİŞ 348**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Mehparə ƏLİYEVA**
**Çapa imzalanmışdır 00:00**